***Millət vəkili kimi*** - seçicilərinin bütün problemlərini dərindən öyrənən, bu problemlərin həlli yolunda bütün gücünü sərf edən, ona olan etimadı çox məharətlə doğruldan bir deputat.Bu cəhətləri özündə birləşdirən çox az sayda adamlar var. Bariz misal kimi mənim tanıdığım gənc bir alim bu gün Elmlər Akademiyasının həqiqi üzvüdür.Bu gün ömrünün müdriklik dövrünü yaşayan, ruhən isə gənc olan Yaqub Mahmudov təkcə Azərbaycanda deyil, bütün Türk dünyasında milli mövqeyi olan tarixçi və böyük ictimai-siyasi xadim kimi tanınır.Yaqub Mahmudov təkcə dostlarına deyil, ona üz tutan hər bir insana imkanı daxilində yardım edən bir şəxsiyyətdir.Yaxşılıq heç zaman itmir, bu mənəvi zənginlik çox böyük qüdrətə çevrilir və nəsildən-nəslə ötürülür. Bu mənada Yaqub müəllim çox zəngin və qüdrətli adamdır, çünki onun bütün həyatı xeyirxahlıq üzərində köklənmişdir.

Əziz Yaqub müəllim!

Mən sizi əlamətdar yubiley münasibətilə səmimi qəlbdən təbrik edir, şərəfli səhifələrlə zəngin tale kitabınıza parlaq nailiyyətlər bolluğu arzulayıram.

# Azərbaycan Tarixinin İntibahına Həsr Olunan Şərəfli Ömür

**Şəmsəddin Hacıyev***

Azərbaycan tarix elminin görkəmli nümayəndəsi, elmi ictimaiyyətimizin dəyərli ziyalılarından biri, dünyaşöhrətli alim-tədqiqatçı, böyük elmi məktəbin yaradıcısı, əziz dostum və deputat həmkarım Akademik Yaqub Mahmudovu şanlı və şərəfli 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, sağlam uzun ömür, bütün ömrünü həsr etdiyi doğma Vətənimizə xidmət naminə çoxşaxəli ictimai-siyasi və elmi-pedaqoji fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayıram.Azərbaycan xalqı qədim dövlətçilik tarixinə və əsrlərlə yaşadılaraq nəsildən-nəsilə ötürülən zəngin mədəniyyətə, milli adət-ənənələrə malikdir. Bu qədim və zəngin tarixi irsin elmi əsaslarının fundamental şəkildə öyrənilməsi, bəşəriyyətin yaddaşına əbədi həkk olunması üçün yazılması və gələcək nəsillərə ötürülməsi tarixçi alimdən böyük zəhmət, yüksək savad, istedad, obyektivlik, ən əsası isə saf Vətən sevgisi, milli qeyrət tələb edir. Bu şərəfli və yüksək məsuliyyət tələb edən vəzifənin öhdəsindən gəlmək hər tarixçi alimə nəsib olmur. Yaqub müəllimin həyat yolunun ömür səhifələrini vərəqlədikcə Vətən tarixinin, türkçülük və azərbaycançılıq ideologiyasının intibahı uğrunda yorulmaz və fədakar mübarizələr aparan elə bir tarixçi-alim və vətəndaş taleyi ilə qarşılaşırıq ki, onun sanki bu ali vəzifə üçün dünyaya gəldiyinə, bunun bir alın yazısı olduğuna əmin olursan.

Sarsılmaz dərəcədə güclü və ülvi torpaq, yurd sevgisi, Türkün şanlı tarixinin milli çalarlarının obyektiv şəkildə, tarixi mənbələrə əsasən yenidən araşdırılması, XX əsrin sonlarında Azərbaycanda alovlanan milli dirçəliş hərəkatında cəsarətli ziyalı mövqeyinin nümayiş etdirməsi, azərbaycançılıq məfkurəsi uğrunda mübarizə və Azərbaycanın itirilmiş əzəli torpaqlarının tarixinin fundamental elmi faktlarla əsaslandırılması bu görkəmli tarixçinin elmi yaradıcılığında qırmızı xətlə keçir. Azərbaycanı işğal edərək uzun müddət əsarət altında saxlayan çar Rusiyasının, eləcə də Sovetlər Birliyi tərəfindən əsrlərlə davam etdirilən Türk düşmənçiliyi zəminində təhrif olunaraq bizə sırınan tarixi Yaqub müəllim sözün əsl mənasında yenidən yazaraq

*Prof.,Dr., Milli Məclisin deputatı (millet vekili), YAP Səbail rayon təşkilatının sədri

özümüzə qaytarmaq kimi şərəfli bir missiyanı yerinə yetirən, bu amal uğrunda mərdliklə milli və beynəlxalq səviyyədə mücadələ aparan, prinsipial mövqeyi ilə erməni yalanlarını və saxta tarixşünaslıqlarını inkarolunmaz elmi faktlarla darmadağın edən, müasir Türk dünyasının ən böyük tarixçi alimlərindən biridir. Vətənə, torpağa olan bu böyük sevgi və əsl Türk oğluna xas olan bu mərdlik və cəsarət əlbəttə ki, yalnız qan yaddaşı ilə gələ bilərdi. Yaqub Mahmudovun anadan olduğu Şəkinin Baş Göynük kəndi böyük Oğuz boyundan "Kınık"lara (http://olaylar.az/news/musahibe/70602) bağlı olan və Azərbaycanda qədim türklərin yaşadığı kənddir. Yaqub müəllimin atası Mikayıl Mahmud oğlu 1918-1920-ci illərdə Şəki bölgəsində, Göynük mahalında azərbaycanlıları kütləvi surətdə qırmağa çalışan daşnaklara qarşı fəal mübarizə aparmış, başçılıq etdiyi xalq könüllüləri ilə birlikdə Gəncədə Nuru Paşanın xilaskarlıq döyüşlərində yaxından iştirak etmiş, illərlə erməni-daşnak yuvalarının dağıdılması əməliyyatlarına rəhbərlik etmişdir. Belə bir qəhrəman atanın övladı olan və türk ənənələrinə bağlı olan obada böyüyüb boya-başa çatan Yaqub müəllim, 1966-cı ildə Azərbaycanın xalq şairi Rəsul Rzanın rəhbərlik etdiyi Azərbaycan Sovet Ensiklopediyasında işlədiyi dövrdə əsl milli təəssübkeşlik məktəbi keçmişdir. Taleyin qisməti olan bu faktlar onu göstərir ki, bu dünyaşöhrətli tədqiqatçının Vətən sevgisinin, yurd məhəbbətinin dərin kökləri vardır. Yaqub müəllimin türkçülüyə, azərbaycançılığa bütün varlığı ilə bağlı olmasını Azərbaycan tarixinin elmi araşdırılmasına həsr etdiyi bütün elmi əsərlərində, müxtəlif dillərdə çap etdirdiyi onlarca fundamental kitab və monoqrafiyalarında ifadə etdiyi – *"Türk dünyasız, dünya türksüz ola bilməz"*, *"Tarixçilərimizin əsas vəzifəsi dünya ictimaiyyətini Azərbaycan reallıqları ilə tanış etməkdir"*, *"Milli Atlasın nəşr olunması milli dövlətçilik tariximizin çox mühüm hadisəsidir, xalqımızın zəngin tarixini və dövlət müstəqilliyini təsdiq edən ən qiymətli ilk mənbədir"* və s. kimi müdrik kəlamlarından aydın görmək olar.

Akademik Yaqub Mahmudovun Azərbaycan üçün ən böyük xidmətləri sırasında ilk növbədə onun çoxşaxəli elmi-pedaqoji fəaliyyəti və Azərbaycan-Türk xalqının genezisinə həsr olunan elmi yaradıcılığı xüsusi qeyd olunmalıdır. Milli tariximizin türk mərkəziyyətli konseptual çərçivədə yenidən araşdırılmasına başlayan, Azərbaycanın dövlətçilik və diplomatiya tarixinin ən qədim köklərindən etibarən sistemli öyrənilməsi işini koordinasiya edən, ermənilərin Azərbaycan xalqına qarşı zaman-zaman törətdikləri soyqırımlarının, cinayətlərin tarixini dünya ictimaiyyətinə çatdıran, "Azərbaycanın itirilmiş əzəli torpaqlarının tarixi"konsepsiyası ilə xarici opponentlərin əsassız

iddialarını puç edən və onlara ağır zərbə endirən, ensiklopedik biliyi və yorulmaz fəaliyyəti ilə Azərbaycan tarix elminə yeni nəfəs gətirən və bütün bu istiqamətlər üzrə böyük bir elmi məktəb yaradan Yaqub müəllim, bu mövzularda 1000-dən çox monoqrafiyanın, dərsliklərin, dərs vəsaitlərinin, orta və ali məktəblər üçün tədris planları və proqramların, tədris-metodiki vəsaitlərin, elmi və elmi-publisistik məqalələrin, dövri mətbuatda dərc olunmuş çoxsaylı yazıların müəllifi və yüzlərlə yüksəkixtisaslı, Azərbaycanı sevən, dövlətinə bağlı olan və xüsusi vətəndaş mövqeyi ilə seçilən yetirmələri ilə adını Azərbaycan tarix elminə əbədi həkk etdirmişdir.

Yaqub müəllim nəinki Azərbaycanın, yaxın coğrafiyanın, eləcə də Avrasiya ölkələrinin tarixini dərindən bilən və tədqiq edən görkəmli tarixçi-alim kimi öz əsərləri ilə ümumbəşəri tarixdə ənənəvi erməni tarixçi-ideoloqlarının uydurduqları və tarixdə heç vaxt mövcud olmayan “Böyük Ermənistan” konsepsiyasını tutarlı elmi faktlarla rüsvay etmiş, Azərbaycan tarix elminin uğurlarını dünya tarixşünaslığına yazdırmağı bacarmış, ilk dəfə Azərbaycanın tarixi xəritələrini hazırlayıb nəşr etdirmişdir. Bacarıqlı elm və tədris təşkilatçısı olan akademik Yaqub Mahmudov rəhbərlik etdiyi AMEA-nın Tarix İnstitutunu Azərbaycanda tarix üzrə elmi-metodoji mərkəzə çevirmiş, 50 ildən çox davam etdirdiyi pedaqoji fəaliyyəti dövründə Azərbaycan tarixi üzrə çoxsaylı ixtisas fənlərini tədris etməklə yüksəkixtisaslı tarixçi kadrların hazırlamasına böyük töhfələr vermişdir. Yaqub Mahmudovun çoxşaxəli elmi yaradıcılığında ensiklopediyaçılıq fəaliyyəti də tarixi, elmi və siyasi əhəmiyyətinə görə xüsusi yer tutur. Azərbaycan tarixinin sistemli, obyektiv və dünyada qəbul olunmuş tarixi mənbələrə əsaslanaraq təsvir olunması kimi genişhəcmli və titanik zəhmət tələb edən son dərəcə ağır işi çiyinlərinə götürən ilk tarixçilərdən biri olan Akademik Yaqub Mahmudov, Azərbaycan tarix elminə “Azərbaycan Respublikasının tarixi” ikicildliyi, “Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası” ikicildliyi kimi əvəzolunmaz əsərlər bəxş etmişdir.Dünyaşöhrətli tədqiqatçının tarix elmindəki nəhəng xidmətləri respublika səviyyəsində ən yüksək dövlət mükafatları ilə və bir çox beynəlxalq diplomlar, ordenlər, medallarla qiymətləndirilmişdir. Belə ki, alim əzəli Azərbaycan torpaqlarının tarixinə dair obyektiv araşdırmalarının və tutarlı elmi dəlillərin əks olunduğu, həmmüəllifi olduğu, 12 dildə nəşr olunmuş “Qarabağ: real tarix, faktlar, sənədlər”, 3 dildə nəşr olunmuş “İrəvan xanlığı” və 2 dildə nəşr olunmuş “Naxçıvan: tarixi və abidələri” silsilə əsərlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2012-ci il 25 may tarixli Fərmanı ilə dövlət mükafatına layiq görülmüşdür. Eyni zamanda bu

görkəmli Azərbaycan tarixçisi "Abbasqulu ağa Bakıxanov", "Yusif Məmmədəliyev", "Rəsul Rza", "Qızıl qılınc", "Qızıl qələm", "Samir Əsgərxanov" mükafatları laureatıdır, Beynəlxalq Sokrat Komitəsinin mükafatı, "Kraliça Viktoriya" diplomu və medalı, "Ataman Anton Qolovatov" ordeni ilə təltif olunmuşdur. Bütün bu mükafatlar bu elm fədaisinin uzunmüddətli və gərgin elmi axtarışlarının, zəhmətinin həm milli, həm də beynəlxalq səviyyədə qiymətləndirilməsinin, tədqiqatlarının aparıcı elm mərkəzləri və görkəmli alimlər tərəfindən təsdiqlənməsinin bariz sübutudur. Beynəlxalq səviyyədə qazanılan bu uğurlar göstərir ki, Yaqub müəllimin milli təəssübkeşliyi onun elmi araşdırmalarında alim obyektivliyinin önünə keçməmiş və akademik əsərlərində yalnız tarixi həqiqətlərin üzə çıxarmasına üstünlük vermişdır.

Təbii ki, bu mükafatların hər biri ayrı-ayrılıqda çox dəyərli olsa da, Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin Yaqub müəllim haqqında fikirləri sözsüz ki, alimin ən yüksək mükafatı sayıla bilər. Belə ki, 10 noyabr 2002-ci il tarixində Şəki Olimpiya İdman Kompleksinin açılış mərasimində Ulu Öndər Heydər Əliyev Yaqub Mahmudovun Şəki torpağının ən görkəmli yetirmələrindən biri olduğunu vurğulayaraq Rəşid bəy Əfəndiyev, Salman Mümtaz, Sabit Rəhman, Bəxtiyar Vahabzadə kimi Azərbaycan mədəniyyətinin və elminin nəhəng nümayəndələri sırasında Yaqub müəllimin adını çəkmiş və onu "böyük tarixçi" adlandırmışdır. Hər zaman prinsipial vətəndaşlıq mövqeyi ilə seçilən Yaqub Mahmudov Azərbaycanın ölüm ya olum məsələ-sinin həll olunduğu 1992-1993-cü illərdə ölkənin qurtuluş yolunu məhz Heydər Əliyevin hakimiyyətə qayıdışında görən və bunu açıq şəkildə bəyan edən ziyalılardan olmuş, o ziddiyyətli və təhlükəli dövrdə əsl cəsarət nümayiş etdirərək çəkinmədən Heydər Əliyevin müdafiəsinə qalxmışdır. Ötən əsrin sonlarında Azərbaycanda başlayan milli dirçəliş hərəkatında bir ziyalı alim kimi fəal mövqe nümayiş etdirən Yaqub müəllim cəsarətli çıxışlar etmiş, mətbuatda publisistik yazıları ilə müstəqil ziyalı mövqeyini nümayiş etdirmiş, Heydər Əliyevin rəhbərliyi ilə yaradılan Yeni Azərbaycan Partiyasının sıralarına daxil olmuş, partiyanın I Qurultayında fəal iştirak etmiş və bu qurultayda YAP Siyasi Şurasının üzvü seçilmişdir.Akademik gənc yaşlarından tanıdığı Heydər Əliyev haqqında ilk fundamental tədqiqat əsəri yazan müəlliflərdən biri olmuş və Heydər Əliyev şəxsiyyətini, Ulu öndərin Azərbaycanın müstəqil dövlətçiliyi və Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərini tarixin əbədi yaddaşına həkk edən ölməz əsərlər yaratmışdır.

Milli mənlik və özünüdərk şüurunu elmi yaradıcılığında uğurla təbliğ edən və

*"Azərbaycançılıq ruhunu uca tutmaq bizim ziyalılıq vəzifəmizdir"* deyən Yaqub Mahmudov görkəmli alim olmaqla yanaşı, genişmiqyaslı ictimai-siyasi fəaliyyətində də daim əsl vətəndaş prinsipiallığı ilə seçilən, ölkədəki ictimai-siyasi hadisələrə biganə olmayan, ürək yanğısı ilə hər zaman sözünü, mövqeyini bildirən və müstəqil dövlətçilik ideyalarına qəlbən bağlı olan dəyərli ziyalılarımızdandır. 2000-ci ildən Milli Məclisin deputatı seçilən Yaqub Mahmudov II, III, IV və V çağırış Milli Məclisin fəaliyyətində yaxından iştirak edən, Azərbaycanın daxili və xarici siyasət məsələlərində obyektiv, prinsipal və vicdanlı vətəndaş möv-qeyini bildirən, seçicilərinin problemlərinə xüsusi diqqət və qayğı ilə yanaşan millət vəkili kimi fəaliyyətini bu gün də uğurla davam etdirir. Görkəmli alimin daha bir ictimai fəaliyyəti onun ssenari müəllifi olduğu tarixi sənədli filmlərdə öz əksini tapmışdır. Yaqub müəllimin vətənpərvər tarixçi mövqeyini nümayiş etdirdiyi "Şuşa-Pənahabad", "İrəvan xanlığı", "Dahi Azərbaycanlı", "Tariximizin keşiyində" kimi filmlər Azərbaycan dövlətçiliyinin, milli dəyərlərimizin təbliğinə xidmət edir. Yaqub Mahmudovun Azərbaycanın milli maraqlarının qorunmasına xidmət edən yorulmaz ictimai-siyasi fəaliyyəti dövlətimiz tərəfindən layiqli şəkildə qiymətləndirilmiş və o, tarix elminin inkişafındakı xidmətləri və ölkənin ictimai-siyasi həyatında fəal iştirakına görə "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif olunmuşdur.Yaqub Mahmudov görkəmli alim və tanınmış ictimai-siyasi xadim olmaqla yanaşı yüksək şəxsi və insani keyfiyyətləri, əsl pedaqoq və ziyalıya xas olan yüksək mədəniyyəti, mərdliyi, cəsarəti, insanpərvərliyi, zəhmətsevərliyi, sədaqəti, sözübütövlüyü ilə də cəmiyyətdə, həmkarları, dostları və tələbələri arasında böyük hörmət qazanmış əsl dost, etibarlı həmkar və el ağsaqqalıdır. Yaqub müəllimin güclü xarakteri ən çətin məqamlarda özünü büruzə vermiş, elmi və ictimai fəaliyyətinin ilk illərindən paxıllıq, haqsızlıqlar, təqiblər, qərəzli yanaşmalarla üzləşmiş, sonrakı dövrlərdə isə xüsusilə, Azərbaycan tarixi ilə bağlı araşdırmalarına görə erməni və erməniпərəst dairələrin ciddi təzyiqlərinə məruz qalmış, lakin bunların heç birinə heç vaxt boyun əyməmiş, haqq mübarizəsini bu gün də davam etdirməkdədir. 1990-cı ilin noyabrında Bakı Dövlət Universitetinin Tarix fakültəsinin xalq hərəkatında fəal iştirak edən bir qrup tələbəsinin universitetdən xaric olunmasına etiraz əlaməti olaraq dekan vəzifəsindən istefa vermək cəsarəti və mərdliyini nümayiş etdirən Yaqub Mahmudov bu kimi bir çox əsl kişi xasiyyətləri ilə yanaşı çox gözəl ailə başçısı, övladlarına qarşı son dərəcə həssas və qayğıkeş ata, nəvələri üçün dayaq olan sevilən babadır. Yaqub müəllim bütün varlığı ilə bağlı olduğu və elmi araşdırmalarının ana xəttini təşkil edən türkçülük, azərbaycançılıq məfkurəsini,

Vətənə, millətinə olan dərin məhəbbətini, sədaqətini və yüksək həyat prinsiplərini övladlarına, nəvələrinə də aşılamışdır.Beləliklə, görkəmli alimin keçdiyi şərəfli həyat yoluna bir daha nəzər saldıqda onu milli tarix elminin inkişafında misilsiz xidmətləri olan vətənpərvər alim, ömrünü yüksəkixtisaslı kadr hazırlığına həsr edən və bu yolda böyük bir elmi məktəbin yaradıcısı olan görkəmli pedaqoq, Azərbaycan dövlətçiliyinin ən keşməkeşli məqamlarında cəsarətlə prinsipial vətəndaşlıq mövqeyini nümayiş etdirən tanınmış ictimai-siyasi xadim, rəhbərlik etdiyi Tarix İnstitutunda yeni bir idarəçilik sistemi yaradan no-vator-islahatçı rəhbər və nəhayət, ən yüksək mənəvi keyfiy-yətlərə malik olan gözəl insan və əsl şəxsiyyət kimi yenidən kəşf edirsən. Təkzibolunmaz faktdır ki, Yaqub Mahmudov dövrü-müzün yaşayan elm korifeylərindən biridir.Mənim bu görkəmli alimlə şəxsi tanışlığım, onunla deputat həmkarı olmağım isə daha bir uğurlu qismətimdir. Yaqub müəllimlə münasibətimiz Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasında yeni tədris planlarının və proqramlarının hazırlanması dövründən başlamış, “Təhsil haqqında” və “Elm haqqında” Azərbaycan Respublikası qanun-larının hazırlanmasında sıx əməkdaşlıq etməyimizlə möhkəmlənərək dostluq səviyyəsinə qədər yüksəlmişdir. Deputat həmkarlarından biri kimi Şəkidə bir çox tədbirlərdə xalqın ona olan hörmətinin, sevgisinin, Şəkinin və seçicilərinin problemlərinin həllinə necə həssaslıq və qayğıkeşliklə yanaşmasının dəfələrlə şahidi olmuşam. Yeni Azərbaycan Partiyası sıralarında siyasi həmfikir olaraq Yaqub müəllimin bu gün də partiyamıza, onun Liderinə sədaqətlə xidmət etdiyinin şahidiyəm. Yaqub müəllim görkəmli alim olduğu qədər, yüksək amallara xidmət edən zəngin və şərəfli həyat yolu ilə, Vətəninə, millətinə olan sevgisi və əsl vətəndaşlıq mövqeyi ilə bir çoxlarına nümunə olan, yetərincə ictimailəşmiş bir simadır, həm yaxşı günün, həm də pis günün dostudur. Əziz dostumu bu şanlı və şərəfli yubileyi münasibətilə bir daha səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür, elmi-pedaqoji fəaliyyətində daha yüksək zirvələr arzu edirəm! Yaqub müəllim, biz Sizinlə fəxr edirik və qürur duyuruq! Siz erməni “tarixçilərinə” göstərdiniz ki, tarixi saxtalaşdırmaq, təhrif etmək olmaz və Azərbaycan alimi heç vaxt imkan verməz ki, yalançı, oğru və paslanmış erməni təfəkkürü ilə bəşər tarixini öz böhtanları və əsassız iddiaları ilə çirkləndirsinlər. Siz yorulmaz fəaliyyətiniz, fundamental elmi araşdır-malarınız və əsərlərinizlə Azərbaycan həqiqətlərini dünyaya təqdim etdiniz. Azərbaycan xalqı bu nəhəng işlərinizi heç vaxt unutmayacaq, əbədi olaraq yaşadacaqdır. Yubileyiniz mübarək olsun, şərəfli Vətən oğlu

# Hörmətli Akademikimizə Yubiley Təbriki

**T.T.Mustafazadə***




2004-cü ilin sentyabr ayında Yaqub müəllim AMEA A.A.Bakıxanov adına Tarix İnstitutuna direktor təyin edilərkən ən çox sevinənlərdən biri mən oldum. Çünki onun son vaxtlar İnstitutda yaranmış süstlüyə son qoyacağına, tarix elminin inkişafına təkan verəcəyinə əmin idim. Bu əminliyin səbəbi isə mənim hələ tələbəlik illərindən Yaqub müəllimi tanımağım, sonra isə onun dekanı olduğu BDU-nun tarix fakultəsində əvəzçiliklə uzun illər dərs deməyim idi. Məsələ burasındadır ki, bizim qrup, yəni ADU-nun (indiki BDU) Tarix fakultəsinin 464-cü qrupu Yaqub müəllimin dərs dediyi ilk qrup olmuşdur və mən hörmətli akademikin ilk tələbələrindən olmağımla fəxr edirəm. 1967-1968-ci tədris ilinin ikinci

*PROF., AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Beynəlxalq münasibətlər tarixi" şöbəsinin müdiri, əməkdar elm xadimi və Dövlət mükafatı laureatı,Azərbaycan Tarix Qurumu İctimai Birliyinin sədri

semestri idi. Orta əsrlər tarixi fənninin ikinci hissəsindən Yaqub müəllim bizə mühazirə oxumağa başladı və biz Yaqub müəllimin maraqlı və bizim üçün tamamilə yeni dərs üslubunu müşahidə etdik. Yaqub müəllim digər müəllimlərin monoloq tipli mühazirə oxumaq üslubundan imtina edərək mövzunun ana xətlərini elan edib onlar haqqında ümumi məlumat verdikdən sonra qaldırılan məsələlərlə bağlı bir-bir bütün tələbələrə sual verir, onların cavablarını eşitdikdən sonra təhlil edir, bizim deyə bilmədiklərimizi qeyd edirdi. Bu cür dərs isə təbii ki, bizim üçün çox maraqlı olmaqla fənnin yaxşı mənimsənilməsinə kömək edirdi. Bir məsələni qeyd edim. Tələbələri sorğuya tutanda həmişə əgər düzgün cavab ala bilmirdisə ən axırıncı məndən soruşardı.

Yaqub müəllim İnstitut rəhbərliyinə gələn kimi bir sıra yeni tədqiqat istiqamətlərini müəyyənləşdirdi. Prioritet istiqamətlərdən biri itirilmiş torpaqlarımızın tarixinin öyrənilməsi oldu. Onun bilavasitə rəhbərliyi ilə qədimdən Azərbaycan torpağı olmuş və sonra zorla qoparılaraq ayrı dövlətlərə birləşdirilmiş İrəvan, Dərbənd və Borçalı torpaqlarının tarixi tədqiq olunmağa başlanmış və bu sahədə mühüm uğurlar əldə olunmuşdur. Bunun nəticəsidir ki, Yaqub müəllimin baş redaktor və həmmüəllif, mənim isə baş redaktorun müavini və həmmüəllifi olduğum «İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarının köçürülməsi» adlı monoqrafiya 2012-ci ildə Respublika Dövlət Mükafatına layiq görülmüşdür.

Yaqub müəllimin müəyyənləşdirdiyi prioritet elmi istiqamətlərdən biri də Azərbaycan Xalq Cümhuriyyətinin və müstəqil Azərbaycan Respublikasının tarixinin tədqiqidir ki, bu istiqamət üzrə xeyli sanballı əsərlər meydana çıxmışdır. Yaqub müəllimin müəyyənləşdirdiyi prioritet istiqamətlərdən biri də Azərbaycanın soyqırımı tarixinin öyrənilməsi və dünya ictimaiyyətinə çatdırılmasıdır. Nəhayət Yaqub müəllim erməni

saxtakarlarına qarşı əsil bir fədai kimi döyüşür, onların saxtakarlıqların, uydurmaların ifşa edən çoxlu sanballı əsərlərin müəllifidir.

Yaqub müəllimin mühüm xidmətlərindən biri də zənnimcə nəşr işinin fəallaşdırılmasıdır. Əgər əvvəllər İnstitut əməkdaşlarının cəmi 1-2 əsəri, həm də müəllifin hesabına çap olunurdusa, indi ildə İnstitut əməkdaşlarının 40-50 əsəri işıq üzü görür.

Bir məsələni də xüsusi qeyd etmək istərdim. Məlumdur ki, Azərbaycan tarixi üzrə bir çox sənədlər müxtəlif ölkələrin arxivlərində saxlanılır və onların gətirilib elmi tədqiqata cəlb edilməsi zəruridir. Lakin XX əsrin 90-cı illərində və XXI əsrin əvvəllərində kifayət qədər maliyyə vəsaitinin ayrılmaması səbəbindən ildə yalnız 1-2 nəfər xarici ölkələrə ezamiyyətə göndərilirdi. Yaqub müəllimin səyləri nəticəsində indi ildə 30-50 nəfər ezamiyyətə göndərilir və Rusiya, Türkiyə, İngiltərə, Fransa, Almaniya arxivlərindən materiallar gətirirlər. Bunun nəticəsində İnstitutun yüzlərlə sənədlər toplusu tərtib olunmuşdur.

Nəhayət, əvvəllər İnstitutumuzun xarici ölkə alimləri ilə əməkdaşlığı çox zəif idi. Yaqub müəllimin rəhbərliyi dövründə bu əlaqələr xeyli genişlənmişdir, hər il Tarix İnstitutunun keçirdiyi beynəlxalq konfranslarda müxtəlif ölkələrdən onlarla alim iştirak edir. Yaqub müəllim şəxsən özü xaricdə keçirilən elmi tədbirlərdə iştirak edir və bu zaman hətta xarici alimlərin yol verdikləri nöqsanları cəsarətlə onların üzünə söyləyir. Fərəhli haldır ki, bir sıra ölkələrdə, ilk növbədə qardaş Türkiyədə onu duayen kimi qəbul edir və ehtiram göstərirlər, hökmən həm açılış nitqini söyləməsini, tədbirin sonunda isə ümumiləşdirici çıxış etməsini xahiş edirlər. Yaqub müəllimin çıxışları isə çox maraqlı və yüksək səviyyədə olur, dinləyicilərin sürəkli alqışlarına səbəb olur. Eyni zamanda İnstitutumuzun onlarla əməkdaşı müxtəlif ölkələrdə keçirilən beynəlxalq elmi konfranslarda və simpoziumlara qatılaraq respublikamızı layiqincə təmsil edirlər.




Beləliklə, qeyd etmək istərdim ki, akademik Yaqub Mahmudovun rəhbərliyi altında AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu intibah dövrünü yaşayır. Əziz və hörmətli akademikimizə uzun ömür və can sağlığı arzu edirəm ki, İnstitutumuzun tərəqqisi, ümumiyyətlə Azərbaycan tarix elminin inkişafı üçün fəaliyyətini uğurla davam etdirə bilsin.

# Xalqa Xidmət Nümunəsi

**Kərim Şükürov***

Yaqub müəllimin 70 illiyi münasibəti ilə "Tarixşünaslıq işığında" adlı tarixi-publisistik bir yazı yazmışdım. Həmin yazını yeni-yeni yubileylər arzusu ilə bitirmişdim. Budur, unudulmaz on il də keçdi. Başlanan işlər davam etdirildi və daha neçə yeni işlər başlandı. Mən də həyatın və yazımın məntiqinə uyğun olaraq düşüncələrimi davam etdirməyi qərara aldım. Bunun üçün on il əvvəlki yazımı olduğu kimi burada təkrar verməyi lazım bildim ki, bugünkü fikirlərim ilə onun məzmununun ahəngi aydın olsun. Beləliklə, on il əvvəlki yazıdan başlayaq: "Açıq etiraf edim ki, müasir Azərbaycan Respublikasının ictimai-siyasi və elmi təşkilati həyatında böyük hörmət və nüfuza malik olan Yaqub müəllimin yubileyi haqqında yazıya emosional və pafos dolu bir başlıq vermək, yazını elə bu mövzuda davam etdirmək olardı. Lakin yubiley mərasimlərinin belə onu gündəlik qayğılarından ayırmağa yetmədiyini də bilirəm. Bu qayğıların əsasında isə onun tarixçiliyi, Azərbaycan tarix elmi qarşısında məsuliyyəti dayanır. Yaqub müəllimin həyatının bütün fəaliyyət istiqamətləri (millət vəkilliyi, institut direktorluğu və s.) tarixçilikdən qaynaqlanır. Ona görə də yazıma ciddi bir ad verməyi qərara aldım: Tarixşünaslıq işığında.

XX əsrin ikinci yarısı – XXI əsrin əvvəlləri dünya tarix elmində, o cümlədən bu elmi inkişaf etdirən tarixçilərin həyatında yeni bir dövr oldu. II Dünya müharibəsindən sonra ABŞ, İngiltərə, Fransa, Almaniya və b. ölkələrdə tarixçilərin yeni nəsli, yeni tarix məktəbləri, nəzəriyyə və əsərlər yarandı. Dünya tarix elmində xüsusi yer tutan marksist-leninçi sovet tarix elmi isə nəinki ümumi inkişafdan ayrıldı, hətta özünü bu inkişafa qarşı qoydu. Qısa müddətli «mülayimləşmə» dövründən sonra sovet tarix elmi yenidən ideologiya və siyasətin xidmətinə verildi. Yalnız SSRİ-nin dağılması (1991) tarix elmini bu buxovlardan azad etdi.Onsuz da mürəkkəb inkişaf yolu keçən Azərbaycan tarixçiliyi bu ziddiyyətlərdən daha çox deformasiyaya uğramışdı. Müstəqillik əldə olunması ilə onun nəticələrinin aradan qaldırılması geniş vüsət aldı, yeni elmi araşdırmalar meydana gəldi. Lakin bunun istənilən şəkildə və səviyyədə

*****Prof.,Dr.AMEA Tarix İnstitutu "Azərbaycanın Tarixi Demoqrafiyası" şöbəsinin müdiri, E-mail: kkshukurov@mail.ru*

getdiyini də söyləmək xeyli çətindir.

Yaqub müəllimin bu cür mürəkkəb və ziddiyyətli dövrlərdən keçib günümüzədək çatan yaradıcılıq yolu uğurlu olub. Azərbaycan və dünya tarixçiliyinin ən vacib tələblərini əks etdirən bu yaradıcılıq yolu bir sıra özünəməxsus xüsusiyyətləri ilə də zəngindir. Bunlardan bəziləri üzərində xüsusi dayanmağa ehtiyac var. Burada ilk yerdə Azərbaycan tarixinin dili məsələsi gəlir. Bu bir həqiqətdir ki, Azərbaycan tarixçilərinin əksəriyyəti əsərlərini başqa dillərdə (ərəb, fars, rus və b.) yazıb. Nəticədə bu əsərlər xalqdan uzaq düşmüşdür. Yaqub müəllimin əsərləri bu sahədə istisna təşkil edir. Xarici səyyahların Azərbaycan haqqında baxışları kimi mürəkkəb bir mövzunun ölkə oxucularına ana dilində çatdırılması Azərbaycan tarixçiliyində mühüm hadisə idi. «Öyrənilməmiş səhifələr» (1972), «Səyyahlar Azərbaycana gəlir» (1997), «Odlar yurduna səyahət» (1980) və «Səyyahlar, kəşflər, Azərbaycan» (1985) kitablarında bir sıra dövlətlərdən Azərbaycana gəlmiş müxtəlif dilli, müxtəlif məqsədli səyyahlar Azərbaycan ətrafında birləşdirilir və Azərbaycan dilində «danışdırılır». Səyyahlarla bağlı tədqiqatların məntiqi davamı kimi meydana gələn «Azərbaycan diplomatiyası: Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV – XVII yüzilliklər)» (1996) kitabı əslində rus variantının (1991) tam tərcüməsi olmayıb, tədqiqat problemini Azərbaycan dilinin bütün zənginlikləri ilə əks etdirən orijinal bir əsərdir.

Mənə elə gəlir ki, Azərbaycan ədəbiyyatında olduğu kimi tarixində də dil xüsusi tədqiqat predmeti ola bilər. Bu halda ilk yerlərdə Yaqub müəllimin əsərləri dayanar. Tarixi prosesin dolğun ifadəsi, tarix dilinin poetikası, gözəlliyi bu əsərlərin xarakterik xüsusiyyətidir. Tarix və müasirliyi bir araya gətirib onu maraqlı bir hekayətə çevirmək hər kəsə nəsib olmur.Tarixçilik peşəkar üçün bir sənətdir. Yaqub müəllimin əsərlərində tarixçi – sənətkar yanaşması əsas yer tutur. Problemlərin seçilməsi, elmi baxımdan qoyulması, tarixi ədəbiyyat və mənbələr üzərində iş, fikrin inkişafı, nəticələr və yeniliklərin müəyyənləşdirilməsi yüksək sənətkarlıqla ifa edilir.Yaqub müəllim tarixçilikdə dövr və problem anlayışına hörmətlə yanaşan, lakin onun fövqündə duran bir tarixçidir. Ona görə də ümumiləşdirilmiş Azərbaycan tarixi kitablarının redaktoru kimi, Azərbaycan tarixi üzrə problemlərin koordinatoru kimi məsul işlər həyata keçirir.

Yaqub müəllim yenilikçi tarixçidir. Müasir tarix elminin prioritet istiqamətlərinin vaxtında müəyyənləşdirilməsi və onun Azərbaycan tarixinə tətbiqi xüsusi qeyd edilə bilər. Bakı Dövlət Universitetində dekanlığı dövründə Tarixi tədqiqatlarda kəmiyyət metodlarının tətbiqi və Tarixi demoqrafiya elmi-tədqiqat laboratoriyalarının açılması və

işinin təşkili buna nümunə ola bilər. Onun rəhbərliyi altında tarixi – demoqrafik tədqiqatlar artdı (X.Verdieva (1999), S.İbişov (2004), N.Quliyev (2006), İ.Kazımov (2007) və b.). Bu sahə üzrə onlarla məqalə və kitab yazıldı, dissertasiyalar müdafiə edildi. Tarixin xalq və dövlət qarşısında ən mühüm vəzifələrindən biri də dövrün – zamanın çağırışına cavab verməsidir. Yaqub müəllim bu çağırışlara cavabların müəllifi və ya təşkilatçısıdır. Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinin öyrənilməsi, Qarabağ, Naxçıvan, İrəvan və b. bölgələrin keçmişinin sistemli araşdırılması, itirilmiş torpaqların tarixi və s. məsələlər bu qəbildəndir. Bütün elmlərdə olduğu kimi tarix elmində də aktual problemlər üzrə beynəlxalq konfranslarda məruzələrlə çıxış etmək tarixçilər üçün də böyük əhəmiyyət daşıyır. Yaqub müəllimin iştirak etdiyi beynəlxalq konfransların coğrafiyası (ABŞ, Almaniya, Türkiyə və b.) olduqca genişdir. Bu çıxışlar tarixçinin bey-nəlxalq nüfuzu ilə birgə Azərbaycan tarix elminin təmsili üçün də vacibdir. Yaqub müəllimin bir tarixçi kimi xarakteristikasını genişləndirmək də olar. Lakin daha bir məsələ üzərində dayanmaqla fikrimi yekunlaşdırmaq istəyirəm. Bu Yaqub müəllimin yüksək insani keyfiyyətlərindən irəli gələn ünsiyyətliliyi, hamı ilə dil tapması, nəinki həmkarları, hətta istənilən şəxslə fikir mübadiləsi və təmas üçün qapısının açıq olmasıdır.Yaqub müəllimin həyat və yaradıcılığı tariximizin, tarixçi-liyimizin üzvi bir parçasına çevrilmişdir. Bu baxımdan həmin mövzunun ayrıca tədqiq olunması vaxtı da çoxdan çatmışdır. Bu araşdırma daha əhatəli nəticələrə gəlməyə imkan verə bilər.

Tarixçi üçün yaş və həyat təcrübəsi böyük sərvətdir, ən mürəkkəb elmi problemlərin həlli üçün əvəzedilməz vasitədir. Yaqub müəllimin qədir – qiyməti yalnız etdiklərində deyil, həm də edə biləcəklərindədir. Bunun üçün isə zamana ehtiyac var.

Sizə yeni-yeni yubileylər arzulayıram, Yaqub müəllim."

Buradan başlayaraq tarixçiliklə formalaşan və özünü təsdiq edən bir ömrün mənasından bəhs etmək istəyirəm. Yaqub müəllimin həyatı xalqa xidmət nümunəsidir. Mənim aləmimdə xalqa xidmət mücərrəd bir anlayış olmayıb, xalqın bir köməksiz övladına yardımçı olmaq, gücsüzə dayaq olmaq və ya güclüyə, yaxud arxalıya düzgün yol göstərməkdən başlayıb, tutulan vəzifənin ləyaqətlə yerinə yetirilməsi, xalqın müstəqillik ideallarına sədaqət və onun dünya miqyasında şərəflə tanıdılmasından ibarətdir. Yaqub müəllimin Bakı Dövlət Universitetinin (yeri gəlmişkən onu da qeyd edim ki, universitetin tarixi adının bərpa edilməsində də onun böyük xidməti olmuşdur) Tarix fakültəsində dekanlığı dövründə bu fakültə sovet universitetlərinin müvafiq

bölmələri içərisində təhsilin təşkili, məzmunu və kadr hazırlığı səviyyəsinə görə, qabaqcıl yer tuturdu. O, tarixçi fəhmi ilə Azərbaycanın dövlət müstəqilliyinə qovuşacağını görə bilmişdi. Bu məqsədlə Azərbaycan tarixinin tədqiqi sahəsində nadir ixtisasların - mixi yazılar üzrə mütəxəssislərin, sinoloqların (Çin mənbələrində Azərbaycan tarixinə dair materialların öyrənilməsi üçün), tarixçi-şərqşünasların və s. hazırlanmasına xüsusi diqqət yetirirdi. Bunun üçün seçilən tələbə-gənclər SSRİ-nin ən nüfuzlu universitet və tarix mərkəzlərinə göndərildi. Bəzən elə olurdu ki, bu missiyasını anlamayan gənclər həmin universitetlərə gedərkən az sonra Azərbaycanda xüsusilə populyar olan hüquq fakültələrinə keçirdilər. Bu xəbərlərin hər birinin Yaqub müəllimdə necə acı bir təəssüf yaratdığının dəfələrlə şahidi olmuşam.Bizim ölkəmizin çox tanınmış ziyalılarının, alimlərinin həyatı haqqında fikir və ya müsahibələrə rast gəlmişəm. Bu zaman daha çox onların, əsasən, hansı imkansıza əl tutmasından və ya bu kimi epizodlardan geniş bəhs olunur. Bunlar olduqca lazımlı, humanist və tərbiyəvi əhəmiyyətli faktlardır. Yaqub müəllimin həyat və təcrübəsində yüzlərlə belə faktlar olub. Mən isə adətən diqqət yetirilməyən bir məsələ üzərində dayanmaq istəyirəm. Tələbə-gənclər arasında bəzən elə olur ki, imkanlı və arxalı gənclərin həyat tərzi, təhsilə münasibəti istənilən səviyyədə olmur. Bu gənclərə də xüsusi diqqət yetirmək, onların düzgün həyat yolunun müəyyənləşdirilməsinə yardım etmək də lazım gəlir. Yaqub müəllim neçə belə gəncin həyatında vacib rol oynayıb. Şahidi olduğum çoxsaylı hadisələrdən birini qeyd etmək istərdim. Respublikanın vəzifəli və təbii ki, buna uyğun olaraq imkanlı məmurlarından birinin oğlu Azərbaycanda yeni ortaya çıxan radikal dini təriqətlərdən birinə qoşulmuşdu. Onun anası Yaqub müəllim ilə görüşdə göz yaşları ilə ümidsizcəsinə bildirirdi ki, övladlarını bu yoldan nəinki çəkindirə bilmirlər, hətta iş o yerə çatıb ki, bu gənc təbliğat ilə kiçik qardaşını da yoldan çıxararaq həmin təriqətə cəlb edib və s. Yaqub müəllim hər iki valideynin edə bilmədiyinə nail oldu, bu gəncin dəyərli bir vətəndaş kimi yetişməsində təsirli rol oynadı.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra, mənim fikrimcə, ən vacib problemlərdən biri təhsil sahəsində yarandı. Bu da təbii idi, çünki sovet təhsil sisteminin bəzi üstünlüklərinə baxmayaraq, ideoloji qəliblərə əsaslanırdı. Yaqub müəllim müstəqil Azərbaycanın ilk təhsil qanununun müəllifi oldu. Yeni dərsliklərin, xüsusilə böyük ehtiyac olan Azərbaycan tarixi dərslikləri konsepsiyasının formalaşdırılması və yazılmasında həlledici rol oynadı.Yaqub müəllimin rəhbərlik etdiyi AMEA Tarix İnstitutu Azərbaycanda mən deyərdim ki, həyatının bütün sahələri ilə ən dinamik və

şəffaf təşkilatlardan biridir. Buna əmin olmaq üçün institutun internet resursları ilə tanış olmaq mümkündür. Bu barədə öz təəssüratıma gəldikdə onu bir neçə kəlmədə ifadə etmək istərdim. Tarix İnstitutu Azərbaycan tarixinin bütün özünəməxsus xüsusiyyətlərini nəzərə almaqla eyni zamanda, dünyada tarixi tədqiqatların ən mühüm prioritetləri üzrə araşdırmalar aparır. Bunun üçün modern bir idarə sistemi və strukturu formalaşdırılıb. Ən diqqətəlayiq məsələlərdən biri də kadr hazırlığı ilə bağlıdır. Elmi tədqiqata yeni başlayan gənclər ilə institutun ağsaqqalları arasında tələbkarlıq və hörmətə əsaslanan əməkdaşlıq bərqərar edilmişdir. Bunların nəticəsində Tarix İnstitutunda elmi məhsuldarlıq yüksək səviyyədədir. İnstitutun alimlərinin əsərləri nəinki, respublikada, eləcə də beynəlxalq aləmdə böyük nüfuza malikdir.

Akademiya sisteminə daxil olan elmi-tədqiqat institutlarının simasının müəyyən edilməsində sözsüz ki, əsas yerlərdən birini Elmi Şura və Dissertasiya Şurası tutur. Yaqub müəllimin rəhbərliyi ilə həm institut, həm də dissertasiya şuraları kollegial orqan olmaqla bütün funksiyasını işdə reallaşdırır. Burada da mənim diqqəti cəlb etmək istədiyim bir məqam vardır. Adətən, elm aləmində alimlər iki yerə bölünür-generatorlar, yəni elmi ideya mənbələri və icraçılar. Yaqub müəllim nadir alimlərdəndir ki, bu keyfiyyətlərin hər ikisini özündə ehtiva edir. O, aktual olan hər hansı bir tarixi problemi irəli sürməklə qalmır, onun həyata keçirilməsinin təşkilinə də nail olur və nəticədə yeni-yeni elmi əsərlər işıq üzü görür. Bəzən elm aləmində bir az mülayim şəkildə desək, qısqanclıq hissləri də olur, görkəmli elm adamları da olur ki, öz ideyalarını tələbələri ilə də bölüşmək istəmir. Yaqub müəllim bu sahədə unikal alimlərdən biridir. Onun elmi və dissertasiya şuralarında, yaxud sadə insanlar ilə tarixə dair görüşləri zamanı çıxışlarının hər biri bu ideyalar ilə zəngin olur, hər bir fikrini, onu düşündürən tarixi mövzuları dinləyiciləri ilə məmnuniyyətlə bölüşür.Yaqub müəllimin xalqın nümayəndəsi kimi Milli Məclisdə təmsil olunması isə xüsusi mövzudur. O, bir dairənin deyil, bütövlükdə Azərbaycanın millət vəkilidir. Onu digər deputatlardan fərqləndirən bir xüsusiyyəti də qeyd etmək istərdim. Yaqub müəllim parlamentdə Azərbaycanın yalnız bu gününün deyil, onun tarixi keçmişinin də təmsilçisidir. Onun parlamentdə bu gün də aktual olan bir sıra tarixi mövzularda qaldırdığı məsələlər (İrəvanın ermənilərə güzəşt edilməsi və s.) həm xalq, həm də media tərəfindən də çox böyük maraqla qarşılanır və parlament salonundan kənarda da səmərəli müzakirələrə səbəb olur.Nəhayət, yazımı yekunlaşdırmaq istəyirəm, lakin düşünürəm ki, yaza biləcəklərim yazdıqlarımdan daha çoxdur.

Yaqub müəllimin ömrü xalqa xidmət nümunəsidir, onu öyrənmək lazımdır ki, bu təcrübə yaşasın, yeni-yeni elm, təhsil və ictimai xadimlərin yetişməsinə töhfə versin. On il bundan əvvəlki yazımın sonundakı arzumu bir daha təkrar edirəm: Sizə yeni-yeni yubileylər arzulayıram, Yaqub müəllim.

# Görkəmli Alim, Əvəzsiz Müəllim

**Camal Mustafayev***

Hər bir insanın həyatında onun ömrünün sonrakı axarına ciddi təsir göstərən, bəzi hallarda isə ona yeni məzmun və istiqamət verən bir və ya bir neçə güclü şəxsiyyətlər olur. Mənim həyatımda da bir neçə nəfər belə şəxsiyyət olmuşdur. Onlardan biri, bəlkə də birincisi dünya şöhrətli alim, Azərbaycan tarix elminin ağsaqqalı, akademik Yaqub Mahmudovdur.

Yaqub müəllimlə ilk görüşüm 1970-ci ilin yayında ali məktəblərə qəbul imtahanları zamanı olmuşdu. Əminəm ki, həmin görüşdən Yaqub müəllimin xatirində heç nə qalmamışdır. Çünki həmin vaxt o, gündə mənim kimi onlarla orta məktəb məzunundan qəbul imtahanı götürürdü. Mənim üçün isə bu görüş gələcək həyat yolumun müəyyənləşməsində çox önəmli rol oynamış, yaddaşımda əbədi həkk olunmuş xoş bir xatirəyə  çevrilmişdir. Belə ki, həmin il sənədlərimi Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Tarix fakültəsinə vermişdim. O dövrdə qəbul imtahanı vermiş insanlar ali məktəblərə daxil olmağın çətinliyini yaxşı xatırlayırlar. Tarix fakültəsinə daxil olmaq xüsusilə çətin idi. Həmin dövrün ən nüfuzlu ixtisaslarından hesab edilən bu sahədə həmişə yüksək müsabiqə olur, bir yerə, adətən 15-20 adamın iddia etməsi adi hal hesab edilirdi. Bütün bunları yaxşı başa düşən hər digər məzunlar kimi, mən də qəbul imtahanlarına çox ciddi hazırlaşmışdım.

Burada bir məqamı xüsusi vurğulamaq istəyirəm. 1969-cu il iyulun 14-dən Azərbaycana rəhbərlik Ulu öndər Heydər Əliyevə tapşırılmışdı. Yeni rəhbərin obyektivliyi, prinsipiallığı və qətiyyəti respublikanın ictimai-siyasi həyatının digər sahələri kimi ali məktəblərə qəbul məsələsinə də ciddi təsir göstərmişdi. Hamı əvvəllər ali məktəblərə qəbul zamanı geniş yayılmış neqativ halların qarşısının birdəfəlik alınmasından, bu iş üçün biliyin yeganə meyar olmasından danışırdı. Mən bunun həqiqətən də belə olduğuna özümün də iştirak etdiyim 1970-ci ilin qəbul imtahanları zamanı əmin oldum.

Mənim daxil olduğum qrupda Tarix fənni üzrə qəbul imtahanını Yaqub müəllim

---

* *Prof. Dr.*

götürürdü. Bu hadisədən 50 ilə yaxın vaxt keçməsinə baxmayaraq, onun abituriyentlərlə davranışda göstərdiyi obyektivliklə yanaşı diqqət və qayğını hələ də unutmamışam. Yaqub müəllim cavab vermək üçün qarşısında oturan abituriyentlərin bilik və bacarıqlarının üzə çıxarılması üçün hər cür şərait yaradır, əlavə suallar verməklə onların nəyə qadir olduqlarını müəyyənləşdirməyə çalışırdı. Nəhayət ki, səbirsizliklə gözlədiyim növbəm çatdı. Bilet çəkib oturdum və cavab vermək üçün gözləməyə başladım. Sualların hər üçünü yaxşı bilsəm də bərk həyəcan keçirirdim. Lakin Yaqub müəllimin yaratdığı şərait nəticəsində suallarıma çox sərbəst cavab verdim. Cavablarım Yaqub müəllimi tam qane etmişdi. O, hətta ayağa duraraq üzünü cavab vermək üçün gözləyən abituriyentlərə tutaraq "yüksək qiymət almaq üçün heç olmasa belə cavab vermək lazımdır" söylədi. Ünvanıma daha bir neçə xoş söz deyən Yaqub müəllim imtahan vərəqəmə "yaxşı" qiymət yazdı və bildirdi ki, bu qiymət qəbul olunmaq üçün tamamilə yetərlidir. Doğurdan da, qəbul imtahanlarının başa çatmasından bir neçə gün sonra tələbə adını qazanmış xoşbəxtlərin siyahısında mənim də adım var idi. Yaqub müəllimin yazdığı bu "yaxşı" qiy-mət əslində mənim gələcək həyat yolumun müəyyənləşməsində önəmli rol oynadı.

Yaqub müəllimlə növbəti dəfə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Tarix fakültəsinin ikinci kursunda oxuyarkən rastlaşdım. Həmin vaxt o, bizə "Orta əsrlər tarixi" kursundan mühazirələr oxuyurdu. Yaqub müəllimin auditoriyaya hər dəfə böyük həvəslə daxil olması, oxuduğu mühazirələrin dərinliyi və əhatəliliyi biz tələbələri heyran qoymuşdu. Heç də təsadüfi deyil ki, biz onun mühazirələrini həmişə səbirsizliklə gözləyir, mühazirə bitdikdən sonra isə onu öz aramızda qızğın müzakirə edirdik. Mənim elə həmin vaxtlarda gələcəkdə həyatımı elmi işlə bağlamaq haqqında qəti qərar qəbul etməyimdə Yaqub müəllim nümunəsi öz təsirini göstərmişdi. Həyatımın sonrakı dönəmlərində də Yaqub müəllimin diqqət və qayğısını daima öz üzərimdə hiss etmişəm və hər zaman onun tələbəsi olduğumu fəxrlə vurğulamışam.

# Vətən Tarixinin Böyük Tədqiqatçısı və Təşkilatçısı

**Anar İsgəndərov***

Dünyanın o xalqları xoşbəxt sayılır ki, vaxtında onların dövlətçilik tarixi yazılır və zaman-zaman öz xalqına çatdırılır. Tale elə gətirmişdir ki, Azərbaycan adlanan məmləkət tarix boyu qonşu dövlətlərin marağında olmuş və işğalçı yürüşlərə məruz qalmışdır. Azərbaycanın ərazisi və Azərbaycan xalqı haqqında müxtəlif dövrlərdə müxtəlif fikirlər mövcud olmuşdur. Bu fikirlərin bir çoxu məmnuniyyətlə qəbul olunmuş, bir çoxları isə birmənalı olaraq təkzib olunmuşdur. Azərbaycanın uzun müddət İran, Osmanlı və Rusiya işğallarına məruz qalması onun tarixində də narahat səhifələrin yaşanmasına gətirib çıxarmışdır. Heç kimə sirr deyil ki, uzun müddət Azərbaycanın Rusiya tərəfindən işğalı bayram kimi qeyd olunmuş və bu hadisənin «tarixi əhəmiyyəti» ilə bağlı kifayət qədər əsərlər yazılmışdır. Bu azmış kimi, Azərbaycanda sovet hakimiyyətinin qələbəsi ilə bağlı minlərlə «tədqiqatlar» aparılmış və Azərbaycan tarixində ən şərəfli zirvə sayılan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin tədqiqinə qadağalar qoyulmuşdu. 1918-ci ilin martında Bakı şəhərində, Şamaxı, Quba və Azərbaycanın digər bölgələrində türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımı birmənalı olaraq inkar olunmuş, bu qırğınlara vətəndaş müharibəsi damğası vurulmuşdu. Vətən tarixində buna oxşar təhrif olunmuş yüzlərlə hadisəni misal gətirmək olar.

Sovet dönəmində Vətən tarixinin təhrif olunmuş səhifələrini görmək və ona reaksiya vermək çox az ziyalıya nəsib olurdu. XX əsrin 60-cı illərinin ortalarında tarix fakültəsinin tələbəsi olan Yaqub Mahmudov Avropa tarixini təkcə ona görə öyrənmirdi ki, Avropa dünyaya hegemonluq edirdi. Yaqub Mahmudov bu tarixi ona görə öyrənirdi ki, əslində Avropanın inkişafına səbəb olan Şərq ölkələrini, o cümlədən Azərbaycanın böyüklüyünü dünyaya çatdıra bilsin. Bu mənada, Yaqub Mahmudov asan bir dissertasiya mövzusunun ardınca getmədi. O, bünövrəsi böyük alim Ədhəm Şahmalıyev

* *Prof.,Dr. Bakı Dövlət Universiteti "Mənbəşünaslıq, Tarixşünaslıq və Metodika" kafedrasına müdiri.*

tərəfindən qoyulan Ağqoyunlu-Avropa münasibətləri problemini özünün tədqiqat obyektinə çevirdi. Yaqub Mahmudov bu problemi tədqiq edərkən Ağqoyunlu dövlətinin ayrı-ayrı məqamlarını deyil, onun bir dövlət kimi fəaliyyət tarixini tədqiq etməyi qarşısına məqsəd qoydu. Yaqub Mahmudovun bu problemlə bağlı vətən tarixinə gətirdiyi ən böyük yenilik **"Ağqoyunlu dövləti ilk dəfə beynəlxalq münasibətlər sisteminin subyektinə çevrilən ilk nəhəng Azərbaycan dövləti olmuşdur"** tezisini sübuta yetirməsi oldu. Yaqub Mahmudov XV əsrin 60-cı illərində meydana gəlmiş Ağqoyunlu dövlətinin Avropa dövlətləri ilə münasibətləri tarixini tədqiq etməklə, bir tərəfdən, Azərbaycan dövlətçiliyi tarixinin pioneri kimi şöhrət qazandı, digər tərəfdən, Azərbaycanın Qərb dövlətləri ilə diplomatik münasibətlərinin yaradılmasının tədqiqatçısı kimi vətən tarixinə öz adını həkk etdirdi. Təbii ki, sovet dönəmində Azərbaycan xalqına qarşı, onun aydınlarına qarşı hər cür təzyiqlərin baş alıb getdiyi bir dövrdə belə təhlükəli mövzuların tədqiqata cəlb olunması ziyalıdan böyük cəsarət, vətən sevgisi, xalqına və tarixinə böyük məhəbbət tələb edirdi. Yaqub Mahmudov belələrindən idi.

1966-1975-ci illərdə Yaqub Mahmudov Azərbaycan Ensiklopediyasında şərəfli bir mübarizə məktəbi keçdi. O, təkcə Rəsul Rza məktəbini keçməklə püxtələşmədi, eyni zamanda, özü də Milli ziyalılıq tarixində böyük bir iz qoydu. Bu izin səs-sorağı bir azdan ali məktəb auditoriyalarından gəlməyə başladı. Yaqub Mahmudov nəyi isə anlatmaq istəyirdi. Anlatmaq istədiyi o idi ki, hər bir cəmiyyət üçün, böyük bir toplum üçün, bir sözlə, mərkəzləşmiş bir dövlətin yaradılması üçün böyük şəxsiyyətə ehtiyac var. Əks təqdirdə, böyük xalq və böyük dövlət yaratmaq mümkün olmur. Ona görə də Yaqub Mahmudov bütün yaradıcılığı boyu dövlətçilik tarixinin ilk atributu kimi tarixi şəxsiyyətlərə böyük önəm verirdi. Onun məhəbbət və sevgi arealında Uzun Həsən və diplomat ana Sara Xatun birinci idisə, o heç zaman Qaraqoyunlu dövlətini yaradan Qara Yusifdən və onun dövlətçilik təcrübəsindən imtina etmirdi. Yeri gələndə, onun fəaliyyətini böyük məhəbbətlə təqdir edirdi. Yaqub Mahmudov yaxşı başa düşürdü ki, hər bir dövləti dünyaya tanıtdırmaq üçün onun tarixinin təbliği əsas şərtdir. Ancaq xəritəsiz bu tarix qanadsız quşa bənzəyir. Bunu dərindən dərk edən Yaqub Mahmudov Kiyevin geniş və rahat «Krişşatik» küçəsində böyük Rəsul Rzanın Ukraynadakı dostlarının köməyindən istifadə etməklə, ermənilərin hər cür qaba, kobud maneələrini dəf edərək, hər cür əzab-əziyyətlərə qatlaşaraq Azərbaycanın xəritələrinə həyat verdi. Bu xəritələri cansız adlandırmaq böyük günah olardı. Çünki sovet dönəmində daha çox

neftinə görə tanınan Bakı şəhəri Azərbaycanın paytaxtı olsa da, o, hələ bütöv Azərbaycan deyildi. Bakı Azərbaycanın ancaq və ancaq başı ola bilər. Bədən isə bütün Azərbaycandır. Bütöv Azərbaycana böyük ehtiyac var idi. Odur ki, Yaqub Mahmudov bu ehtiyacı ödəmək üçün uzaq Ukraynada xəritə davasına çıxmışdı.

1981-ci ildə Tarix fakültəsinin dosenti seçilən Yaqub Mahmudov sonra - 1986-1990-cı illərdə dekan kimi bu fakültəyə şərəflə rəhbərlik etdi. O, bu vaxta qədər təmənnasız bir müəllim idisə, dekan kimi ədalətli bir rəhbər olduğunu da sübut etdi. Onun bu ədalətinin nəticəsi idi ki, Tarix fakültəsinə böyük zəhməti hesabına daxil olan onlarla tələbə SSRİ-nin ən nüfuzlu ali məktəblərinə göndərildi. Çünki Yaqub Mahmudov yaxşı bilirdi ki, güclü dövlətin qurulması üçün güclü mütəxəssislərə ehtiyac var. Yaqub Mahmudov 1989-cu ildə SSRİ-nin mərkəzində Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələrinə həsr olunmuş doktorluq dissertasiyasını müdafiə etdi. Bu müdafiənin Moskvada keçirilməsinin sətiraltı bir mənası da var idi. Yəni vaxtilə Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri adlı nəhəng imperiyaların varisi olan Azərbaycan tarixçisi onun üçün qürur yeri olan dövlətinin tarixini böyük imperiyanın paytaxtında müdafiə edə bilərdi. Çünki bu dövlətlər öz fəaliyyətləri ilə bu şərəfli adı qazanmışdılar.

Yaqub Mahmudov Azərbaycan dövlətçiliyi tarixində böyük önəm daşıyan Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilər dövlətlərinin tarixini dünya arenasına çıxarmaq üçün "Ağqoyonlu və Səfəvi dövlətlərinin Qərbi Avropa dövlətləri ilə qarşılıqlı əlaqələri (XV əsrin II yarısı – XVII əsrin əvvəlləri)" adlı fundamental tədqiqat işini Moskvada rus dilində nəşr etdirdi. Bu əsər təkcə Yaqub Mahmudovun yox, həm də Azərbaycan tarix elminin böyük uğuru oldu. Bununla yanaşı, Yaqub Mahmudovun Səfəvi dövləti ilə bağlı bir sıra milli məfkurəli fikirləri şovinist dairələrin diqqətini çəkdi.

1980-ci illərin sonlarından Sovet dövlətinin narahat günləri başladı. Bu narahatçılıq bizim xalqımızın taleyinə də acı xatirələr gətirdi. Bu vaxta qədər Sovet dövlətini təbliğ edən, Azərbaycanda sovet hakimiyyətinin qələbəsini mədh edən, Sovet dövlətini ən humanist və ən demokratik cəmiyyət kimi təbliğ edən tarix elmi üçün də çətin məqamlar başladı. Sovet dövləti öz ədalətini göstərmək əvəzinə, Azərbaycan xalqının dövlətçilik tarixində əvəzsiz xidməti olan Heydər Əliyevi hakimiyyət kürsüsündən saldı, Dağlıq Qarabağ düyününü yaradaraq onu ermənilərin xeyrinə həll etməyə başladı. Bu, həmin dövr idi ki, kimin kim olması tam çılpaqlığı ilə bilinməli idi. Vətənini, xalqını, elini-obasını sevənlər və onun uğrunda mübarizə aparanlar vətən

sevgisindən uzaq olan insanlardan, dövlətin sevgisini qazanan insanlardan ayrılmalı idi. Bu ayrılmada Yaqub Mahmudov həm birincilər sırasında dayandı, həm də birincilərin önündə gedənlərdən biri oldu. Bu vaxta qədər öz hisslərini dolayı yollarla tələbələrinə çatdıran Yaqub Mahmudov, indi açıqdan-açığa universitet auditoriyalarından çox-çox kənarlarda Azərbaycan həqiqətlərinin təbliğatçısına çevrildi. Dünən vətənin tarixinin tədqiqatçısı olan Yaqub Mahmudov bu gün həmin həqiqətləri dünyaya çatdırmaq üçün İranda, Türkiyədə, Koreyada, Macarıstanda, Amerikada olur və daha haralarda olmur? Yaqub Mahmudov iki həqiqət yazılmadan təbliğ edirdi. Birincisi, erməni daşnakları təkcə azərbaycanlıların yox, bütün türk dünyasının düşmənidir. İkincisi, ümumi düşmənə qarşı mübarizədə qələbə əldə etmək, torpaqlarımızın bütövlüyünü qorumaq, yurd itkisinə məruz qalmamaq üçün birliyə və böyük rəhbərə ehtiyacımız var. Bu birliyin başında bütün türk xalqlarının həmrəyliyi durmalıdır. Bu həmrəyliyi reallaşdırmaq üçün böyük azərbaycançılığa ehtiyac var. Bu azərbaycançılığı həyata keçirən isə Heydər Əliyev olmalıdır. Yaqub Mahmudov yaxşı bilirdi ki, erməni məkrinin yuvası Azərbaycanın keçmiş siyasi mərkəzlərindən biri olan İrəvan şəhəri deyil. Bizə düşmən olan və bizə qarşı torpaq iddiası ilə çıxış edən erməni millətçiləri kənardan idarə olunur, havadarlarının sayı-hesabı yoxdur. Azərbaycan xalqına qənim kəsilmiş erməni daşnakları əslində qonşuluq davası etmək iddiasında yox, “böyük Ermənistan” yaratmaq iddiası ilə yaşayırdılar.

90-cı illərin əvvəllərində 70 il ərzində sovet beynəlmiləlçilik siyasətindən məst olan Azərbaycanı 20 Yanvar qırğını ayıltdı. Sovet ordusunun heç də Azərbaycan ordusu olmadığını dərk edən xalq Milli mücadiləyə müstəqillik uğrunda başladı. Bu mübarizədə Yaqub Mahmudovun da əhəmiyyətli payı var. O, Qərbi Azərbaycandan qovulan minlərlə soydaşımızın taleyi ilə bağlı mətbuatda çıxışlar edir, Vətən tarixinin çox maraqlı məqamları ilə insanları maarifləndirir və Qarabağ həqiqətlərini dünyaya çatdırmaq üçün əlindən gələni edirdi.

90-cı illərin əvvəllərində Yaqub Mahmudov müstəqil Azərbaycanın ilk təhsil qanununu işləyib hazırladı. 70 il ərzində sovet ideologiyası ilə yüklənmiş tarix elmi hər cür maneələrdən və yasaqlardan azad edildi. Müstəqil dövlətin müstəqil tarixinin yazılmasına başlandı. Yaqub Mahmudov bu məsələdə də öz kəsərli sözünü dedi. O, müstəqil Azərbaycanın müstəqil övladları üçün «Ata yurdu»nu yaratdı. Bu adın seçilməsi təsadüfi deyildi. Tədqiq etdiyi tarix və itirilən torpaqlarımızın acı taleyi gənclərimizin beyninə həkk olunsun deyə, o, tariximizin bu ad altında tədris olunmasını

zəruri bildi. Yaqub Mahmudov «Ata yurdu» kitabının üz qabığındakı bütöv Azərbaycan xəritəsinə görə müxtəlif dövlətlərin təzyiqinə məruz qaldı. Ancaq o, geri çəkilmədi. Ona görə geri çəkilmədi ki, müstəqil dövlətə rəhbərlik edən böyük siyasi xadim Heydər Əliyev onu müdafiə edirdi. Ona görə geri çəkilmədi ki, artıq Azərbaycan müstəqil bir dövlət idi. Onun üzərində qırmızı sovet xofu yox idi. Ona görə geri çəkilmədi ki, onun yazdıqları həqiqət idi. Yəni, 1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay müqavilələrinə qədər böyük Azərbaycan mövcud idi. Bu Azərbaycanın yolları Sacilərdən, Salarilərdən, Rəvvadilərdən, Şəddadilərdən, Şirvanşahlardan, Atabəylərdən keçirdi. Bu dövlətlər isə özünün kökünü Manna, Albaniya, Atropatenada tapırdılar. Bu dövlətlər isə bütün mənəviyyatı ilə qədim kuti, lullubi, turukki və sak tayfalarına bağlı idilər.

Yaqub Mahmudov ilk dəfə olaraq Azərbaycan dövlətçiliyi tarixində xüsusi çəkisi olan «Kitabi-Dədə Qorqud» eposunu ədəbiyyatçıların əlindən aldı. Onu tarixi təfəkkürün məhsulu kimi tədqiq və təbliğ etməyə başladı. Bu, Yaqub Mahmudovun Azərbaycan dövlətçiliyi tarixinə gətirdiyi növbəti yeniliklərdən biri oldu. Yaqub Mahmudov «Kitabi-Dədə Qorqud»da əks olunan yer adlarının tarixiliyini sübut etdi və «Kitabi-Dədə Qorqud»un dili ilə "Azərbaycan haradır?" sualına cavab tapdı. Yaqub Mahmudov sübut etdi ki, Azərbaycan xalqı dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlarındandır. Bir zamanlar atəşpərəstliyə sitayiş edən, tarixin müəyyən məqamlarında xristianlığı qəbul edən Azərbaycan əhalisi VII əsrdən başlayaraq İslam dinini qəbul etdi. Bu gün zəngin azərbaycanlı mənəviyyatının yaranmasında İslam dininin və mədəniyyətinin əvəzsiz rolu vardır. İslam dini Azərbaycan xalqının müqəddəratında əsaslı dönüş yaratdı.

Yaqub Mahmudov gürcü xalqı ilə münasibətlərimizə xələl gətirmədən iki məsələni qabartdı. Didqori döyüşünə qədər Tiflis müsəlman əmirliyi bizim olmuşdur. Bugünkü Gürcüstan Respublikası ərazisində yaşayan azərbaycanlı əhali aborigen əhali-dir. Eyni zamanda, gürcülərin tarix dərsliklərində Azərbaycanla bağlı, xüsusilə Şirvanşahlarla bağlı iddiaları heç bir elmi həqiqətlərə söykənmir. Şəki, Zaqatala, Qax, Balakən heç bir zaman Gürcüstanın torpağı olmamışdır. Yaqub Mahmudov təkcə bunu iddia etmir, dövlətçiliyimizin maraqlarını müdafiə etməklə yanaşı, real tarixi ortaya qoyur və oxucuya müraciətlə deyir: "Bu tarix, bu da siz, oxuyun və həqiqəti müdafiə edin!"

Yaqub Mahmudov tarixi tədqiqatlara Azərbaycanın orta əsrlərindən başladı. O zaman bu dövrün tədqiqinə böyük ehtiyac var idi. Amma Yaqub Mahmudov

Azərbaycanın çətin günlərində, vətən darda olanda, onun qədim tarixi ilə bağlı tədqiqatlara ehtiyacını duyanda bu dövrün tədqiqatçısı olmağından imtina etmədi. Kutiləri, lullubiləri, iskitləri Ağqoyunlu və Səfəvi dövlətlərinin sələfi kimi tədqiq etdi və bu tarixdən şərəf duydu. Yaqub Mahmudov Tomiris, Cavanşir, Babək, Sara Xatun, Qara Yusif, Uzun Həsən, Şah İsmayıl və bir çoxları ilə fəxr etdiyimiz tarixi şəxsiyyətlərə yenilərini də əlavə etdi. Yaqub Mahmudov sovet dönəmində qəddar, qaniçən kimi təbliğ olunan Nadir şahın və Ağa Məhəmməd şah Qacarın fəaliyyətinin həqiqi elmi qiymətini verdi. **Yaqub Mahmudov əsaslandırdı ki, əfşarlar da, qacarlar da bizlərdəndir, necə ki, biz onlardanıq!**

Müstəqillik dövründə Yaqub Mahmudov təkcə bir tarixçi kimi yox, həm də bir ictimai və dövlət xadimi kimi fəaliyyətini genişləndirdi. 2000-ci ildən Azərbaycan Parlamentinin üzvü seçilən Yaqub Mahmudov, gah Şəkinin sosial problemləri ilə məşğul olan bir millət vəkili, gah Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, Milli tarixin yazılmasına cavabdeh alim, gah da Azərbaycana qarşı ədalətsiz baxışlar nümayiş etdirən bəzi üzdəniraq ziyalılara qarşı barışmaz mövqe nümayiş etdirən vətənpərvərdir.

Yaqub Mahmudova görə, Manna, Albaniya, Atropatena, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Şirvanşahlar, Eldənizlər, müstəqil Azərbaycan xanlıqları Azərbaycan tarixində mühüm mərhələlər olsa da, bu tarixlərin ən uca zirvəsi Azərbaycan Xalq Cümhuriyyətidir. Və təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin göstərişi ilə Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasına rəhbərlik Yaqub Mahmudova tapşırıldı. Yaqub Mahmudov qısa zaman kəsiyində iki cildlik, böyük həcmli, mükəmməl bir Ensiklopediyanın hazırlanmasına və nəşrinə nail oldu. Yaqub Mahmudov Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı da öz tarixçi sözünü dedi: «Azərbaycanda parlamentarizmin tarixi 1918-ci il dekabrın 7-dən yox, 1918-ci il mayın 28-dən Azərbaycan Milli Şurasının fəaliyyətə başlamasından hesablanmalıdır». Yaqub Mahmudov Azərbaycanın istiqlalı yolunda xidməti olmuş hər bir insanı ensiklopediyaya daxil etməklə, bir tərəfdən vətən tarixini zənginləşdirdi, digər tərəfdən isə 23 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə oynadığı rolu milyonlarla Azərbaycan vətəndaşına hədiyyə etdi.

1918-ci ildə qaldırılan azadlıq bayrağı bütün çətinliklərə baxmayaraq enmədi, onu daha uca zirvələrə qaldıran isə 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev oldu. Yaqub Mahmudov ilk dəfə olaraq Azərbaycan dövlətçiliyi

tarixində Heydər Əliyevin tarixi rolunu qələmə aldı. Onu dünyanın ən görkəmli dövlət başçıları olan Mustafa Kamal Atatürk, Corc Vaşinqton, Otto fon Bismark, Cəvahirləl Nehru, Şarl de Qolla müqayisə etdi. Yaqub Mahmudov ilk dəfə olaraq Heydər Əliyevin dövlətçilik fəaliyyətini mərhələlərə böldü və bu mərhələlərin hər birinin xarakterik xüsusiyyətlərini təhlil etdi. Bütün bunların hamısına yekun vuran Yaqub Mahmudov Heydər Əliyevlə bağlı tədqiqatlarını bu cümlə altında birləşdirdi: **«Heydər Əliyev böyük Azərbaycanlı və böyük Azərbaycançıdır»**.

Yaqub Mahmudov böyük zəhmət hesabına Qarabağla bağlı tədqiqatlarını fundamental kitab şəklinə salaraq dünyanın bir çox dillərinə çevirməyə nail oldu. Yaqub Mahmudov Naxçıvanı da yaddan çıxarmadı. Naxçıvanla bağlı erməni təbliğatçılarının böhtanlarına cavab olaraq Naxçıvan kitabı işıq üzü gördü. Bu addım təkcə erməni təbliğatçılarına cavab deyildi, həm də Naxçıvan tarixi ilə bağlı mövcud olan boşluğu doldurdu, Azərbaycan tarixini bütövləşdirdi.

Akademik Yaqub Mahmudov ömrünün 80-ci ilini şərəflə yaşayır və şərəflə yaradır. 400-dən artıq elmi əsərin, o cümlədən, 300-dən artıq monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin müəllifi olan Yaqub Mahmudov bu gün birmənalı olaraq respublika ictimaiyyəti tərəfindən böyük siyasi xadim və dövlətçilik tariximizin ilk tədqiqatçısı kimi tanınır. Əzizimiz Yaqub Mahmudova cansağlığı və işlərində yeni-yeni uğurlar arzu edirik. 80 yaşınız mübarək, 100 yaşınızda görüşmək arzusu ilə!

# Yaqub Mahmudov və Azərbaycan Tarix Elmi

**Tofiq Nəcəfli***

Azərbaycan xalqı öz müstəqilliyini bərpa etdikdən sonra qədim dövlətçilik ənənələrmizin, siyasi varlıq tariximizin araşdırılmasına, dirçəldilməsinə böyük ehtiyac yaranmışdır. Etiraf edək ki, tarixçi alimlərimiz bu yolda hələ çox iş görməlidirlər, lap çox! Çünki yaxın keçmişdən – totalitarizm dövründən bizə yurdumuzun tarixi keçmişinin bütün dövrlərini hərtərəfli və dərindən əks etdirən zəngin tarixi tədqiqatlar xəzinəsi deyil, başlıca olaraq mərkəzin göstərişi əsasında xüsusi qəliblər vasitəsilə ştamplama üsulu ilə nəşr olunmuş tonlarla kitablar miras qalmışdır.Xalqımızın qədim və zəngin tarixi keçmişinin unutdurulması, qəsdən saxtalaşdırılması və təhrif olunması dövlət siyasətinə çevrildiyi dövrdə, nə yaxşı ki rəsmi mükafat və təltiflər, yüksək vəzifələr və tariflər dalınca qaçmayıb, təqiblərdən qorxmayıb, ömrünü doğma xalqın həqiqi tarixini, əsl keçmişini araşdırmağa həsr edənlər də tapılırdı. Belələrindən biri də indi ömrünün 80-ci baharını yaşayan Yaqub Mahmudov idi.

Azərbaycan tarix elmində parlaq səhifə açan, **milli tariximizi dirçəldən** Yaqub Mahmudovun adı gələndə, ilk növbədə güclü məntiq, möhkəm iradə, dərin savad, hər şeyi sistemləşdirmək bacarığı, həyata, hadisələrə ali münasibət, ən əsası qəlbi **Vətən, Torpaq** sevgisi ilə çırpınan bir insan canlanır gözümüz önündə.Yaqub müəllim bütün bu bacarıqlarını doğma Vətənimizin və xalqımızın tərəqqisi yolunda sərf edir, gələcəyimizə nəhəng körpülər salır, özündən sonra gələn nəslə tükənməz xəzinə yaradır.A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, Milli Məclisin deputatı və YAP Siyasi Şurasının üzvü Yaqub Mikayıl oğlu Mahmudov **1939-cu il fevralın 10-da** Şəki rayonunun Baş Göynük kəndində anadan olmuşdur.O, **1962**-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, həmin ildə Orta əsrlər tarixi ixtisası üzrə aspiranturada saxlanılmışdır. **1966**-cı ildə o, "**Ağqoyunlu dövlətinin Venesiya Respublikası ilə qarşılıqlı əlaqələri (XV**

* *A.A.bakixanov adına tarix instituunun elmi işlər üzrə direktor müavini, tarix üzrə elmlər doktoru.*

**əsrin 60-70-ci illəri)"** mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Yaqub Mahmudov XV əsrin 60-cı illərinin sonunda meydana gəlmiş Azərbaycan Ağqoyunlu dövlətinin Avropa dövlətləri ilə münasibətləri tarixini tədqiq etməklə bir tərəfdən Azərbaycan dövlətçiliyi tarixinin pioneri kimi şöhrət qazandı, digər tərəfdən Azərbaycanın Qərb dövlətləri ilə diplomatik əlaqələrinin yaradılmasının tədqiqatçısı kimi Vətən tarixinə öz adını həkk etdirdi.**1989**-cu ildə Yaqub Mahmudov M.V.Lomonosov adına Moskva Dövlət Universiteti Tarix fakültəsinin Elmi Şurasında "**Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələri (XV əsrin II yarısı – XVII əsrin əvvəlləri)**" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. O, Azərbaycan dövlətçiliyi tarixində böyük önəm daşıyan Ağqoyunlu və Səfəvi imperiyalarının tarixini dünya miqyasına çıxarmaq üçün "Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələri (XV əsrin II yarısı – XVII əsrin əvvəlləri)" adlı fundamental monoqrafiyasını Moskvada, Nyu-Yorkda, Londonda və Romada nəşr etdirdi. Bu əsər təkcə Yaqub Mahmudovun yox, həm də Azərbaycan tarix elminin böyük uğuru oldu.Yaqub Mahmudov **1966-1986**-cı illərdə Azərbaycan Ensiklopediyasında müxtəlif vəzifələrdə çalışmış, Ensiklopediyanın elmi işlər üzrə Baş redaktor müavini olmuş, Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi, dosenti, Bakı Dövlət Universitetində Qədim dünya və orta əsrlər tarixi kafedrasının dosenti, həmin kafedranın müdiri, Tarix fakültəsinin dekan müavini vəzifələrində fəaliyyət göstərmiş, **1986-2004**-cü illərdə Tarix fakültəsinin dekanı olmuşdur. O, eyni zamanda, **1992-1993**-cü illərdə Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası sədrinin müavini, "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru işləmişdir. Yaqub Mahmudov **2004-cü** il **sentyabrın 13-dən** Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktorudur. Yaqub Mahmudov Azərbaycan tarixinin müxtəlif dövrlərinə dair **1000-**dən çox monoqrafiya, kitab, dərslik, dərs vəsaiti, elmi, elmi-publisistik məqalə, dövri mətbuatda dərc olunmuş müxtəlif xarakterli yazılar və s. nəşrlərin, o cümlədən, irihəcmli tərcümələrin müəllifidir. Onun "**Azərbaycan və Avropa**: *orta əsrlərdə diplomatik əlaqələr (Ağqoyunlu və Səfəvi dövrü)"* kitabı **Moskvada**, **Nyu-Yorkda, Vaşinqtonda** və **Romada**, "**Azərbaycan və Avropa**: *Ağqoyunlu dövründə qarşılıqlı* əlaqələr (XV əsrin ikinci yarısı)", "**Azərbaycan tarixi**: *Erkən intibah dövrü (IX əsrin ikinci yarısı – XIII əsrin əvvəli)"* monoqrafiyaları **Los-Ancelesdə**, "**Azərbaycanın qısa**

**dövlətçilik tarixi**” kitabı **İslamabadda** və **Kiyevdə**, “**Heydər Əliyev ideyalarının zəfər yürüşü**” monoqrafiyası **Kiyevdə** nəşr edilmişdir.

Alimin müəllifliyi və rəhbərliyi ilə fundamental “**Qarabağ: real tarix, faktlar, sənədlər**” (6 dildə), **“Naxçıvan: tarixi və abidələri”** (2 dildə)”, “**İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi”** (8 dildə), “**Tarixi adlara qarşı soyqırımı**” (2 dildə), **“Qubadlı: Azərbaycan torpağı Zəngəzurun qapısı”** (üç dildə), **“Real tarix: və ”böyük Ermənistan” uydurması“** (5 dildə), **“1918-1920-ci illərdə Azərbaycanın türk-müsəlman əhalisinə qarşı soyqırımları** (3 dildə)”, **“Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları: təşkilatçılar və cəlladlar”, “Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları”, “Şuşa-Pənahabad”, “Azərbaycan Tarixi Atlası”** işıq üzü görmüşdür. Yaqub Mahmudov ikicildlik “**Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası**”nın baş redaktoru, Azərbaycan Milli Ensiklopediyası Baş Redaksiya şurasının və “**Naxçıvan Ensiklopediyası**” redaksiya heyətinin üzvüdür.Yaqub Mahmudov ilk dəfə olaraq Azərbaycan dövlətçiliyi tarixində xüsusi çəkisi olan “Kitab-Dədə Qorqud” eposunu ədəbiyyatçıların “inhisarından” çıxarmış və onu “tarixi təfəkkürün məhsulu kimi” tədqiq və təbliğ etmişdir. Bu, Yaqub Mahmudovun Azərbaycan dövlətçiliyi tarixinə gətirdiyi növbəti yeniliklərdən biri oldu. O, “Kitab-Dədə Qorqud” eposundakı faktları və məlumatları orta əsr mənbələrinin məlumatları ilə tutuşduraraq eposda əks olunan yer adlarının tarixiliyini sübut etdi və “Kitab-Dədə Qorqud”un dili ilə “Azərbaycan haradır?” sualına cavab tapdı. Yaqub Mahmudov sübut etdi ki, Azərbaycan xalqı dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlarındandır.

Yaqub Mahmudov öz tədqiqatlarında Oğuz türklərinin, o cümlədən Azərbaycan xalqının soykökündə duran Qaraqoyunlu və Ağqoyunlu tayfalarının Cənubi Qafqazın qədim tayfalarından olduğunu, hələ VI-VII əsrlərdən bu bölgədə yaşadıqlarını, Göycə gölü ətrafı bölgələrin Azərbaycan Oğuz tayfalarının qədim məskənlərindən olduğunu sübuta yetirmişdir. Yaqub Mahmudov tarixi tədqiqatlara Azərbaycanın orta əsrlərindən başladı. O zaman bu dövrün tədqiqinə böyük ehtiyac var idi. Amma Yaqub Mahmudov Azərbaycanın çətin günlərində, onun qədim tarixi ilə bağlı tədqiqatlara ehtiyac duyulanda bu dövrün tədqiqatçısı olmağından imtina etmədi. Kutiləri, lullubiləri, iskitləri, kimmeriləri Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətlərinin sələfi kimi tədqiq etdi. Və bu tarixdən şərəf duydu. O, Tomris, Cavanşir, Babək, Saray Xatun, Qara Yusif, Uzun Həsən, Şah İsmayıl və bir çox fəxr etdiyimiz tarixi şəxsiyyətlərin

sırasına yenilərini də əlavə etdi. Yaqub Mahmudov sovet dövründə qəddar, qaniçən kimi təbliğ olunan Nadir şah Əfşarı və Ağa Məhəmməd şah Qacarı aydınlığa çıxardı. Yaqub Mahmudov əsaslandırdı ki, əfşarlar da, qacarlar da bizlərdəndir, necə ki biz onlardanıq!Yaqub Mahmudovun elmi fəaliyyətində Ulu öndər Heydər Əliyev irsinin hərtərəfli tədqiq edilməsinə və Prezident İlham Əliyevin dövlətçilik fəaliyyətinin araşdırılmasına mühüm diqqət yetirilmiş və bir sıra fundamental əsərlər yazılmışdır: **"Azərbaycan dövlətçiliyinin xilaskarı"**, **"Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti"**, **"Heydər Əliyev ideyalarının zəfər yürüşü"** (3 dildə), **"Heydər Əliyev"** (2 cilddə), **"İlham Əliyev və Azərbaycan tarix elmi".** Yaqub Mahmudov ilk dəfə olaraq Azərbaycan dövlətçiliyi tarixində Heydər Əliyevin tarixi rolunu qələmə aldı və onu, dünyanın ən görkəmli dövlət başçıları olan Mustafa Kamal Atatürk, Corc Vaşinqton, Otto Bismark, Cəvahirləl Nehru, Şarl de Qolla müqayisə etdi. Yaqub Mahmudov ilk dəfə olaraq Heydər Əliyevin dövlətçilik fəaliyyətini mərhələlərə böldü və bu mərhələlərin hər birinin xarakterik xüsusiyyətlərini təhlil etdi. Bütün bunların hamısına yekun vuran Yaqub Mahmudov Heydər Əliyevlə bağlı tədqiqatlarını bu cümlə altında birləşdirdi: **"Heydər Əliyev Böyük Azərbaycanlı və Böyük Azərbaycançıdır"**.Yaqub Mahmudovun təşəbbüsü ilə Tarix İnstitutunda *"Əliyevşünaslıq"* şöbəsi yaradılmış və Ulu öndərin irsi, həyat və fəaliyyətinin tədqiqinə həsr edilmiş **"Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri"**, **"Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası"** kimi müxtəlif tədqiqat əsərləri və **"Heydər Əliyev Azərbaycan elminin keşiyində"** (2 cilddə) adlı sənədlər toplusu nəşr olunmuşdur.

Ulu öndərin və Ölkə Prezidentinin çağırış, tövsiyə və tapşırığı ilə Yaqub Mahmudovun rəhbərliyi altında və baş redaktorluğu ilə az vaxt içərisində Tarix İnstitutunda Azərbaycan tarixinin saxtalaşdırmalardan və təhriflərdən təmizlənməsi, indiyədək öyrənilməyərək qalmış problemlərinin tədqiq olunması, Azərbaycanın XIX-XX əsrlər tarixinin yenidən yazılması və digər problemləri ilə bağlı ciddi elmi araşdırmalar həyata keçirilmişdir. Az vaxt içərisində Azərbaycan Xalq Cümhuriyyəti tarixinin müxtəlif problemləri ilə bağlı ciddi elmi araşdırmaları özündə əks etdirən iki cildlik **Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası** (Bakı: 2004-2005; yeni nəşri - 2014) nəşr olunmuşdur. Yaqub Mahmudov Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı da öz tarixçi sözünü dedi: "Azərbaycanda parlamentarizmin tarixi 1918-ci il dekabrın 7-dən yox, 1918-ci il mayın 28-dən Azərbaycan Milli Şurasının fəaliyyətə başladığı

gündən hesablanmalıdır". Yaqub Mahmudov Azərbaycanın istiqlalı yolunda xidməti olmuş hər bir insanı ensiklopediyaya daxil etməklə, bir tərəfdən Vətən tarixini zənginləşdirdi, digər tərəfdən isə 23 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə oynadığı rolu milyonlarla Azərbaycan vətəndaşına hədiyyə etdi. Prezident İlham Əliyevin birbaşa tapşırığı əsasında Yaqub Mahmudovun müəllifliyi və elmi redaktorluğu ilə nəşr olunan **5** kitabdan ibarət ikicildlik "**Azərbaycan Respublikasının tarixi**" fundamental elmi tədqiqat əsəri Azərbaycan tarix elminin son **15** il ərzində qazanılmış ən mühüm uğurlarından biridir. Əsərin **I** cildi **Heydər Əliyev dövrünə**, **II** cildi isə Prezident **İlham Əliyev dövrünə** həsr olunmuşdur.Yaqub Mahmudovun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə AMEA-nın A.Bakıxanov adına Tarix İstitutunda **"Azərbaycan tarixi ilk mənbələrdə"** layihəsi həyata keçirilir. Bu layihə çərçivəsində Moskva, Sankt-Peterburq, Dərbənd, Mahaçqala, Tiflis, Krasnovodsk, İstanbul, Ankara, Paris, London, Berlin və Dehli kimi şəhərlərin arxivlərində Azərbaycan tarixi ilə bağlı saxlanılan qiymətli sənədlər Tarix İnstitutuna gətirilmişdir. Bu layihənin həyata keçirilməsi ilə *Azərbaycan tarixinin xüsusi məqsədlərlə təhrif olunmuş və saxtalaşdırılmış səhifələrinin yenidən yazılması, Azərbaycanın müxtəlif tarixi dövrlərdə itirilmiş torpaqlarının tarixinin* araşdırılaraq bugünkü nəsillərə olduğu kimi çatdırılması əsas tədqiqat obyektinə çevrildi. Bu layihənin həyata keçirilməsi Azərbaycan tarixinin araşdırılmayan, öyrənilməsinə qadağalar qoyulan gerçək tarixinin hərtərəfli tədqiqinə geniş imkanlar yaratdı. "**Azərbaycan tarixi ilk mənbələrdə**" layihəsinin həyata keçirilməsi sahəsində qısa vaxt içərisində institutda mühüm uğurlar əldə olunmuşdur. Bu qiymətli əsərlərin bəzilərinin adlarını oxucuların nəzərinə çatdırmağı lazım bilirik: *"Azərbaycan Xalq Cümhuriyyətinin tarixi Böyük Britaniyanın arxiv sənədlərində";"Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı". I cild; "Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı". II cild, 1-ci kitab. Gəncə quberniyası; "Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı". II cild, 2-ci kitab. İrəvan quberniyasında soyqırımı; "Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. III cild. Xatirələr"; "İrəvan əyalətinin müfəssəl dəftəri";"İrəvan əyalətinin icmal dəftəri"; Gəncə-Qarabağ əyalətinin icmal dəftəri";"Azərbaycan tarixi arxiv sənədlərində (1917-1920-ci illər). I cild. Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivinin sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). I cild. Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). I cild.*

*Türkiyə Cumhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin sənədləri"; "Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın arxiv sənədlərində". (rus dilində); "Azərbaycan tarixi arxiv sənədlərində. XVIII əsr. Rusiya Federasiyası Dağıstan Respublikası Mərkəzi Dövlət Arxivinin sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (aprel-dekabr 1920-ci il). II cild. Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivinin sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrlər). I cild. Rusiya Dövlət Tarix Arxivinin sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (XIX əsrin sonu-XX əsrin əvvəlləri), I cild. Britaniya kitabxanasının arxiv sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrlər). II cild. Rusiya Dövlət Tarix Arxivinin sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). II cild. Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrlər). III cild. Rusiya Dövlət Tarix Arxivinin sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (XIX-XX əsrlər). Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Azərbaycan Dövlət Tarix Arxivinin sənədləri";"Azərbaycan tarixi arxiv sənədlərində (XIX-XX əsrlər). I cild. Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivinin və Gürcüstanın Mərkəzi Ən Yeni Tarix Arxivinin sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (may-oktyabr 1918-ci il). I cild. Almaniya Federativ Respublikası Xarici İşlər Nazirliyi Siyasi arxivinin sənədləri";"Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). III cild, 1-ci kitab. Ermənilərin Osmanlı imperiyasından Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin sənədləri";"Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). III cild, 2-ci kitab. Ermənilərin Osmanlı imperiyasından Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (XVI-XX əsrlər). I cild. Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivinin və Dağıstan Mərkəzi Dövlət Tarix Arxivinin sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (XIX-XX əsrlər). II cild. Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivinin sənədləri";"Azərbaycan tarixi arxiv sənədlərində (1921-ci il). III cild. Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivinin sənədləri";"Azərbaycan tarixi arxiv sənədlərində (XIX-XX əsrlər). III cild. Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivinin sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (XVI-XX əsrlər). II cild. Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivinin və Dağıstan Respublikası Elmlər Akademiyasının Əlyazmalar fondunun sənədləri"; "Русскоязычные источники по истории Азербайджана первой половины XVIII века Т. II (1726-1750 гг.)"; "Русскоязычные источники по истории*

*Азербайджана первой половины XVIII века Т. III (Приложения)"; "İrəvan əyalətinin kameral təsviri. I cild. İrəvan şəhərinin Kameral təsviri"; "Азербайджанская Демократическая Республика. Документы Национального архива Индии".*

Yaqub Mahmudovun rəhbərliyi ilə Tarix İnstitutunda həyata keçirilən elmi layihələrdən biri də ***ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi və burada məskunlaşdırılması, xalqımıza qarşı ermənilərin həyata keçirdiyi soyqırımları və etnik təmizləmənin araşdırılmasıdır.*** Bu elmi tədqiqat istiqamətini əks etdirən sənəd topluları nəşr olunmuş və institutun əməkdaşları bu sənədlər əsasında ölkəmizin bütün bölgələrində – Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, İrəvanda, Naxçı-vanda, Urmiya gölü ətrafında və Şərqi Anadoluda ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımlarına ayrı-ayrılıqda qiymətli tədqiqat əsərləri həsr etmiş, *("Геноцид Азербайджанцев в Ireванской губернии (1918-1920)"; "Геноцид Азер-байджанцев в Карабахском регионе Азербайджана (1918-1920)";* **"***1918-1920-ci illərdə Şərqi Anadolu, Naxçıvan və İrəvan bölgəsində ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımı"; "İrəvan quberniyasında Azərbaycanlıların soyqırımı (1918-1920"); "Bakıda 1918-ci il mart soyqırımı; Şamaxı qəzasında Azərbaycan xalqına qarşı soyqırımı"; "Azərbaycan türk-müsəlman əhalisinin soyqırımı Britaniya kitabxanasının arxiv sənədlərində"; "Quba qəzasında türk-müsəlman soyqırımı; Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920)"; "1917-1918-ci illərdə Urmiya bölgəsində azərbaycanlılara qarşı soyqırımı"),* erməni saxtakarlığını tutarlı dəlillərlə ifşa edən ciddi elmi araşdırmalar ortaya qoyulmuşdur: ("*Исторические факты о деяниях армян на Азербайджанской земле"; "Tarixi adlara qarşı soyqırımı"; "İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" (kollektiv monoqrafiya) (Azərbaycan, rus, ingilis, rumın, ispan, italyan, ərəb, türk dillərində); Mahmudov Y.M. "Real tarix və "Böyük Ermənistan" uydurması" (Azərbaycan, rus, ingilis, ispan, gürcü dillərində)* və s.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elmə göstərdiyi yüksək qayğını əsas götürən Yaqub Mahmudovun rəhbərliyi ilə Tarix İnstitutu XX əsrdə ermənilərin xalqımıza qarşı həyata keçirdiyi soyqırımı və etnik təmizləmə siyasətini beynəlxalq elmi ictimaiyyətə daha dolğun şəkildə çatdırmaq məqsədilə AMEA Rəyasət Heyəti və Türkiyə Cümhuriyyəti Atatürk Araşdırma Mərkəzi ilə birgə yüksək səviyyəli **5** Beynəlxalq elmi soyqırımı konfransı həyata keçirmişdir: *"1918-1920-ci illərdə Azərbaycan xalqına qarşı həyata*

*keçirilən soyqırımı"n 95 illiyinə həsr olunmuş* **I Beynəlxalq elmi konfrans** (28-31 mart 2013), *"Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımlar" (1914-1920-ci illər)* **II Beynəlxalq elmi konfrans** (08-12 aprel 2015) hər ikisi **Quba şəhərində**, *"Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)" mövzusunda* **III Beynəlxalq elmi konfrans** (08-11 aprel 2016) **Şamaxı şəhərində**, *"XX əsrdə türk-müsəlman əhaliyə qarşı soyqırımları"* problemlərinə həsr olunmuş **IV Beynəlxalq elmi konfrans** (24-27 aprel 2017) **Lənkəran şəhərində** və *"XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları"* mövzusuna həsr olunmuş **V Beynəlxalq elmi konfrans** (26-29 aprel 2018) **Qusar şəhərində** keçirilmişdir. Bu konfranslarda Azərbaycan tarixçiləri ilə yanaşı, Türkiyə Cümhuriyyəti, Gürcüstan, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, İran, Rusiya Federasiyası (o cümlədən, Dağıstan, Çeçen, İnquş, Qaraçay-Çərkəz, Adığey, Tatarıstan respublikaları), Moldova, Polşa, Almaniya, Fransa, Albaniya, Bolqarıstan, Kipr Türk Cumhuriyyəti, Hindistan, Pakistan, Misir və digər ölkələrdən olan tarixçi-alimlər iştirak etmişdilər. Böyük elmi, siyasi əhəmiyyət kəsb edən bu konfranslar təkcə Azərbaycanın elmi həyatı üçün deyil, keçən əsrin əvvəllərində eyni faciəli taleni yaşamış bir sıra dünya xalqlarının tarixi üçün də mühüm hadisəyə çevrilmişdir. Dünya tarixçilərinin təşəbbüsü ilə Tarix İnstitutunun nəzdində türk-müsəlman xalqlarına qarşı soyqırımları problemi ilə əlaqədar **beynəlxalq əlaqələndirmə mərkəzi yaradılmışdır.**Yaqub Mahmudovun rəhbərliyi ilə Tarix İnstitutunda **"Azərbaycan tarixinə dair ilk mənbələrin nəşri"** layihəsinin həyata keçirilməsi sayəsində mühüm elmi uğura imza atılmışdır. Belə ki, institutun "Mənbəşünaslıq və tarixşünaslıq" şöbəsinin müdiri, t.ü.e.d., professor Şahin Fərzəliyev tərəfindən Səfəvi tarixşünaslıq məktəbinin ən böyük nümayəndəsi azərbaycanlı İsgəndər bəy Münşinin fars dilində yazmış olduğu *"Dünyanı bəzəyən Abbasın tarixi" ("Tarix-i aləmara-yi Abbasi")* adlı möhtəşəm əsəri geniş elmi şərh və izahlarla doğma dilimizə tərcüməsinin akademik nəşri həyata keçirilmiş və XVI əsr Səfəvi tarixşünaslıq məktəbinin tanınmış nümayəndəsi azərbaycanlı Həsən bəy Rumlunun fars dilində yazmış olduğu *"Tarixlərin ən yaxşısı", ("Əhsən ət-təvarix")* adlı möhtəşəm əsərinin doğma dilimizə tərcüməsi, geniş elmi şərh və izahların yazılması başa çatdırılmış və iki cildlik əsər nəşrə təqdim olunmuşdur.

Tarix İnstitutunun elmi tədqiqat fəaliyyəti ölkə rəhbərliyinin daim diqqət mərkəzində olmuşdur. İnstitutda aparılan bütün mühüm elmi tədqiqat işləri birbaşa ölkə başçısının çağırış və tapşırıqları əsasında həyata keçirilmişdir. Tarix İnstitutu

ermənilərin Azərbaycan xalqına qarşı informasiya müharibəsinin getdikcə daha kəskin xarakter aldığını və ölkə Prezidenti cənab İlham Əliyevin milli maraqlara söykənən qətiyyətli xarici siyasətinə tələb olunan səviyyədə informasiya təminatı yaratmaq məqsədilə **"Azərbaycan tarixinin tədqiqi və təbliği üzrə Dövlət Proqramı (2008-2015-ci illər)"** hazırlamışdır. Qısa müddət ərzində Qarabağ, Naxçıvan və İrəvanın tarixi ilə bağlı silsilə tədqiqat əsərləri yazılmışdır.Yaqub Mahmudov Azərbaycan tarixşünaslığında **"itirilmiş torpaqların tədqiqi"** elmi istiqamətinin müəllifi və rəhbəridir. "İtirilmiş torpaqların tədqiqi" Azərbaycan tarixşünaslığında həm elmi, həm də siyasi baxımdan, demək olar ki, eyni dərəcədə aktuallıq kəsb edən istiqamətlərdən biridir. Bu problemin elmi tərəfi Azərbaycanın tarixi ərazisi, sərhədləri, vilayətləri, siyasi və iqtisadi əlaqələrinin kompleks araşdırılması ilə bağlıdırsa, siyasi tərəfi – müasir dünyada sürətlə gedən inteqrasiya və qloballaşma prosesləri ilə paralel, millətlərin öz müqəddəratını təyin etmə hüququ və dövlətlərin ərazi bütövlüyünə hörmət prinsiplərinə riayət edilməsi şəraitində Azərbaycan xalqının öz tarixi torpaqlarına və tarixinə sahib çıxma zərurəti ilə əlaqədardır. Azərbaycan tarixşünaslığında "İtirilmiş torpaqlar"ın tarixi uzun müddət unudulmuş və bu üzdən də tədqiqata cəlb edilməmişdir. İstər Cənubi Azərbaycanın, istərsə də Qərbi Azərbaycanın, həmçinin Azərbaycanın şimal və şimal-şərq torpaqlarının tarixi müvafiq olaraq İran, Rusiya, Ermənistan və Dağıstan tarixçilərinin inhisarında olmuşdur. İmperiyapərəst İran və Rusiya tarixçiləri üçün Azərbaycanın tarixi ərazisi heç bir zaman Dərbənddən Zəncanadək olan məkan çərçivəsində verilməmişdir. Rusiyanın imperiyapərəst qüvvələrinin təzyiqi ilə Dağıstan, Gürcüstan və özünün daxili xəyanətkarlığının nəticəsi olaraq Ermənistanın bir sıra mürtəce tarixçisi "Şimaldan – Baş Qafqaz dağları, qərbdən – Göycə gölü hövzəsi də daxil olmaqla Alagöz dağ silsiləsi və Şərqi Anadolu, şərqdən – Xəzər dənizi, cənubdan isə Sultaniyyə-Zəncan-Həmədan hüdudları ilə əhatə olunan tarixi Azərbaycan torpaqları"nın heç bir vaxt akademik dairələrdə qəbul edilməsinə imkan verməmişdir. Nəticədə Azərbaycanın İrəvan, Dərbənd, Borçalı kimi tarixi vilayətləri digər dövlətlərin tarixinin tərkibində tədqiq edilmiş və bu tədqiqatlarda təbiidir ki, obyektiv gerçəkliklər nəzərə alınmamışdır.

Məhz Yaqub Mahmudovun rəhbərliyi ilə Tarix İnstitutunun elmi tədqiqat planında çox mühüm siyasi və elmi əhəmiyyət kəsb edən bu məsələyə – Azərbaycanın tarixi torpaqlarının tarixinin tədqiqi məsələsinə xüsusi diqqət yetirilmişdir. Yaqub Mahmudovun təşəbbüsü ilə Azərbaycan tarixinin xüsusi məqsədlərlə təhrif olunmuş və

saxtalaşdırılmış səhifələrinin yenidən yazılması və Azərbaycanın müxtəlif tarixi dövrlərdə itirilmiş torpaqlarının tarixinin araşdırılaraq bugünkü nəsillərə olduğu kimi çatdırılması institut əməkdaşlarının əsas tədqiqat obyektinə çevrilmişdir. Azərbaycanın Naxçıvan, İrəvan, Göyçə, Zəngəzur bölgələri, Borçalı mahalı, Tiflis əmirliyi, Car-Balakən camaatlığı, İlisu sultanlığı, Dərbənd, Samur vadisinin və ən nəhayət Qarabağın tarixi ilə bağlı hərtərəfli və dərindən elmi tədqiqatlara başlanılmışdır. **"İtirilmiş torpaqların tədqiqi"** istiqamətində ciddi elmi araşdırmalar davam etdirilərək qısa müddət ərzində Şimal-Qərbi Azərbaycan torpaqlarının tarixi ilə bağlı hərtərəfli və dərin elmi tədqiqatlar aparılmış, fundamental əsərlər yazılaraq nışr olunmuşdur *("İlisu sultanlığı", "Şimal-Qərbi Azərbaycan: İngiloylar", "Şimal-Qərbi Azərbaycan (tarixi-demoqrafik araşdırma)", "Car-Balakən camaatlığı", "Haylada unudulan tariximiz və tanbur", "Şimal-Qərbi Azərbaycan tarixi", "Dərbənd şəhərinin tarixindən", "Dərbənd XIX-XX əsrin əvvəllərində" və s.).* Tarix İnstitutunda aparılan tədqiqatlar Prezident İlham Əliyevin təşəbbüsü, çağırışları və tapşırıqları əsasında həyata keçirilir. Dövlətimizin başçısı Tarix İnstitutunu **ölkəmizdə tarix üzrə araşdırmaların mərkəzi** kimi dəyərləndirmişdir. İnstitut tərəfindən nəşr edilən fundamental elmi əsərlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən çox yüksək dəyərləndirilmiş və onun sərəncamı ilə **Qarabağın, Naxçıvanın və İrəvan xanlığının** tarixinə dair silsilə əsərlərə görə Tarix İnstitutunun **13** əməkdaşına ***Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı*** fəxri adı verilmişdir. Məhz dövlətimizin başçısının qayğısı sayəsində son on beş ildə Tarix İnstitutunda **500-**dək tədqiqat əsəri işıq üzü görmüşdür.Yaqub Mahmudovun elmi fəaliyyətinin ən mühüm sahələrindən biri də, Azərbaycanın ilk "Təhsil qanununun" yazılması və ümumtəhsil məktəblərinin 5-9-cu sinifləri üçün tarix dərsliklərinin hazırlanması təşkil edir. Məhz onun rəhbərliyi altında Tarix İnstitutunun alimləri milli köklərimizə bağlı, yeni təfəkkürlü gənc nəslin yetişməsi məqsədilə orta məktəb tarix dərsliklərinin yazılmasında yaxından iştirak edirlər. Yaqub müəllimin rəhbərliyi və müəllifliyi ilə V-IX siniflər üçün yazılmış **"Azərbaycan tarixi"** və **"Ümumi tarix"** dərslikləri Azərbaycan Respublikası Təhsil Nazirliyinin keçirdiyi tarix dərslikləri üzrə tenderdə qalib gəlmiş və məktəblilərin istifadəsinə verilmişdir. Yaqub Mahmudovun rəhbərliyi ilə Tarix İnstitutu "**Tarixi şəxsiyyətlərimizə sahib çıxaq**" layihəsi çərçivəsində Bakı şəhərinin müxtəlif lisey və orta məktəblərində və Şəki şəhərində **"Heydər Əliyev", "Həsən Padşah", "Şah İsmayıl Səfəvi", "Şah Təhmasib Səfəvi", "Şah Abbas Səfəvi", "Nadir şah Əfşar",**

**“Ağa Məhəmməd şah Qacar”, “Vətən qeyrətli qadın hökmdarımız – Tomiris”, “Hacı Çələbi xan”** mövzusunda elmi-praktik konfranslar keçirmişdir. Bu konfransların gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında rolu əvəzsizdir.

Qeyd etmək yerinə düşərdi ki, bu gün Tarix İnstitutunda aparılan bu əsaslı islahatlar – milli tariximizin saxtalaşdırmalardan, təhriflərdən təmizlənməsi, Vətənimizin tarixinin yenidən, həqiqətdə olduğu kimi yazılması, dünyanın müxtəlif ölkələrindən qiymətli ilk mənbələrin, çoxsaylı arxiv sənədlərini İnstitutumuza gətirilib nəşr edilməsi Ulu Öndərin vəsiyyəti və Dövlət başçımızın qayğısının nəticəsidir.

Bu diqqət və qayğı olmasa idi yaxın keçmişdə adının belə çəkilməsi yasaq olunan Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə həsr olunmuş ikicildlik Ensiklopediyamız, Milli Tarix Atlasımız, Dövlət Mükafatına layiq görülən “**Qarabağ**: real tarix, faktlar, sənədlər”, “**Naxçıvan**: tarixi və abidələri”, “**İrəvan xanlığı:** Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi” adlı fundamental tədqiqatlar yazılib, xarici dillərə tərcümə olunaraq dünya ölkələrində yayılmazdı. İndi Tarix İnstitutunun əsərləri Bakı ilə yanaşı Moskvada, İstanbulda, Ankarada, İslamabadda, Budapeştdə, Kiyevdə, Londonda, Mexikoda, Nyu-Yorkda, hətta Los-Ancelesdə də nəşr olunur.

Yaqub Mahmudovun təşəbbüsü və rəhbərliyi altında “**Ortaq türk tarixinin yazılması**” məqsədilə Şəkidə *“Ortaq Türk tarixinin araşdırılması problemlərinə həsr edilmiş”* I Beynəlxalq elmi konfrans keçirilmiş, Türkiyə Cumhuriyyəti tarixçiləri ilə birgə dəfələrlə Bakıda və Türkiyənin müxtəlif şəhərlərində elmi seminarlar təşkil olunmuş, “**Türk dövlətləri**” və “**Türk məşhurları** (*Siyasi xadimləri*)” adlı kitabların yazılması başa çatdırılmışdır.Yaqub Mahmudovun təşəbbüsü və rəhbərliyi altında Ulu Öndərə həsr olunmuş **“Dahi Azərbaycanlı”,** Prezident İlham Əliyevə həsr olunmuş **“Tariximizin keşiyində”,** həmçinin **“İrəvan: gizlədilmiş həqiqətlər”, “Şuşa-Pənahabad”, “İrəvan xanlığı”, “Zəngəzur”, “Qarabağ: əcdadlarımızın mirası”, “Sürgün”** və digər tarixi-sənədli televiziya filmləri ərsəyə gəlmişdir.

Yaqub Mahmudov ölkədə yüksək ixtisaslı tarixçi kadrlarının yetişdirilməsinə böyük əmək sərf etmişdir. O, **40** ilə yaxın bir müddətdir ki, Bakı Dövlət Universiteti və AMEA-nın Tarix İnstitutunda ixtisaslaşdırılmış Dissertasiya şuralarına rəhbərlik edir. Bilavasitə onun elmi rəhbərliyi ilə **65** nəfər **tarix üzrə elmlər doktoru** və **fəlsəfə doktorundan** ibarət **tarixçilər elmi məktəbi formalaşmışdır**. Bu iş hazırda uğurla davam

etdirilir. Yaqub Mahmudov tərəfindən Azərbaycan Respublikasının ilk **"Təhsil qanunu"** yazılmışdır. Onun rəhbərliyi və müəllifliyi ilə orta ümumtəhsil məktəblərinin 5-9-cu sinifləri üçün tarix dərslikləri hazırlanmış, ali məktəblərdə bakalavr və magistratura təhsilinə keçilmişdir.

Yaqub Mahmudov dünyanın müxtəlif elmi mərkəzlərində – Ankara, İstanbul, Vaşinqton, Nyu-York, Moskva, Sankt-Peterburq, Kiyev, Afina, Tehran, Seul, Hoseo, Pusan, Kayseri, Təbriz, Zəncan-Sultaniyyə, Vladimir-Suzdal, Bağdad, Cenevrə, Brüssel, Manila, Stokholm, Budapeşt, Venesiya, Roma və b. şəhərlərdə keçirilən beynəlxalq simpoziumlarda iştirak və çıxışlar etmişdir.Yaqub Mahmudovun elmi fəaliyyəti beynəlxalq aləmdə də diqqət mərkəzindədir. Belə ki, Beynəlxalq Sokrat Komitəsinin Dublin Sammitində böyük elmi nəaliyyətlərinə görə "**The Name in Science**" ("**Elmdə ad**") fəxri tituluna (12.07. 2012), Oksford sammitində isə böyük təşkilatçılıq qabiliyyətinə, yüksək peşəkarlığına, rəhbərlik istedadına və liderlik keyfiyyətinə görə "**ən yaxşı baş menecer**" fəxri adına (26.10.2012) layiq görülmüş, rəhbərlik etdiyi **Tarix İnstitutu isə elmi-tədqiqat fəaliyyətinə görə ən yaxşı müəssisə** - "**Best Enterprises-2012**" diplomuna layiq görülmüşdür. Müəllifə Avropa Biznes Assambleyasının Sosial Tərəfdaşlıq Cəmiyyəti, Böyük Britaniya və Şimali İrlandiya Patent idarəsi tərəfindən marketinq məqsədləri üçün 5 illik (20.10.2012- 20.10.2017) "**Best Enterprise**" lisenziyası verilmişdir. Bununla da, Y.Mahmudov **dünya elminin inkişafına verdiyi töhfəyə görə** medalla təltif edilərək **XXI əsrin məşhur elm adamlarının siyahısına daxil edilmişdir.** Müəllif, 2013-cü il dekabrın 16-19-da Böyük Britaniyanın Oksford şəhərində "Elm və təhsil: Yeni imkanlar və istiqamətlər" mövzusunda keçirilən beynəlxalq elmi konfransda milli dəyərlərin qorunması, yüksək rəşadət və dürüstlüyə görə "**Kraliça Viktoriya**" diplomuna və medalına layiq görülmüşdür.Yaqub Mahmudov Azərbaycan Respublikası Prezidenti yanında Heraldika Şurasının, «Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla iş üzrə Dövlət Komissiyası»nın, Azərbaycan Respublikası Milli Məclisi Toponimika Komissiyasının, Azərbaycan-Özbəkistan Dostluq Cəmiyyəti İdarə Heyətinin, Qafqaz Müsəlmanları İdarəsi elmi-dini şurasının və Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.Yaqub Mahmudov **Lütfi Zadə** adına Beynəlxalq Müasir Elmlər Akademiyasının həqiqi üzvüdür. **Yusif Məmmədəliyev**, **Rəsul Rza**, «**Qızıl qılınc**», «**Qızıl qələm**», «**Samir Əsgərxanov**», «**Humay**», «**Gənclərin dostu**» milli mükafatlarının laureatıdır. O, Azərbaycan Kazakları İcmasının "**Ataman Anton Qolovatıy**" adına

ordeni ilə də təltif olunmuşdur (10.02.2013). **Azərbaycan Respublikasının Əməkdar Elm xadimi**, **Rusiya Federasiyası Dağıstan Respublikasının Əməkdar Elm xadimi**, **Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı (26.05.2012)** kimi çox sayda müxtəlif mükafatlara layiq görülmüşdür.

Alim ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin fərmanları ilə "**Şöhrət (1999)**" və "**Şərəf (2009)**" ordenləri ilə təltif olunmuşdur.Yaqub Mahmudov Azərbaycanın görkəmli ictimai-siyasi xadimidir. O, Respublika parlamentinin (Milli Məclisinin) deputatı kimi (II, III, IV və V çağırış) ölkənin daxili həyatı və xarici siyasəti ilə bağlı məsələlərdə prinsipial vətəndaşlıq mövqeyi nümayiş etdirmiş, prezident seçkilərində Ümummilli lider Heydər Əliyevin, sonra isə İlham Əliyevin vəkili olmuş və bir sıra rəsmi dövlət səfərlərində onları müşayiət etmişdir.

Yaqub Mahmudov Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Yaqub Mahmudovun elmi fəaliyyətini yüksək qiymətləndirmiş, onu Azərbaycanın «**böyük alimi**», **«böyük tarixçisi»** adlandırmışdır. Qətiyyətlə deyə bilərik ki, bu gün AMEA-nın Tarix İnstitutunda aparılan köklü islahatlar, bütün fundamental araşdırmalar, milli tariximizin dirçəldilməsi prosesi, bilavasitə Yaqub Mahmudovun rəhbərliyi altında həyata keçirilir.

Əziz Yaqub müəllim, xalqımızın elm, təhsil, ictimai-siyasi həyatına, müxtəlif elmi məktəblərin, xalqımızın milli tarixinin dirçəliş konsepsiyasının yaradılması və həyata keçirilməsinə həsr olunmuş, bütün həyatı boyu doğma Vətəninin və xalqının tərəqqisi yolunda yorulmadan, əzmlə mübarizə apararaq Vətən naminə yaşanan şərəfli ömrünüzün 80 baharında Sizi çoxsaylı tarixçilərimiz, qədirbilən oxucularımız, bir sözlə, Vətən ruhlu bütün yurddaşlarımız adından təbrik edir, can sağlığı və yeni-yeni yaradıcılıq sevincləri arzulayırıq!

# Tarix və Tarixçi

## (Akademik Yaqub Mahmudovun 80 İllik Yubileyi Münasibəti Ilə)

**Şahin Fazil***

İxtisasca şərqşünasam, indiki Bakı Dövlət Universitetinin (sabiq Azərbaycan Dövlət Universitetinin) Şərqşünaslıq fakültəsinin Fars dili şöbəsini fərqlənmə diplomu ilə bitirmişəm. Bu diploma layiq görülməyim, bəlkə də, başqa tələbələrdən fərqləndiyimə görə qismətim oldu. Həqiqətən də fərqləndim. Hələ V kurs tələbəsi olarkən Moskvada yerləşən müvafiq bir SSRİ təşkilatı tərəfindən işləmək üçün Əfqanıstana göndərildim və mütərcim kimi müəyyən fasilələrlə (1963-1988) 13 il həmin ölkənin müxtəlif idarə və nazirliklərində (hətta Əfqanıstan Nazirlər Şurasında) əmək fəaliyyətində oldum. Demək, mənim tale yazıma filoloq, mütərcim, tarixçi olmaq yazılıbmış.

Tarix və tarixçi. Çox sevdim tarix elmini. Nəticədə tarixşünas oldum. Lakin tarixşünas olana kimi çox mərhələlərdən keçdim, tarix elminin tarixini öyrənmək üçün ciddi çalışdım, müsəlman tarixşünaslığının ümumi ənənələrinə əsaslanan orta əsrin görkəmli tarixçilərinin (Həsən bəy Rumlu, İsgəndər bəy Münşi və s.) əsərləri ilə dərindən tanış olub, hətta müxtəlif dillərdə yazılmış dörd tarixi mənbənin ana dilimizə tərcüməsini bitirdim. Xüsusilə qeyd etməliyəm ki, adlarını çəkdiyim iki nəhəng Azərbaycan tarixçisinin bir neçə əsr əvvəl fars dilində yazdıqları iki möhtəşəm kitabını Azərbaycan oxucularına öz dillərində çatdırdığım üçün özümü olduqca xoşbəxt sayıram. Bu xoşbəxtlik isə mənə məhz akademik Yaqub Mahmudovun təkidli təklifi sayəsində nəsib oldu.Qeyd etməliyəm ki, 1939-1950-ci illərdə tədqiqatçılar Muxtar Əfəndizadə, F. Babayev, A. Qasımov “Tarixe-aləmaraye-Abbasi” (“Dünyanı bəzəyən Abbasın tarixi”) əsərini Azərbaycan dilinə çevirmək təşəbbüsündə olmuşdularsa da, bu böyük həcmli kitabın cəmi 414 səhifəsini əlyazma halında Tarix İnstitutunun arxivinə təhvil vermişlər, sonradan Ə.Rəhmaniyə cəmi – cümlətani 47 səhifə tərcümə etmək nəsib olmuşdu. 2009-cu ildə isə O. Ə. Əfəndiyev və N. S. Musalı tərəfindən əsərin üç

*Prof. Dr.,AMEA Tarix İnstitutu “Mənbəşünaslıq Və Tarixşünaslıq” şöbəsinin müdiri

cildindən biri çap edildi, amma onlar da bu tərcümə işini tamamlaya bilmədilər.

Əfqanıstandan sonuncu dəfə geri qayıtdıqdan sonra (1988) İnstitut rəhbərliyinin (akademik İqrar Əliyev və EA-nın müxbir üzvü Mahmud İsmayılovun) təklifi ilə İsgəndər bəy Münşinin məlum 3 cildli əsərinin tərcüməsinə başladım. Etiraf etməliyəm ki, bu iş üzərində əməlli-başlı işləməyim baş tutmurdu: Şöbə müdirimiz, professor Oqtay Əfəndiyevin müavini kimi gördüyüm cari işlər, doktorluq dissertasiyamın başa çatdırılması, xarici ölkələrə səfərlərim, müxtəlif universitetlərdə (Bakı, Lənkəran, Sumqayıt) pedaqoji fəaliyyətim, kollektiv əməyimiz olan yeddi cildlik "Azərbaycan tarixi" kitabının öhdəmə düşən hissələrinin yazılması, bədii fəaliyyətim və s., əlbəttə, tərcümə işimi ləngidirdi. 2004-cü ildə Yaqub müəllimin institutumuza gəlişi məni ciddi hərəkətə gətirdi və institutun bu rəhbəri tərəfindən mənə tapşırıq verildi: Hər iki tarixçinin əsərlərinin tərcüməsini ləngimədən bitirmək və çapa təqdim etmək!

Bəli, İsgəndər bəy Münşi tərəfindən 14 il müddətində yazılan (1616-1629) bu qiymətli kitabın hər üç cildinin hamısını tərcümə etmək əzabı (bəlkə də ləzzəti!) mənə nəsib oldu. Deməliyəm ki, Yaqub Mahmudovla şəxsi tanışlığımız 1974-cü ildən başlanmışdır. Əlbəttə, onun məni tanımamasına baxmayaraq, mən onu əsərləri vasitəsilə tanıyırdım. Mütaliəm çox geniş idi və Yaqub müəllimin Ağqoyunlu-Venesiya münasibətləri tarixinə həsr etdiyi çoxsaylı məqalələrindən məlumatım vardı. Onun 1972-ci ildə çap olunmuş "Öyrənilməmiş səhifələr" adlı kitabındansa tariximizin bir çox öyrənilməmiş səhifələrini öyrəndim. Sonra, "Səyyahlar Azərbaycana gəlir" kitabı (1977).Kitab müəllifi məni məndən bir neçə əsr əvvəl yaşayıb-yaratmış və Azərbaycanda Venesiya senatı tərəfindən səfir təyin olunmuş Klavixo, Katerino Zeno, Ambrosi Kontarini, habelə İngiltərə diplomatı Antoni Cenkinson, həmçinin İtaliya səfiri Vinçenso d`Alessandri ilə tanış etdi.Sonra, "Odlar yurduna səyahət" edən XVI əsr və Yaqub müəllimi ələ qələm götürməyə səsləyən müxtəlif ölkə diplomatlarının məlumatları.Sonra, "Səyyahlar, kəşflər, Azərbaycan" adlı son dərəcə oxunaqlı məlumat kitabı. Bu kitabın qəhrəmanları içərisində kimlər yoxdur, İlahi!Sonra, onlarla başqa kitab. Hamısında da böyük planda Azərbaycan!Sonra, "Özümüz" adlı xatirələr kitabı, elə özü demişkən memuar səciyyəli tarixi-bədii hekayətlər toplusu.Sonra, rəssam müşahidəli tarixçi qələmi ilə yazılan prezidentlər Heydər Əliyev və İlham Əliyevin siyasi, ictimai, diplomatik və s. cizgilərini özündə əks etdirən böyük həcmli əsərlər.Daha sonra isə "Seçilmiş əsərləri". 12 cilddə! Görəsən seçilməmiş əsərləri neçə cild olar?Göründüyü kimi, olduqca məhsuldar alimdir Yaqub müəllim. Məhsuldar və

xeyirxah. Zəhməti qiymətləndirilən adamdır.

Heç yadımdan çıxmaz: 1996-cı il idi. Doktorluq dissertasiyamın müdafiə ərəfəsi idi. Akademik Ziya Bünyadovla (Müdafiə Elmi Şurasının sədri) rastlaşdım. Dedi ki, mən müdafiədə iştirak edə bilməyəcəm, Milli Məclisdə olmalıyam. Ürəyim qırıldı. Narahatlığımı dərhal hiss edən Ziya müəllim Yaqub Mahmudova (Elmi Şura sədrinin müavini) zəng etməyimi tapşırdı. Dərhal zəng vurdum. Məni sakitləşdirdi. Müdafiə günü Elmi Şuranın iclasını Yaqub müəllim apardı və narahatlığım rəf oldu.Beləcə illər ötür və Yaqub müəllimin tapşırığı ilə İsgəndər bəydən sonra Həsən bəyin salnaməsinin tərcüməsi ilə ciddi məşğul olurdum. Nəhayət, 10 illik gərgin əmək bitdi, İsgəndər bəy Münşidən sonra Həsən bəy Rumlunun cazibəsindən də çıxa bildim. Təxminən 2 min səhifəyədək olan "Əhsənüt-təvarix"i Yaqub müəllimə təqdim etdim. Yaxın vaxtda çap olunacaq İnşallah!Bu qocaman alimlə ölkəmizin daxilində və xaricində bir neçə elmi ezamiyyətdə olmuşam. Polşaya səfərimiz və oradakı görüşlərimiz, cənab səfir Həsən Həsənovla, eləcə də bu slavyan ölkəsinin əlaqədar alimləri ilə xeyli söhbətlərimiz oldu. Adətim üzrə, mənim hər bir xarici ölkəyə səfərim "səfərnamə" ilə nəticələnir və "Polşa səfərnaməsi" adlı təəssüratım bu günlərdə "Olaylar" qəzeti səhifəsində dərc edildi. "Polşa səfərnaməsi"nin maraqlı epizodlarından: "Bizi üç nəfər həmkarı ilə birlikdə direktor, professor Konstantı Adam Voytaşçik öz kabinetində qarşıladı. Varşava İnstitutu ilə bizim Tarix İnstitutu arasında əməkdaşlığın genişlənməsi haqqında Y.Mahmudov və cənab K.A.Voytaşçik təkliflər irəli sürdülər. Qərara alındı ki, gələn ilin may ayında Azərbaycan Cümhuriyyəti və Polşa Respublikası arasında hər iki dövlətin 100 illiyi münasibətilə Elmi Konfrans keçirilsin, əməkdaşlığımız daha da genişlənsin.Sonra Bakıdan gətirdiyimiz kitablar direktora təqdim olundu. Çoxsaylı kitab. Kitabların əksəriyyətinin müəllifi, əlbəttə, Yaqub Mahmudov idi. Onları bir-bir götürüb yanında əyləşmiş köməkçilərinə ötürən cənab K.A.Voytaşçik birdən-birə Yaqub müəllimə sınıq rus dilində qəribə bir sual verdi:

-Vı poçemu mnoqo pişete?

Yaqub müəllimin "Tarixçi alimlər çox yazmalıdır" cavabı bizi qane etdi. Mənsə cənab direktorun bu sualından bərk qayğılandım, təsirləndim. Çox qəribə sual idi: "Siz niyə çox yazırsınız?" Bəli, biz çox yazırıq, cənab direktor. Tarix boyunca olmazın müsibətlərə düçar olan, torpaqları işğal, əhalisi qətl-qarətə məruz qalan, öz dədə-babalarının əsrlər boyu yaşadıqları ev-eşiklərindən zorla qovulan, şəhər və kəndləri dağıdılan, qalaları uçurulan, lakin bütün bu müsibətlərə dözməyi bacaran, ərazisinin

çevrəsi daralsa da, bir neçə dəfə soyqırımı bəlasına mübtəla olan, illərlə pərişan qalsa da, öz mövcudluğunu itirməyən, böyük dünyanın kiçik bir ərazisində bu gün də dövlət kimi qalan, bayrağı iftixarla göyə ucalan müstəqil Azərbaycan Res-publikasının tarixçiləri niyə də qələmlərini qələmdanlarına qoyub Azərbaycannamələr yazmasınlar?Çox qəribə sual idi: "Siz niyə çox yazırsınız?" Biz bugün dərdlərimizi yazmağa məhkumuq, cənab direktor. Sizə nə var ki? Yaşadığımız müasir dövrdə özlərinə çox yaxın olan himayədarının köməyi ilə ölkəmizin ərazi bütövlüyünü pozan, insanlarını doğma yurdlarından köçürən, təkcə Dağlıq Qarabağı deyil, 7 tarixi şəhər və yüzlərlə kəndimizi tutmaqla qəsb və ərazi bütövlüyümüzə qəsd edən bir düşmən haqqında bəs necə də qələm işlətməyək, cənab direktor?Çox qəribə sual idi: "Siz niyə çox yazırsınız?. Yazırıq və yazacağıq, cənab direktor. Xocalı soyqırımı haqqında yəqin ki, məlumatınız olmamış olmaz. Bu dəhşətli qətliamdan bütün dünya xəbərdardır. Amma nə olsun ki? Çoxu susur, çoxu etinasızdır, çoxu BMT qərarlarının yerinə yetirilməsinə laqeydlik nümayiş etdirir, çoxu Qarabağ düyününün açılmasını yox, daha da tarım çəkilməsini istəyir. Çoxunun belə bir "barışdırıcı" mövqenin və bu məsələnin həllindən çox-çox uzaq "məsləhəti" var: "Silaha əl atılmasın! Gözləmək! Problemi sülh yoluyla həll etmək!" Cənab direktor, budur Minsk vasitəçilik qrupunun tələbi!!! Nə qədər gözləmək? Problemin başqa cür həll etmək imkanı yoxdurmu? Minsk qrupu 25 ildir ki get-gəldədir. Səfərlər!... Gah Yerevana, gah Moskvaya, gah da Bakıya uzun sürən səfərlər! Belə, cənab direktor, belə!!! Çox yazırıq və çox da yazmalıyıq, lap qələmlərimizin mürəkkəbi quruyana qədər yazmalıyıq. Axı, gözləməkdən və dözməkdən özümüz qurumuşuq..."

Yaqub müəllimlə başqa bir xatirə: "Bir gün akademik İqrar Əliyev məni yanına çağırıb dedi: "Oğul, Yaqub müəllimin 60 yaşı tamam oldu. Təbrik çələngimiz hazırdır. Onu götürüb get universitetə və institutumuz adından onu təbrik et."

Universitetdəyəm. Məclisin başlanmasına hələ iki saatadək vaxt var idi. 60 illik yubiley. Dərhal bir şeir yazdım. Sonralar Yaqub müəllim haqqında xatirələrim və yazdığım beytlər ixtisarla Yaqub Mahmudova aid "Biblioqrafik göstəricilər" toplusunda dərc edildi. Şeirin iki bəndi belədir:

*Qoca kəlməsini lüğətdən pozub*

*60 yaşında cavan bir alim.*

*"Bəlkə 100 yaşımda qocaldım" yazıb*

*60 yaşında cavan bir alim.*

*Görüb ağırlıq da, görüb çətin də...*
*İlahi qoymasın onu çətində.*
*Ağqoyunlu Yaqub əzəmətində*
*60 yaşında cavan bir alim.*

İndisə, 80 illik yubiley. Tarixçilərə ünvanlandığım "Tarixçilərə" adlı bir şerimi məqaləmin sonunda vermək istərdim. Bu şeir təkcə Yaqub müəllimə deyil, bütün tarixçilərə müraciətdir. Elə mənim özümə də.

Tarixçilərə!

*Tarixlərə yazılanı*
*Təkrar-təkrar yazanlar var,*
*Tarixlərdən pozulanı tarixçilər*
*"tam silinsin iz" deyərək*
*Dönə-dönə pozardılar,*
*Bu gün yenə pozanlar var,*
*tarixçilər.*
*Əyrini düz görənlər var,*
*düzü əyri,*
*tarixçilər,*
*Özü əyri adamların*
*Özləri tək sözü əyri, tarixçilər.*
*Tarixçilər,*
*tarixçi var*
*Tərif-tənqid mərəzinə olub düçar:*

*Dünən tərif,*

*Bu gün təndiq...*

*Bu gün tənqid,*

*Sabah tərif...*

*Amma, bunu bilmirlər ki,*

*Əgər haqsız deyilirsə,*

*Günah- tənqid,*

*Günah-tərif!*

*Qorumaqçın ləyaqəti*

*Yazmalıyıq həqiqəti,*

*tarixçilər.*

*Qoy hifz edək gerçəkliyə sədaqəti,*

*tarixçilər.*

*Tərif əgər haqlıdırsa tərifləyək,*

*Tənqid əgər haqlıdırsa tənqidləyək,*

*Sözümüzü gerçək yazaq,*

*düzgün deyək,*

*tarixçilər.*

*İllər boyu*

*Ayaq açıb neçə təklif,*

*İmzalanıb neçə qərar...*

*İşğalçını neçin haqlı,*

*Bizi haqsız sananlar var?*

*Həqiqətdən, ədalətdən bəhs edənlər*

*Haqq-ədalət xatirinə*

*İşğalçıdan soruşsunlar:*

*Kim soyğunçu, kim talançı?*

*Kim doğruçu, kim yalançı?*

*Kim əzilən, kimdir əzən?*

*Kim dözməyən, kimdir dözən?*

*Əgər dərin düşünsələr,*

*Suallarda məna dərin.*

*Bu suallar vecinəmi*

*Müvəqqəti hökmü olan,*

*Sözü keçən*

*Üzdəniraq*

*Gözdəniraq xadimlərin?*

*O kəslərə*

*Çox sual var,*

*tarixçilər.*

*Çox təəssüf, hələlik ki,*

*Cavabsızdır bu suallar,*

*tarixçilər,*

*Çox dolaşıq düyünləri*

*Gərək açaq,*

*tarixçilər,*

*Yorulmadan, qətiyyətlə*

*Həqiqətin, ədalətin arxasınca*

*Qaçaq, qaçaq,*

*tarixçilər,*

*Qələmləri süngü edib,*

*Qanla gedən yurdumuzu, mülkümüzü*

*Qanla alaq,*

*tarixçilər.*

*Bəllidir ki, hər dövrdə, hər əyyamda*

*Çox cəng olub,*

*tarixçilər,*

*Qəsbkarlar ac qurd olub,*

*pələng olub,*

*tarixçilər.*

*Həbs olunub Dərbəndimiz,*

*İtirmişik Zəngəzuru,*

*Zəngilanı, Göyçəni biz,*

*Xudafərin dağıdılıb,*

*tarixçilər,*

*Çox torpaqlar*

*İşğallara məruz qalıb,*

*tarixçilər,*

*Varımızı, malımızı aparıblar,*

*Neçə bağı,*

*Neçə dağı,*

*Qarabağı*

*Torpağımdan*

*Torpağkəsən qayçılarla*

*Qayçılayıb qoparıblar,*

*tarixçilər.*

*Deməyək ki,*

*El uğrunda lap ölməyə biz hazırıq,*

*Gəlin deyək*

*Döyüşməyə, öldürməyə biz hazırıq,*

*Gəlin deyək, gücümüz var,*

*Zorumuzu bildirməyə biz hazırıq.*

*Olan-oldu, keçən-keçdi söyləməyək,*

*tarixçilər,*

*Nikbinləşək, nalə-fəğan eyləməyək,*

*tarixçilər.*

*Ötən çağdan,*

*Olanlardan, keçənlərdən*

*İbrət alaq,*

*tarixçilər,*

*Dədə Qorqud babamızın*

*Öyüdündən vəcdə gəlib*

*Həzzə dalaq, ləzzət alaq,*

*Koroğludan qeyrət alaq,*

*Canımıza mətinliyi, mətanəti*

*Edək calaq,*

*tarixçilər,*

*Həqiqətə qiymət verib*

*Biz həqiqi qiymət alaq,*

*tarixçilər!*

Hörmətli Yaqub müəllimin 80 illik yubileyini ürəkdən təbrik edir, ona sağlam, uzun ömür arzulayıram!

# Milli Tariximizi Dirçəldən Yaqub Mahmudov Məktəbi

**Güntəkin Nəcəfli***

Hər bir xalq, onun milli-mənəvi varlığı doğma elinə, torpağına bağlı olan görkəmli şəxsiyyətlərin, o cümlədən tək-tək qeyrətli ziyalıların fəaliyyəti və mübarizəsi sayəsində yaşayır, qeyri-millətlər içərisində əriyib yox olmaq təhlükəsindən qurtulur. Şərəfli ömür yolu yaşayan akademik Yaqub Mahmudov da Azərbaycanımızın bu cür nadir ziyalılarındandır. Tarix illərin xronologiyası deyil, tarix həmçinin yaşanan ömürdür. Özünü təsdiq edən insanların ömrü onun əməlləri ilə ölçülür. Bütün ruhu, varlığı ilə xalqına bağlı olan Yaqub müəllim Allahın çox istədiyi bəndəsidir. Ona görə ki, Ulu Yaradan ona gözəl istedad bəxş edib, özü də birini yox, bir neçəsini – dərin savad, güclü məntiq, möhkəm iradə, hər şeyi sistemləşdirmək bacarığı, həyata, hadisələrə ali münasibət, ən əsası **Vətən, Torpaq** sevgisi. Yaqub müəllim bütün bu bacarıqlarını doğma Vətənimizin və xalqımızın tərəqqisi yolunda sərf edir, gələcəyimizə nəhəng körpülər salır, özündən sonra gələn nəslə tükənməz xəzinə yaradır.

Yaqub müəllimi əyani olaraq 1988-ci ildə Azərbaycan Dövlət Universitetinin (Bakı Dövlət Universiteti) Tarix fakültəsinin I kursuna qəbul olunan vaxtdan tanıyıram. Amma onu qiyabi olaraq hələ orta məktəb illərindən, atamın zəngin kitabxanasındakı maraqlı bir kitabı - “*Səyyahlar Azərbaycana gəlir*” kitabını oxuduğum vaxtdan tanıyırdım. Yaqub müəllimi yaxından tanıyandan sonra həmişə fikirləşirdim ki, görəsən elə bir vaxt olacaqmı ki, bu dahi insan haqqında nə isə yazmaq şansı mənə də nəsib olsun. Onun adı yazılan hər hansı bir yazıda mənim də adım yazılsın. Şükürlər olsun ki, bu arzuların gerçəkləşməsi mənə nəsib oldu. Artıq 15 ildir ki, Yaqub müəllimin rəhbərlik etdiyi, burada çalışmağımla qürur duyduğum bir elm ocağında – AMEA Tarix İnstitutunda nəinki bir yerdə işləmək, hətta, dəfələrlə onunla bir masanın arxasında çalışmaq şərəfi mənə qismət oldu. Bu illərdə mən böyük bir məktəb – ***yaradıcılığı ilə Azərbaycan tarix elmində parlaq səhifə açan, milli tariximizi dirçəldən Yaqub***

* *Tarix üzrə fəlsəfə doktoru, dosent,AMEA Tarix İnstitutunun “Qarabag tarixi” şöbəsinin müdiri*

***Mahmudov məktəbi*** keçdim. Bu məktəbi keçmək hər kəsə nəsib olmur.

Tariximizdən danışanda həmişə Yaqub müəllimin tez-tez qürur hissi ilə söylədiyi bu cümlələri xatırlayıram. "***Azərbaycan xalqı qədim və zəngin tarix yaradıb. Dövlətçilik ənənələrimizin kökləri tarixin ən dərin qatlarına gedib çıxır. Zamanın sərt dönüşləri, qüdrətli imperiyaların, qəddar cahangirlərin işğalçılıq siyasəti Azərbaycan varlığını yer üzündən silə bilməmişdir***".

Bəli, bu gün, Azərbaycanımızla birlikdə tarix elmimiz də müstəqillik yoluna çıxıb. Yaqub müəllimin rəhbərliyi ilə AMEA Tarix İnstitutunda geniş islahatlar proqramı həyata keçirilir, müxtəlif elmi məktəblər yaradılır, layihələr həyata keçirilir.

2007-ci ildən başlayaraq Yaqub müəllim Tarix İnstitutunda yeni bir layihə - ***"Azərbaycan tarixi ilk mənbələrdə"*** layihəsini ortaya qoydu. Həmin layihə çərçivəsində vaxtilə üzümüzə qapalı olan bu arxivlərdə nəinki işləmək, hətta bu sənədləri olduğu kimi institutumuza gətirib çap etmək imkanını (böyük çətinliklər bahasına) yarada bildi. Azərbaycan tarixi ilə bağlı dünyanın müxtəlif arxivlərində saxlanılan çoxsayda qiymətli sənədlər həmin layihə çərçivəsində artıq Tarix İnstitutuna gə-tirilmiş və bu iş bu gün də davam etdirilir. Moskva, Sankt-Peterburq, Dərbənd, Mahaçqala, Tiflis, Krasnovodsk, İstanbul, Ankara, Paris, London, Berlin, Dehli kimi şəhərlərin arxivlərindən əldə olunan bu sənədlər çoxcildli toplular şəklində hazırlanaraq tədqiqatçılara və geniş oxucu kütləsinə təqdim edilməkdədir.

Bu layihənin həyata keçirilməsi Azərbaycan tarixinin araşdırılmayan, öyrənilməsinə qadağalar qoyulan gerçək tarixinin hərtərəfli tədqiqinə geniş imkanlar yaratdı.

Azərbaycan tarix elminin gələcəyi üçün son dərəcə gərəkli olan bu layihənin həyata keçirilməsi ilə Yaqub müəllim hər şeydən əvvəl, Azərbaycan tarixinin son illərədək öyrənilməyərək qalan çoxsaylı problemlərinin tədqiq olunmasını institutda diqqət mərkəzinə götürdü. Bu layihə əsasında indiyə qədər 20-dən çox irihəcmli sənəd toplusu işıq üzü görmüşdür: *("Azərbaycan Xalq Cümhuriyyətinin tarixi Böyük Britaniyanın arxiv sənədlərində" (Bakı, 2008);"Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı" I cild, (Bakı, 2009); "İrəvan əyalətinin müfəssəl dəftəri" (Bakı, 2009); "İrəvan əyalətinin icmal dəftəri" (Bakı, 2009); İsgəndər bəy Münşi. "Tarixi-aləm arayi–Abbasi" (Bakı, 2009); "Gəncə-Qarabağ əyalətinin icmal dəftəri" (Bakı, 2010); "Azərbaycan tarixi arxiv sənədlərində (1917-1920-ci illər). I cild. Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivinin sənədləri" (Bakı, 2010); "Azərbaycan xalqına qarşı 1918-ci il*

*mart soyqırımı. III cild. Xatirələr" Sənədlər toplusu (Bakı, 2010); "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). I cild. Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədləri" (Bakı, 2010); "Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı". II cild, 1-ci kitab. Gəncə quberniyası. (Bakı, 2010); "Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı". II cild, 2-ci kitab. İrəvan quberniyasında soyqırımı. (Bakı, 2010); İsgəndər bəy Münşi "Dünyanı bəzəyən Abbasın tarixi" (Bakı, 2010); "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əv-vəlləri). I cild. Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin sənədləri" (Bakı, 2010); "Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın arxiv sənədlərində" (rus dilində) (Bakı, 2011); "Azərbaycan tarixi arxiv sənədlərində. XVIII əsr. Rusiya Federasiyası Dağıstan Respublikası Mərkəzi Dövlət Arxivinin sənədləri" (Bakı, 2011); "Azərbaycan tarixi arxiv sənədlərində (aprel-dekabr 1920-ci il). II cild. Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivinin sənədləri" (Bakı, 2012); "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrlər). I cild. Rusiya Dövlət Tarix Arxivinin sənədləri"(Bakı, 2012); "Azərbaycan tarixi arxiv sənədlərində (XIX əsrin sonu-XX əsrin əvvəlləri). I cild. Britaniya kitabxanasının arxiv sənədləri" (Bakı, 2012); "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrlər). II cild. Rusiya Dövlət Tarix Arxivinin sənədləri" (Bakı, 2012); "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). II cild. Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədləri" (Bakı, 2012); "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrlər). III cild. Rusiya Dövlət Tarix Arxivinin sənədləri" (Bakı, 2012); "Azərbaycan tarixi arxiv sənədlərində (XIX-XX əsrlər). Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Azərbaycan Dövlət Tarix Arxivinin sənədləri" (Bakı, 2013); "Azərbaycan tarixi arxiv sənədlərində (may-oktyabr 1918-ci il). I cild. Almaniya Federativ Respublikası Xarici İşlər Nazirliyi Siyasi arxivinin sənədləri" (Bakı, 2013); "Azərbaycan tarixi arxiv sənədlərində (XIX-XX əsrlər). I cild. Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivinin və Gürcüstanın Mərkəzi Ən Yeni Tarix Arxivinin sənədləri" (Bakı, 2013); "Azərbaycan tarixi arxiv sənədlərində (1918-1919). II cild. Almaniya Federativ Respublikası Xarici işlər Nazirliyi Siyasi Arxivinin sənədləri. (Bakı, ATİB, 2014)* və s.

Yeri gəlmişkən, qısa vaxt içərisində Tarix İnstitutunda ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi və burada məskunlaşdırılması, ermənilərin azərbaycanlılara qarşı soyqırımı və etnik təmizləmə siyasətini əks etdirən sənəd topluları ilə yanaşı, tariximizə yeni baxış nümunəsi olan, erməni saxtakarlığını tutarlı

dəlillərlə ifşa edən ciddi elmi araşdırmalar da ortaya qoyulmuşdur: (*Mahmudov Y. Şükürov K. Qarabağ. Real tarix. Faktlar. Sənədlər. Bakı, 2005; Mahmudov Y. Şükürov K. Naxçıvan: tarixi və abidələri. Bakı, 2007; Исторические факты о деяниях армян на Азербайджанской земле. Баку, 2005 və Бишкек, 2009; Tarixi adlara qarşı soyqırımı (İdeya və ön sözün müəllifi Y.Mahmudov. Tərtib edən N.Mustafa.) Bakı, 2006; İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. (kollektiv monoqrafiya) Bakı, 2009; Mahmudov Y. Real tarix və "Böyük Ermənistan" uydurması. Bakı, 2014; "Azərbaycan xalqının İrəvan və ətrafındakı torpaqlara tarixi varislik hüququ bərpa olunmalıdır. (üç dildə). Bakı, 2015* və s.).

Yaqub müəllimin rəhbərliyi ilə institutumuzda aparılan elmi tədqiqatların mühüm istiqamətlərindən birini – xalqımıza qarşı ermənilərin həyata keçirdiyi soyqırımları tarixinin hərtərəfli şəkildə tədqiqi təşkil edir. Bununla bağlı yaddaşımda dərin iz buraxan bir hadisəni xüsusi olaraq xatırlatmaq istəyirəm: Azərbaycan xalqının qatili və soyqırımı cəlladı olan Stepan Şaumyanın və onun əlaltılarının məzarlarının paytaxtımızın mərkəzindən ümumşəhər qəbiristanına köçürülməsi zamanı Yaqub müəllim böyük qeyrət göstərərək bu hadisələri axıra qədər izləmək üçün günlərlə çətin şəraitdə həmin prosesdə yaxından iştirak etdi. Yaqub müəllim bu hadisəni hər zaman xatırlayaraq qeyd edir ki, "*Dövlət başçımızın bu cəsarətli göstərişi nəticəsində həmin məzarlıqda 26 deyil, 23 cəsədin qalıqları olduğu aşkara çıxdı və bununla, illərlə xalqımıza yalan satan daşnak-bolşevik saxtakarlığının üstü açıldı. Məlum oldu ki, Stepan Şaumyan və Tatevos Amiryan kimi soyqırımı qatillərinin cəsədləri həmin məzarlıqda yoxdur!*"

Bundan sonra Yaqub müəllimin rəhbərliyi ilə ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri cinayətlərin tarixini vərəq-vərəq izləmək və ən başlıcası – dünya ictimaiyyətinə çatdırmaq məqsədilə mühüm işlər görüldü. İnstitutumuzun bir qrup əməkdaşı "26 Bakı komissarları" adlı cinayətkar qrupun 1918-ci ildə Azərbaycan xalqına qarşı həyata keçirdiyi kütləvi soyqırımının gerçək tərəflərini üzə çıxarmaq üçün araşdırmalara başladı. Bu araşdırmaların ilkin nəticəsi öz əksini "*Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı*" *(Bakı, 2010)* və "*Геноцид азербайджанского народа 1918 года: Организаторы и палачи.* (Баку, 2013) kitablarında tapdı. Bundan başqa, Yaqub müəllimin təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrindən Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımı əks etdirən külli miqdarda arxiv sənədlərini institutumuza gətirilərək tədqiqata cəlb etdirdi. Azərbaycan tarixçiləri bu sənədlər

əsasında ölkəmizin bütün bölgələrində – Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, İrəvan, Naxçıvan, Urmiya və Şərqi Anadoluda ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımlarına ayrı-ayrılıqda qiymətli tədqiqat əsərləri həsr etdilər: *Геноцид Азербайджанцев в Иреванской губернии (1918-1920). Баку: 2014; Геноцид Азербайджанцев в Карабахском регионе Азербайджана (1918-1920). Баку: 2014; 1918-1920-ci illərdə Şərqi Anadolu, Naxçıvan və İrəvan bölgəsində ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımı. Bakı, 2014; İrəvan quberniyasında Azərbaycanlıların soyqırımı (1918-1920). Bakı, 2014; Bakıda 1918-ci il mart soyqırımı. Bakı, 2014; Şamaxı qəzasında Azərbaycan xalqına qarşı soyqırımı. Bakı, 2014; Azərbaycan türk-müsəlman əhalisinin soyqırımı Britaniya kitabxanasının arxiv sənədlərində. Bakı, 2014; Quba qəzasında türk-müsəlman soyqırımı. Bakı, 2014; Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı. (1918-1920) Bakı, 2014; 1917-1918-ci illərdə Urmiya bölgəsində azərbaycanlılara qarşı soyqırımı. Bakı, 2015.*

Onu da qeyd etmək yerinə düşərdi ki, Yaqub müəllim hər zaman qeyd edir ki, "*Bu gün Tarix İnstitutunda aparılan bu əsaslı islahatlar – milli tariximizin saxtalaşdırmalardan, təhriflərdən təmizlənməsi, Vətənimizin tarixinin yenidən, həqiqətdə olduğu kimi yazılması, dünyanın müxtəlif ölkələrindən qiymətli ilk mənbələrin, çoxsaylı arxiv sənədlərini İnstitutumuza gətirilib nəşr edilməsi Ulu Öndərin vəsiyyəti və Dövlət başçımızın qayğısının nəticəsidir.*

*Bu diqqət və qayğı olmasa idi yaxın keçmişdə adının belə çəkilməsi yasaq olunan Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə həsr olunmuş ikicildlik Ensiklopediyamız, Milli Tarix Atlasımız, Dövlət Mükafatına layiq görülən "**Qarabağ**: real tarix, faktlar, sənədlər", "**Naxçıvan**: tarixi və abidələri", "**İrəvan xanlığının tarixi**" fundamental tədqiqatları yazılıb, xarici dillərə tərcümə olunaraq dünya ölkələrində yayılmazdı. İndi Tarix İnstitutunun əsərləri Bakı ilə yanaşı Moskvada, İstanbulda, Ankarada, İslamabadda, Budapeştdə, Kiyevdə, Londonda, Nyu-Yorkda, hətta Los-Ancelesdə də nəşr olunur*".

Mən Sizin bir öyrənciniz, tələbəniz olaraq yaxınlaşan bu xoş gününüzdə xalqımıza bəyan etməyi özümə borc bilirəm ki, bu gün Akademiyanın Tarix İnstitutunda aparılan köklü islahatlar, bütün fundamental araşdırmalar, milli tariximizin dirçəldilməsi prosesi, bilavasitə Sizin rəhbərliyiniz, layihələriniz və yeni ideyalarınız əsasında həyata keçirilir.

Əziz Yaqub müəllim, bu gün biz – Sizin rəhbərlik etdiyiniz Azərbaycan tarixçiləri

erməni təcavüzkarlarına qarşı informasiya müharibəsi aparırıq. Bizim hamımız Sizin əsgərlərinizik! Sizin rəhbərliyinizlə biz tariximizi saxtalaşdıranlara qarşı açıq döyüşə girmişik! Hətta Dövlət başçımız bütün çıxışlarında Tarix İnstitutunun əməyinə, mübarizəsinə yüksək qiymət verir!

Əziz Yaqub müəllim, xalqımızın elm, təhsil, ictimai-siyasi həyatına, müxtəlif elmi məktəblərin, xalqımızın milli tarixinin dirçəliş konsepsiyasının yaradılması və həyata keçirilməsinə həsr olunmuş, bütün həyatı boyu doğma Vətəninin və xalqının tərəqqisi yolunda yorulmadan, əzmlə mübarizə apararaq Vətən naminə yaşanan şərəfli ömrünüzün 80-ci baharında Sizi ən səmimi, ən xoş duyğularla təbrik edirəm!

Yüksək səviyyəli alim, səriştəli pedaqoq-müəllim, təcrübəli rəhbər işçi, Əməkdar Elm xadimi, fəal ictimai-siyasi xadim kimi tanınmanız, "Şöhrət" ordeni, "Şərəf" ordeni, Dövlət Mükafatı Laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü və çox sayda müxtəlif mükafatlara layiq görülməniz sizin Vətən və xalq qarşısındakı xidmətlərinizə verilən qiymətdir. Buna görə də Siz ən səmimi, ən xoş sözlərə layiqsiniz!

Sizin səmərəli elmi tədqiqat fəaliyyətiniz – Azərbaycan və dünya tarixinə dair 1000-dən çox elmi əsər, elmi-publisistik məqalələr, dərsliklər və dərs vəsaitləriniz, ilk dəfə olaraq Azərbaycanın tarixi xəritələrinin hazırlanması və çap olunması, 30 ildən çox bir müddət ərzində nəşr olunmayan "Tarix İnstitutunun Elmi Əsərləri"nin gərgin əməyiniz sayəsində yenidən işıq üzü görməsi Azərbaycan tarixşünaslığına dəyərli töhfədir. Azərbaycan-Avropa əlaqələrinin araşdırılması və Azərbaycan diplomatiya tarixi elmi məktəbinin yaradılması, Vətən tarixinin son illərədək öyrənilməyən, xüsusi məqsədlərlə təhrif olunmuş, saxtalaşdırılmış səhifələrinin yenidən yazılması, zaman-zaman qəlpə-qəlpə vətənimizdən qoparılıb alınmış, "*İtirilmiş torpaqlarımızın tarixinin araşdırılması*" istiqaməti, "*Azərbaycan tarixi ilk mənbələrdə*" layihəsi, "*Azərbaycan xalqına qarşı ermənilərin həyata keçirdiyi soyqırımları*" və bir sıra digər aktual elmi problemlər sizin elmi araşdırmalarınızın özəyini təşkil edir.

Qədirbilən xalqımız Sizə – fəal ictimai-siyasi xadim Yaqub Mahmudova, Azərbaycan Respublikası Parlamentinin (Milli Məclis) deputatı kimi ölkənin daxili həyatı və xarici siyasəti ilə bağlı gördüyünüz işlər üçün də minnətdardır. Təhsil və elmi təşkilatçılıq işində – əsasən, Bakı Dövlət Universitetində və AMEA Tarix İnstitutunda çox sayda elmi kadrların, gənc alimlərin yetişdirilməsi, Azərbaycan tarixinin tədqiqata cəlb edilməyən, bilərəkdən saxtalaşdırılan yeni səhifələrinin tədqiqi sahəsindəki sayagəlməz uğurlarınızla da Siz özünüzə ümumxalq sevgisi qazanmışınız!İstərdim ki,

bu qeyri-peşəkar, lakin ürəkdən gələn yazılarım yazmaq istədikləri yazdıqlarından daha çox olan, daima yeni axtarışlar aparmaq, tarixin ənginliklərinə baş vuraraq xalqımızın milli tarixinin dirçəlişi üçün əlindən gələni əsirgəməyən müəllimimin doğum günü üçün ən səmimi təbrikim olsun!Hələ qarşıda milli tariximiz üçün, Vətən üçün görüləsi çoxsayda işlərimiz var. İnanıram ki, Allahın köməkliyi ilə bütün bu işlərin öhdəsindən gələcək və daha çox işlər görəcəyik.

Əziz müəllimim, var olun, hər zaman gümrah və sağlam olasınız!

# Mənim Tanıdığım Yaqub Müəllim…

**Aynur Bəşirli***

***Cığırlardan danışmaq istəyirəm. Yoxa çıxan cığırlardan yox. Yola çıxan cığırlardan danışmaq istəyirəm…***

***Cığırlar hekayələrdir. Yol Tarix…***

***Bu yazı cığırlar və Yol, hekayələr və Tarix barədədir…***

Mənim hekayəmin tarixi 90-ci illərin sonuna gedib çıxır. Əslən azərbaycanlı, Strasburqda yaşayan məşhur türkoloq İren xanım Məlikofun Bakıya gəldiyi günlərə. İren xanım tarix fakültəsində mühazirələr deyəcəkdi. Jurnalistika fakültəsinin 2-ci kursunda oxuyurdum, “Bilik” Maarifçilik Cəmiyyətinin “Dalğa” qəzeti təzəcə açılmışdı və mən İren xanımdan yazı yazmağı qərara almışdım. O zaman Yaqub müəllim Tarix fakültəsinin dekanı idi.İren xanımın mühazirələrinə qatılmaq üçün onun yanına getdim… Bir-iki həftə sonra dərc olunan “İren xanım gündəliyi” adlı bir səhifəlik yazım bu sözlərlə bitirdi:“İren xanım gündəliyi”nə nöqtə qoymuram. Vaxt gələcək mən Fransada İren xanımla görüşəcəyəm”. Vaxt gəldi. İren xanımla 11 il sonra Azərbaycan Avropa Şurasına qəbul olunanda Strasburqda Avropa sarayında görüşdük…İndi 2019-cu ilin bu günəşli və soyuq fevral günündə 90-cı ilin bundan da soyuq qışına aradan keçən 29 ilin laylarından baxanda Tarix fakültəsinin dekanının otağını çox aydın görürəm.Yaqub müəllimin səsiniüstündən zaman ötməyibmiş kimi aydın eşidirəm:“Mənim qızımın da adı Aynurdur”. Yaqub müəllim məni ayaq üstə qarşıladı, ayaq üstə qulaq asdı və yola saldı. Onun otağının qapısı açıq qaldı. Və bu qapı heç zaman örtülmədi…

Bu yerdə qapılardan danışmaq istəyirəm. Vaqif Səmədoğlunun qapı barədə bir şeiri var. “Açıl, Qapım, açıl”- dediyi, min bir sözlə əzizlədiyi, açılmağını gözlədiyi qapıya yazdığı şeir. Mənim həyatımda açıq qapıların sayı bağlılardan həmişə çox olub. Bəlkə, elə bu görə də Vaqif Səmədoğlunun açılacağını gözlədiyi qapı və Yaqub müəllimin otağının açıq qalan qapısı haqqında bu gün 30 ildən sonra düşünürəm. Gənc olanda adama elə gəlir ki, qapı onun üzünə elə açıq olmalıdır. O açıq qapının sahibi də elə sənə yol açmalıdır. Və sən bunu o qədər təbii qəbul edirsən ki, inamı məsuliyyəti, cəsarəti soyuq məntiqi qat-qat üstələyən cümlələr yazırsan – “Vaxt gələcək mən Fransada İren xanımla görüşəcəyəm” kimi...

---

**Siyasi elmler üzre felsefe doktoru,AMEA Tarix İnstitutu “Umimi Tarix” şöbəsinin müdiri, E-mail: aabashirova@yahoo.com*

İllər keçir, çox-çox açıq qapıların sahiblərinin ürəyi kimi necə bağlandığını görəndə, onda Vaqif Səmədoğlunun şeirini anlayırsan, qapısını və ürəyini açıq saxlaya bilən insanlar haqqında düşünürsən… Və acı həqiqəti qəbul edirsən: onlar çox deyil… Bax, bu yerdə ikinci hekayəmə keçirəm. 1990-cı ildən 1998-ci ilə kimi Yaqub müəllimlə yollarımız kəsişmədi.Bir də 1998-ci ilin oktyabrında Azərbaycan müəlimlərinin qurultayında tərtibçisi olduğum “Prezident. Xronika. 1993-1997” kitabınıntəqdimatı zamanı görüşdük. Əslində, buna görüşdemək olmazdı. Beş min nüsxəsindən iki mini müəllimlər qurultayında paylanan bu kitab Ulu Öndər Heydər Əliyevin xeyir-duası ilə çıxsa da, onun yolunu əngəlləyənlər də vardı. Sonuncu cəhd, buna təxribat da demək olar, təqdimatdan əvvəlbaş verdi. Təsəvvür edin ki, kitabın təqdimatına bir neçə dəqiqə qalır, onun zəhmətini çəkən bütöv bir komanda isə iqnor olunur. Biz öz bayramımıza uzaqdan baxmaq zorundaydıq. O mürəkkəb anda köməyimə iki İnsan çatdı. Biri yol açdı, haqq etdiyim yeri qaytardı, o biri arxamda durdu. Arxamda duran Yaqub müəllim idi. Professor Yaqub Mahmudov “Prezident. Xronika.1993-1997” kitabının tarixi əhəmiyyətindən danışdı. Amma məni də unutmadı…Biz səkkiz ildən sonra yenə ayaq üstə idik. Bura dekan otağı deyildi. Bura Respublika sarayı idi. Bu, İren xanım gündəliyideyildi. Bu, Azərbaycan Prezidenti Heydər Əliyevin fəaliyyət xronikası idi… O, mənə qarşı yönələn son cəhdin şahidi idi. O, öz Sözünü dedi…

Mən gündəlikdən xronikaya qədər yol gəlmişdim. Jurnalistikanın sərhədlərini keçmişdim. Sərhədin o tayı Tarix idi. Amma o zaman, düzü, belə fikirləşmirdim. Təqdimatdan sonra mənən elə yorulmuşdum ki, Yaqub müəllimə sağ ol belə demədim. O getdi. Yollarımız yenə ayrıldı. Amma arada Yaqub müəllimin xronikaya verdiyi qiymət qaldı, daha doğrusu, iki qiymət. Yaqub müəllimin verdiyi iki qiymət arasında fərqi sonralar anlayacaqdım. Bunlardan birincisi, xronikanın siyasi əhəmiyyəti, ikincisi tarixşünaslıq üçün önəmi idi. Bunu anlamaq üçünsə biz ayaq üstə yox, oturub söhbət etməli olduq. Bu yerdə üçüncü hekayə başlayır. 1995-ci ildən dissertant olsam da, iş elə gətirmişdi ki, dissertanturaya qəbuldan iki ay sonra “Günay” qəzetinin Prezident Aparatı üzrə müxbiri təyin olundum və 2002-ci ilin yanvarında ABŞ-a elmi ezamiyyətə gedənə kimi Prezident Heydər Əliyevin jurnalist pulunda oldum. Tale mənə canlı tarixi yaşamağı və yazmağı qismət etmişdi, dissertasiya barədə ciddi düşünmürdüm. Universitetdə müəllimlik, hətta tutduğum vəzifələr belə müstəqil jurnalist kimi prezidenti müşayiət etməyin zövqünü vermirdi. Qazanılmış təcrübəni qiymətləndirmək üçün yeni bir platformaya ehtiyac vardı. 2001-ci ildə Bakı Dövlət Universitetində açılan Amerikaşünaslıq Mərkəzi belə bir platforma oldu. Bu mərkəz Tarix fakültəsinin bətnindən çıxmışdı. Jurnalistika fakültəsindən fərqli olaraq, tarix daha proqressiv və yeniliklərə açıq fakültə idi. Həmin illərdə yenidən Tarix fakültəsinin başında duranYaqub müəllimin təşəbbüsü ilə bir çox ilklərə imza atılmışdı. Yalnız bir fakt – Yaqub müəllimin dəstəyi ilə bu fakültədə yaradılan ingilis dilli qruplarda tələbələr diplom işlərini ingiliscə müdafiə edirdilər. Elə buna görə də

Amerikaşünaslıq Mərkəzindən İndiana Universitetinə araşdırma üçün təqdiqatçılar seçiləndə onların əksəriyyəti tarıxçilər idi. Amma bu digər ixtisasların da proqrama baş vurmalarına mane ola bilməzdi. Amerikaşünaslıq jurnalistika, tarix və siyasətin kəsişdiyi ideal bir qovşaq kimi mənim üçün çox cəlbedici idi. Tədqiqat üçün mövzu seçməli idim. Yaqub müəllimin açıq Qapısı və Sözü bu dəfə də həlledici oldu – "Azərbaycan-ABŞ münasibətləri Amerika mətbuatında" mövzusu belə seçildi. Və bu yerdə mən birinci dəfə Yaqub müəllimə "Sağ olun", - deyib, Amerikaya yola düşdüm. Yaqub müəllim birinci dəfə məni yola saldı və axtarmadı…Bu yerdə dördüncü hekayə başlayır. Buna rusca "svobodnoye plavaniye" deyirlər, Azərbaycanca "azad üçüş" desək, daha dəqiq olar. Mövzunu müəyyənləşdirdiyimiz gündən dissertasiyanı Yaqub müəllimin stolunun üstünə qoyduğum günə kimi 3 ildən çox vaxt keçdi. Bu 3 ildə iki dəfə İndiana Universitetində oldum. Oilləri xatırlayanda gözümün önünə bu yaxınlarda videosunu gördüyüm bir səhnə düşür – qarlı dağın başında ağ ayı balası ilə ilə gəzişir. Birdən ana ayı balasını itələyir. Bala büdrəyir, yamac aşağı sürüşür.Ana ayı onun sürüşməsinə sakit-sakit baxır, nə vaxt dayanacağını gözləyir. Bala sürüşüb-sürüşüb, nəhayət, özünə gəlir. Yamac yuxarı dırmaşır. Anasının yanına çatır. Bu dəfə də ayı onu itələyir. Bala yenə sürüşür. Bu məşq bala ayaqları üstə inamla durana kimi davam edir...

Yaqub müəllim elmi rəhbər kimi alimi bu cür yetişdirir. Sıxmır, düşüncə azadlığı verir və yamac boyu yıxılıb-durmağı, ayağa qalxmağı öyrənənə kimi məşq etməyə meydan verir. Amma gözdən qoymur... Hərdən adama elə gəlir ki, hətta səni unudur, yadından çıxarır belə. Amma sən unuda bilərsən. O unutmur. Sən axtarmaya bilərsən. O axtarır. Gözləmədiyin bir anda...Bu isə beşinci hekayədir. 2016-cı ilin martı idi. Mətbəxdə iş görürdüm. Mobil telefon zəng çaldı, dəstəyin o başından Yaqub müəlliminsəsi eşidildi: "Əziz dost, haradasan?" Mən onda Slavyan Universitetində kafedra müdiri əvəzi idim. Universitetdə ixtisarlar gedirdi, iki kafedra birləşdirilmişdi. May ayında seçki idi, bir sözlə, həyat düzənindən çıxmışdı. Yaqub müəllim gözləmədiyim halda məni axtarırdı və Tarix İnstitutuna, Amerikaşünaslıq bölməsinə rəhbərlik etməyə dəvət edirdi. "Gəl, işini davam etdir",- deyirdi. Gələcəyimə söz verdim, amma dedim ki, əvvəlcə universitetdəki işləri qaydaya salmalıyam. Mayda seçkilər oldu, 5 illiyə jurnalistika kafedrasına yenidən müdir seçildim. Amma bu, mənim Yaqub müəllimə verdiyim sözün qarşısını kəsə bilmədi. O, mənə gözləmədiyim anda, ən çətin vaxtda zəng vurmuşdu. O, məni axtarmışdı. O unutmamışdı... O, böyüklük etmişdi...Bu yerdə mənim növbəti hekayəm başlayır. Günü bu gün də davam edən hekayə. Ağlıma gəlməzdi ki, hacansa, akademiyada, özü də Tarix İnstitutunda ayaq saxlayacağam. Jurnalistlik taleyim fasiləsiz bir yola bənzəyirsə, akademiya, doğrudan da, dayanacaqdır,– nəfəs dərdiyin, olanları yenidən qiymətləndirdiyin, ömrün yetkin cağlarında dünyaya və insanlara fərqli nəzərlərlə baxdığın, köhnə tanışları yenidən tanıdığın bir məkan... Və bu məkanda Yaqub müəllimin portretinin yeni cizgiləri göründü. Bu yazını o cizgiləri sadalamadan bitirə bilməyəcəyəm... O nə özü darıxır, nə də

başqalarını darıxmağa qoyur. O, orkestr insandır. Hamını işlədə, özü isə hamıdan çox işləyə bilir. Amma hər şeyə vaxt tapır…Onun qapısı hər zaman açıqdır. O, həmişə dinləməyə hazırdır. Heç zaman sözü kəsmir. Diqqətlə qulaq asır.O istənilən problemə çözüm tapır. Heç vaxt çözümü pröblemə çevirmir. O, insanları yola verə bilir, tükü-tükdən seçir. Kimin kim olduğunu bilir, amma heç zaman üzə vurmur.O, müəllimi olduğu bütün tələbələrinin xasiyyətinə bələddir, bəzən onların inadkarlığına, uşaq kimi incimələrinə, hətta küsmələrinə və nadinclik etmələrinə belə səbrlə tamaşa edir və bilir ki, tələbələrin müəllimdən başqa, üstünə gedəsi kimsələri yoxdur…O, tələbələrini və yetişdirmələrini çox sevir. Bilir ki, bu dünyada insandan qiymətli heç nə yoxdur. Bilir ki, dünyanın hər yerindən zərrə-zərrə toplanıb gətirilən arxiv sənədləri nə qədər qiymətli olsa da, onları Kimin və necə oxuyacağı daha önəmlidir. O, bilir ki, ənənələri yaşadan insanlardır. İnsan və milləti yaşadan isə dəyərlərdir. O, sahiblik etməyi bacarır və sevir. Çünki o bölüşməyi bacarır. Heç kimin haqqına girmir. O, səxavətlidir. Onun səxavətinin ən böyük göstəricisi vaxtını və enerjisinixeyirxah işlər üçün bölüşməyidir. O, xoş sözə qıyımlıdır. Tərifəzərrə qədər də xəsislik etmir. O, təmannasızdır. Nəfsi toxdur. Heç vaxt heç nə ummur. Umduğu bircə şey – elmi iş, tədqiqat və dissertasiyadır.Onun yadından heç nə çıxmır. Gözündən heç nə qaçmır. Xırdalıqları seçir, amma xırdaçı deyil. İnsaflıdır, incitməyi sevmir.Acılara gülməyi bacarır. İncə yumor hissi var…Onu insanın haradan gəldiyi yox, onunla tanış olandan sonra seçəcəyi yol maraqlandırır.O, kökünə bağlıdır, ona yol açan insanları daim xatırlayır…O, tarixçi olsa da, hər şeyi dünənə yox, sabaha ünvanlayır…Onu gördüklərindən çox, görəcəyi işlər maraqlandırır. O, gəncləri sevir. Onları ruhuna yaşıd bilir…

Bu, Yaqub müəllimdir – cığırların yola çıxdığı, özü YOLa çevrilən insan…

# Yubileyin Mübarək, Böyük İnsan!

**Dilavər Əzimli***

Azərbaycanın ikinci dəfə müstəqilliyinin əldə etməsində tələbə hərəkatının böyük xidməti olmuşdur. Bu hərəkat Ümumazərbaycan tələbə hərəkatı idi. Təəssüf ki, bu hərəkat hələ də yetərincə araşdırılmamışdır. Hərəkat bir nöqtədən, daha doğrusu Bakı Dövlət Universitetində qərarlaşmış Tələbə Komitəsi tərəfindən idarə olunurdu. Bu komitə də Tarix fakültəsində yerləşirdi. Bakı Dövlət Universitetinin tələbə hərəkatında əsas dayaq nöqtəsi Tarix fakültəsi idi. Tarix fakültəsinin altıncı mərtəbəsində bizim qərargah yerləşirdi. Əvvəllər bu qərargah komsomolun otağı olmuşdu. Tarix fakültəsi tələbələri buranı ələ keçirdilər. Maraqlıdır ki, biz bu otağı qəsb etdikdən sonra bizi zorla çıxaran olmadı. O zaman hesab edirdik ki, bizim gücümüzdən ehtiyat edirlər. Amma gəlin etiraf edək ki, bizi milis (sonradan polis-D.Ə.) qüvvələri oradan çıxara bilərdilər. Amma etmədilər. Ona görə ki, fakültə rəhbərliyi buna getmədi. Fakültənin dekanı isə Yaqub müəllim idi. O zaman Tarix fakültəsinin tələbələri daha aktiv idilər. Xalq Cəbhəsinin ən güclü dayaq dəstələrindən biri BDU, BDU XC dayaq dəstələri içərisində də ən aktivi Tarix fakültəsi dayaq dəstəsi idi. Müəllimlərimizin də əksəriyyəti dayaq dəstəsinin üzvü idilər. Ümumən Tarix fakültəsi BDU tarixində həmişə inqilabi mərkəz olmuşdur. Azərbaycanın müstəqilliyi uğrunda gedən mübarizədə fakültəmizin xüsusi rolu olmuşdu. Məsələn, biz o fakültəyə qəbul olunanda bilirdik ki, bu fakültədə Əbülfəz Əliyev (Elçibəy) dərs deyibdir. Yaxud, Etibar Məmmədov bu fakültədə müəllim kimi çalışır. Bu az şey demir. Elə bunun nəticəsi idi ki, 1987-ci ildə bizim fakültənin altıncı mərtəbəsində komsomolun divar qəzetinə inqilabçı xarakterə malik tələbələr tərəfindən diqqəti cəlb edən bir şəkil vurulmuşdu. Şəkildə ox ilə ikiyə parçalanmış ürək təsvir olunmuşdu. Bu o demək idi ki, Azərbaycan ikiyə ayrılıbdır. Bu şəkil divarda cəmi doqquz dəqiqə qaldı. Çünki agentura dərhal Dövlət Təhlükəsizlik komitəsinə xəbər vermişdi. Şəkli divardan çıxardılar, amma kimsəyə bir söz deyən olmadı. O zaman fakültəmizin dekanı Yaqub Mahmudov idi.İndi hesab edirəm ki, ayrı dekan olsaydı, bu

**Dosent, tarix üzrə fəlsəfə doktoru, AMEA Tarix İnstitutunun aparıcı elmi işçisi, E-mail: d-azimli@rambler.ru*

cür hərəkət edə bilməyəcəkdi. Çünki Yaqub müəllim böyük və qorxmaz ürək sahibi idi. Keçdiyi həyat yolu bəzi məsələlərdə bizə kömək edirdi. İnsan təpədən-dırnağa milli idi. Mühazirələri də milli zəmində idi. Qeyd edək ki, belə müəllimlərimiz az deyildi. Yaqub müəllim XX əsrin 60-cı illərinin sonu, 70-ci illər milli tarixçilər siyahısında öz yerini tutmuşdu. Bu haqda çox sonralar Əbülfəz Elçibəyin xatirələrini oxuyanda gördüm. Orada milli tarixçilər sırasında Ziya Bünyadovun, Süleyman Əliyarlının, Yaqub Mahmudovun, Mahmud İsmayılovun adları çəkilmişdir. SSRİ dövründə bu adamlar qara siyahıya salınmışdı. Onlardan ciddi ehtiyat edirdilər. Biz tələbə olanda Yaqub müəllim dekan idi. Tələbəlik illərimizə nəzər salanda düşünürəm ki, o zaman doğrudan da çətin və şərəfli dövr idi. O zaman yadımda qalan ən böyük hadisələrdən biri 1989-cu ildə Tarix fakültəsində keçirdiyimiz "Novruz" şənliyi idi. O zaman Bakı şəhərində fövqəladə vəziyyət idi. Bakı komendantı Valeri Bünyadov idi. Belə vəziyyətdə bayırda "Novruz" şənliyi keçirmək hünər istəyirdi. Yaqub müəllim istəyimizə müsbət cavab verdi. Bu şənliyin ssenarisinin hazırlanmasında da iştirak etdi. İki kosa var idi. Mən də Bəy əfəndi idim. O zaman BDU-nun sağ tərəfində böyük meydan var idi. Biz bayramı keçirmək üçün Opera və Balet teatrına getdik. Oradan paltarlar verdilər. Eyni zamanda Atçılıq mərkəzinə getdik. Bura onlardan çaparlar dəvət etdik. Onlar da faytonlarla gəlmişdilər. Bahar qız Azərbaycan Opera və Balet teatrının aktrisası idi. Yaqub müəllim bütün hazırlığa nəzarət edirdi. Tarixi kosa tələbə yoldaşımız Məhəmməd idi. Müasir kosa isə Zahid idi. Bakı kəndlərindən olan tələbə yoldaşlarımız xoruz döyüşü göstərmək üçün döyüş xoruzları gətirdilər. Qızlarımız hamısı milli paltarda idilər. Başlarına ağ kəlağayı bağlamışdılar.Tədbir saat 12-də başladı. Mart ayının 20-si idi. Təsəvvür edin ki, hay-küyümüz bütün Bakıya yayılmışdı. Bakı şəhəri sakinləri BDU-ya doğru axışırdı.İnsanlar sevincdən ağlayırdılar. Uzun illər idi ki, bu bayrama həsrət idilər. Xoruz döyüşü başlayanda Az.Tv birbaşa çəkməyə başladı. Xatırladım ki, Novruzla bağlı videosüjetlərdə bu kadrlar indi də təkrar olunur. Hələ iki kosanın bir-biri ilə qarşılaşması və müasir kosanın iddiaları... Bu ssenari birbaşa Yaqub müəllimə məxsus idi. Əslində bu deyişmə birbaşa inqilab idi. Yəni dövlətçiliyimizə doğru gedən yolda bir işarə idi. Meydana milli rəqs qrupu daxil oldu... Tamaşaçılar heyrətdən göz yaşlarını saxlaya bilmirdilər. İndi çoxlarına bu vəziyyət adi gələ bilər. Amma o zaman tamam başqa idi. İnsanlar özlərinin doğma bayramı ilə qucaqlaşmışdılar. Şənlik yüksək əhval-ruhiyyə ilə davam edirdi. Əhali dağılışmaq bilmirdi. Bu zaman xəbər gəldi ki, bəs, Bakı şəhər komendantı buraya öz nümayəndəsini göndərib ki, tədbiri saxlayaq. Onları

qorxudan Bakı sakinlərinin bu tədbirdə çoxluğu idi. Hətta xəbərdarlıq etdilər ki, əmrə əməl olunmasa, buraya əsgərlər yeridiləcəkdir. Bu mənada məcbur olub tədbiri saxladıq. Bu tədbir hamı tərəfindən yüksək qarşılandı. Sonradan Azərbaycanın hər yerində bundan danışırdılar.Yaqub müəllim dekan olan dövrdə birinci kursa daxil olan tələbələr mütləq Qobustana səfər etməli idilər. Bu pozulmayan bir əmr idi. Bizdən əvvəlki tələbələri həm də Dərbənd şəhərinə "Narın qala"nı görməyə aparırdılar. Eyni zamanda tələbələri həm də Azıx mağarasına aparırdılar. Yaqub müəllim təkcə bunlarla kifayətlənmirdi.Yadımdadır ki, bizi tez-tez televiziya verilişlərinə çıxarır və dəyirmi masalar təşkil edirdi. O zaman məsələ qoyurduq ki, nəyə görə bizdə Qazax tarixi, Özbək tarixi, Türkman tarixi, Qırğız tarixi keçirilmir? Nəyə görə Türkiyə tarixi genişliyi ilə keçirilmir?Yaqub müəllim əsl tarixçilər yetişdirmək üçün fakültədə ərəb dili, fars dili, latın dillərinin tədrisi təşkil etdi. Ərəb dili üç il keçirilirdi. O cümlədən fars dili də... Azərbaycan tarixi fənninin öyrənilməsinə xüsusi əhəmiyyət verirdi.Yaqub müəllimin dekanlığı doğrudan da çətin bir dövrə düşmüşdü. Bir an da olsa fakültədən ayrıla bilmirdi. Çünki fakültədə müxtəlif niyyətli adamlar var idi ki, tələbələri güdaza verə bilərdilər. Yadımdadır ki, 1988-ci il hadisələri başlayan ərəfədə Yaqub müəllimi Daşkəndə tarix elminin tədrisi ilə bağlı elmi konfransa çağırmışdılar. Qayıdanda şəhər artıq bir-birinə qarışmışdı. Yolda eşitmişdi ki, indiki "Azadlıq" meydanı" çoşub-daşır. Yaqub müəllim bilirdi ki, tələbələrinin 90 faizi oradadır. Birbaşa meydana gəlmişdi. Tribunaya çıxıb çıxış etdi...Yaqub müəllimin fəaliyyətinin əsas istiqaməti arxeoloji qazıntılarda tələbələrin iştirakını təmin etmək idi. Bunun üçün BDU Tarix fakültəsi arxeoloqları üçün maliyyə ayrılmasına nail oldu və fakültənin ekspedisiyaları fəaliyyətə başladı. Mən də üç il mərhum Fərman Mahmudovun rəhbərliyi altında arxeoloji qazıntılarda iştirak etdim. Həyatımda böyük iz qoymuş bu insan mənim aspiranturada təhsil almağımda da böyük iş gördü. Yadımdadır ki, elə bir vaxt idi ki, BDU-da bizə salam verməyə qorxurdular. Amma Yaqub müəllim mənim üçün Təhsil nazirliyindən əlavə yer aldı və mənim elmi rəhbərim oldu. İlk gündən elmi fəaliyyətim məhsuldar idi. Amma sonradan elmi fəaliyyətim zəiflədi. Bunun da səbəbləri vardı.O zaman ailə saxlamaq çətin idi. Elmdə isə pul yox idi. Mən də jurnalistika ilə məşğul idim. On il keçdi. Bir gün həyat yoldaşım, telejurnalist Arzu xanım dedi ki, Səfəvilərlə bağlı bir film çəkmək istəyirəm. Onda dedim ki, bu film üçün ən yaxşı danışa biləcək şəxs Yaqub müəllimdir. Çünki o, diplomatdır. Kim danışsa işləri korlaya bilər. Amma Yaqub müəllim belə deyildir. Doğrudan da Yaqub müəllimdən müsahibə çox uğurlu alındı.

Həmin müsahibənin sonunda Yaqub müəllim Arzu xanımdan soruşub ki, “o fərari haradadır? Qaçıb gedibdir, elmdən uzaqlaşıbdır”. Arzu xanım bunları mənə deyəndə ertəsi gün yanına gəldim. Mənə sözləri bu oldu: “Sən Qarabağ savaşında səngərlərdə oldun, fərarilik etmədin, bə indi?”. Bu sözlər mənə ciddi təsir etdi. O gündən elmi fəaliyyətimi bərpa etdim. Buna görə ona və bir də həyat yoldaşıma minnətdaram!!!Bu insan haqqında çox yazmaq olar... Bu insan əsl vətənpərvər Azərbaycan alimidir!!! İşdə ciddiliyi sevir, hamını ətrafında yığmağı bacarır və çox böyük təşkilatçıdır. Eyni zamanda hamıya qayğı ilə yanaşan adamdır. Bunu rayonlar, elmi konfranslara etdiyimiz səfərlər zamanı müşahidə etmək mümkündür!!! Yubileyin mübarək, BÖYÜK İNSAN!!!!

# "Ata Yurd"un Sorağinda Keçən Ömür

**Firdovsiyyə Əhmədova***

Tarixçi Yaqub Mahmudovu tanımaq üçün BDU-nun Tarix fakültəsində təhsil almaq, yaxud Akademiyanın Tarix İnstitutunda işləmək vacib deyildir. Yaqub Mahmudovu respublikanın bütün tarix müəllimləri, bütün tarixçiləri tanıyır. Ümumiyyətlə, çağdaş cəmiyyətimizdə Yaqub Mahmudov ismi hər kəs üçün müəyyən assosiasiya yaradır. Şəxsiyyətin çoxşaxəli fəaliyyəti peşəsindən asılı olmaya-raq, fərqli insanları cəzb edə bilər. Rəsmi vəzifələri ilə yanaşı qeyri-rəsmi missiya daşıyan Yaqub müəllim üçün səciyyəvi keyfiyyətləri çox sadalamaq olar. Mənim Yaqub müəllimi tanımağımın yaşı sovet dövrünə təsadüf edir. Yaqub müəllim tələbələrlə ünsiyyətdə olduqca sadə, səmimi və xeyirxahdır. Tarixçi, zəkasında yalnız yaşadığı dövrün deyil, zamanın yükünü daşıyır. Zaman anlayışı isə tarixçi üçün olduqca geniş və çoxmənalıdır. Yaqub müəllim üçün zaman yükünün nüvəsində Vətəninin tarixi dayanır. Onu "Ata yurdu"na qovuşduran yol isə heç də hamar olmayıbdır. Rəsmi bioqrafiyasının rəvan və sanballı görünən məzmunu mahiyyətcə daha zəngindir.

Azərbaycanın sovet və müstəqillik dövrlərinin tanınmış tarixçisi kimi Y.Mahmudov ideoloji təzyiqlərlə çox rastlaşmış-dır. 1962-ci ildən həyatını bağladığı BDU-nun Tarix fakültəsi ona evi qədər doğmadır. Təhsil, elmi, pedaqoji fəaliyyəti əsasən bu fakültə ilə bağlı olubdur. Azərbaycanın orta çağlar tarixinin tədqiqatçısı kimi ana mövzusu dövrünün konyunkturasından daha az asılı istiqamət olmuşdur: «Ağqoyunlu dövlətinin Vene-siya Respublikası ilə qarşılıqlı əlaqələri (XV əsrin 60-70-ci illəri)»; «Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa öl-kələri ilə qarşılıqlı əlaqələri». Beynəlxalq münasibətlərə, diplo-matiyaya Azərbaycan müstəvisindən bələdçilik etmişdir. Yaqub müəllimin həyatının, həm də elmi fəaliyyətinin mühüm bir dövrü Azərbaycan Ensiklopediyası ilə bağlı olubdur.Azərbaycanı olduğu kimi təqdim etmək ideoloji qada-ğalarla bir araya sığmırdı. Amma Azərbaycan Ensiklopediyası re-daksiyasında rəsmi statusu Yaqub müəllimin mübarizənin ön sıralarında olmağını şərtləndirirdi. Sovet

* *Tarix üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim,Azərbaycan Respublikasının Prezidenti yanındaDövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrasının müdiri*

cəmiyyətinə yeni ab-havanın gəlişinə qədər qətiyyətlə mövqe nümayiş etdirmək heç də asan başa gəlmirdi.

Azərbaycanın qədim dövr tarixindən günümüzədək bütün mərhələləri üzrə müzakirə aparmağa qabil alim kimi geniş məlumat sahibi olsa da, tədqiqatçısı olduğu orta əsrlər üzrə Y.Mahmudov XX əsrin 80-ci illərində nəinki respublika, SSRİ miq-yasında tanınmış alimlərimiz Ziya Bünyadov, Sara Aşurbəyli, Rəşid Göyüşov, Fəridə Məmmədova ilə birlikdə mətbuat səhifələrində elmi diskussiya aparmışdır. Azərbaycanın dövlət müstəqilliyinə aparan yolda milli oyanış hərəkatına qoşulmuş universitet tələbələrini himayə edən dekan kimi yaddaşlarda qalan Yaqub müəllimin rəhbərliklə qarşı-qarşıya gəlmək cəsarəti bu gün də danışılır. Azərbaycanın orta məktəbləri üçün tarix dərsliklərinin yazılması müasir dövr anlamında Y.Mahmudovun adı ilə bağlıdır. Birmənalı qarşılanmayan bu məsələdə Yaqub müəllimin kəsərli arqumenti millilik, milli dövlətçilik konsepsiyalarını dərsliklərə keçirməsinə söy-kənir. Ata yurdunun Bütöv Azərbaycanı əhatə etməsi mahiyyətli yanaşmaları nə ölkə daxilində, nə də yurd xaricində birmənalı qarşılanmamışdı.Azərbaycan Cümhuriyyəti haqqında həqiqətlərin xalqımıza çatdırıldığı illərdə Y.Mahmudov bu mövzuda tədbirlərin keçirilməsini, elmi işlərin müdafiə edilməsini, tədqiqat işləri aparılmasını təşviq edirdi. 2003-cü ildə AXC-nin 85 illiyi münasibətilə mart-iyun aylarında keçirilmiş beynəlxalq konfrans möhtəşəm elm məclisi idi. Həmin aylarda Y.Mahmudov tədbirin təşkilatçı tərəfdaşı kimi aktiv fəaliyyət göstərirdi. Elə həmin tədbirlərin davamı kimi AXC ensiklopediyasını hazırlamaq həmin dövrdə BDU-nun Tarix fakültəsinin dekanı olan Y.Mahmudova tapşırılmışdı. Həmin məsuliyyətli tapşırığın yükünü diqqətə alaraq, qısa bir müddətdə potensial qüvvələri səfərbər edib 2 cildlik ensiklopediya üzərində iş aparıldı. Universitetin «Türk odası» işgüzar bir məkan – ensiklopediya qərargahı oldu. 2 il ərzində texniki heyətin və redaktorların daimi iş yerinə çev-rilmiş bu otaqda tariximizin şanlı səhifələri haqqını bərpa edirdi. Çoxsaylı müəlliflərlə görüşən Yaqub müəllim sətirbəsətir oxuduğu və redaktə etdiyi məqalələrin birgə müzakirəsini keçirirdi. Bəzən 5-6 dəfə oxuduğu məqalə üzərində müəlliflərin fikri nəzərə alınmaqla düzəlişlər edilirdi. AXC ensiklopediyasına daxil edilmiş bir çox görkəmli şəxsiyyətlər, o cümlədən M.Ə.Rəsulzadə, M.K.Atatürk və d. haqqında məqalələrin müəllifi də Y.Mahmudovdur. Olduqca zəhmətkeş, işgüzar olan Yaqub müəllim ətrafındakı həmkarlarından eyni tempi tələb edir və buna nail olurdu. Nəhayət, 2004-cü ildə AXC ensiklopediyasının birinci, 2005-ci ildə ikinci cildi işıq üzü gördü. Y.Mahmudov üçün

doğma mövzuya çevrilmiş Cümhuriyyət tarixi onun çoxsaylı çıxışlarında, yazılarında yer aldı. Əlaqənin qırılmadığı 10 ildən sonra ensiklopediyanın təkmilləşmiş ikinci nəşri işıq üzü gördü. Tarix dərsliklərində tətbiq etdiyi konsepsiyanı elmi nəşrlərə keçirən Yaqub müəllim ensiklopediya işində təcrübəyə malik peşəkar olmuşdur. 2004-cü ildən AMEA A.Bakıxanov adına Tarix İnstitutunun direktoru kimi işə başlayan Yaqub müəllim son 15 il ərzində respublikamız üçün bir «kitab cəbbəxanası» yaratmışdır. Vətən tarixinin müxtəlif sahələri, bütün dövrləri üzrə xüsusi monoqrafiyalar nəşr edildi. Tarix İnstitutu rəhbərliyinə keçdikdən sonra məsuliyyət daha da artdı. Tarix sahəsində işlər intensivləşdi. Çoxsaylı kitabların hazırlanması və nəşri ilə yanaşı respublika hüdudlarından kənarda Azərbaycana aid sənəd və materialların tapılıb surətlərinin vətənə gətirilməsi reallaşdı. Azərbaycanlılara qarşı qətliamların həyata keçirilməsi tarixini gündəmdə saxlamaqla Y.Mahmudovun təşəbbüsü ilə bu mövzuda 5 beynəlxalq konfrans keçirilmişdir. Xaricdə yaşayan tarixçi alimləri konfranslara dəvət edərək Azərbaycan həqiqətlərini beynəlxalq elmi ictimaiyyətin nəzərinə çatdırmağa səy etmişdir. Xarici elmi qurumlarla əməkdaşlıq sənədləri imzalayan Y.Mahmudov çoxsaylı tədbirlərə ev sahibliyi etməklə yanaşı, xaricdəki tədbirlərdə də müntəzəm iştirak etmişdir.

Tarix elmi ilə əlaqədar ölkədə və xaricdə çoxsaylı komis-siyaların üzvü olan Y.Mahmudov ictimai-siyasi xadim kimi də çox fəaldır. Bir neçə çağırış Azərbaycan Milli Məclisinin üzvü olması daha yüksək və səlahiyyətli tribunadan xalqının maraq-ları yönündə çalışmasına daha geniş imkan yaratmışdır. Respublikanın müxtəlif peşə sahibləri istər şəxsi, istərsə ümummilli məsələlərə görə Y.Mahmudova müraciət edirlər. Geniş layihələri gerçəkləşdirməyə hədəfləndiyi zamanda kiçik arzuları çin etməyin məmnunluğunu da bir araya sığışdıra bilən Yaqub müəllim mənəvi gücünü məhz bu zəmindən alır. Azərbaycanın saxtalaşdırılmış keçmişini obyektiv araşdırmaq, Vətən tarixini olduğu kimi yazmaq gələcəyə ünvanlan-mış strateji xətdir. Belə bir sahəyə rəhbərlik isə həm də cəsarət, qətiyyət, prinsipiallıq tələb edir. Yaradıcılıq enerjisini məhz belə şərəfli xidmətə yönəltmiş Yaqub Mahmudov həm də böyük bir tarixçilər nəslinin sadə, təkəbbürsüz, səmimi müəllimi kimi ehtiramla qarşılanır. Bu anlamda Yaqub Mahmudov Azərbaycan ictimaiyyəti üçün həqiqi Xalq müəllimidir!

# Yaqub Mahmudov Şəxsiyyəti

**Səadət Zeynalova***

Akademik Yaqub Mahmudovu elmi-siyasi fəaliyyəti ilə bağlı çoxdan tanıyırdım. Amma onu bir şəxsiyyət kimi 2012-ci ilin yayından onunla bir müəssisədə – Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunda işləməyə başlayandan sonra daha yaxından tanımaq imkanı qazandım. Güclü intellekt, möhkəm iradə, dərin savad, hər şeyi anındaca sistemləşdirmək bacarığına malik olan akademik Yaqub Mahmudov, həm də gözəl insan, ləyaqətli şəxsiyyət və bütün bu bacarıqlarını doğma Vətəninin, xalqının tərəqqisi yolunda sərf edən vətənpərvər bir ziyalıdır.Azərbaycan tarixinin xüsusi məqsədlərlə təhrif olunmuş və saxtalaşdırılmış səhifələrinin yenidən yazılması bu gün akademik Yaqub Mahmudovun rəhbərliyi ilə Tarix İnstitutunun qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu vəzifəni layiqincə yerinə yetirmək üçün Yaqub müəllim Azərbaycan tarixinin bütün dövrləri ilə bağlı xarici ölkələrin arxiv və kitabxanalarında qorunub saxlanılan ilk mənbələrin Azərbaycana gətirilməsi, onların tədqiqata cəlb edilərək nəşr olunması kimi çox mühüm bir ***"Azərbaycan tarixi ilk mənbələrdə"*** adlı layihəni həyata keçirir.

Mən də 2012-ci ildən Tarix İnstitutunun əməkdaşı kimi institutun həyata keçirdiyi bu layihə üzrə Almaniya Federativ Respublikasının müxtəlif arxivlərində ("***Xarici İşlər Nazirliyinin Siyasi Arxivi", "Federal Arxiv"*** *və* ***"Prussiya Mədəni İrsi Gizli Dövlət Arxivi")*** tariximizin son illərədək öyrənilməyərək qalan çoxsaylı problemlərinin tədqiq olunması üçün gərəkli olan qiymətli sənədlərin toplanması və instituta gətirilməsində yaxından iştirak edirəm.Mən və rəhbərlik etdiyim elmi işçi qrupu 2012-ci ildən başlayaraq bu layihə üzrə mütəmadi olaraq hər il bir neçə dəfə Berlin şəhərinə ezam olunaraq Azərbaycan tarixinin müxtəlif məsələri ilə bağlı alman arxivlərindəki çoxsayda sənədləri araşdıraraq onların instituta gətirilməsinə nail olmuşdur.

Bu layihənin ilkin nəticəsi olaraq bir kataloq və bir neçə sənəd toplusu işıq üzü görmüşdür: *"Almaniya Federativ Respublikası arxiv və kitabxanalarındakı Azərbaycan*

* *Filoloğiya elmləri doktoru, professor, Aleksandr fon Humbolt Fondunun laureatı*

*tarixinə aid sənəd və kitabların kataloqu",* (Bakı, 2013); *"Azərbaycan tarixi arxiv sənədlərində (may-oktyabr 1918-ci il). I cild. Almaniya Federativ Respublikası Xarici İşlər Nazirliyinin Siyasi Arxivinin sənədləri*". (Ön sözün müəllifi və layihə rəhbəri: Y.M.Mahmudov. Tərtibçi: G.C.Nəcəfli). (Bakı, 2013); *"Azərbaycan tarixi arxiv sənədlərində (1918-1919). II cild. Almaniya Federativ Respublikası Xarici İşlər Nazirliyinin Siyasi Arxivinin sənədləri".* (Ön sözün müəllifi və layihə rəhbəri: Y.M.Mahmudov. Tərtibçi: G.C.Nəcəfli). (Bakı, 2014); *"Azərbaycan tarixi arxiv sənədlərində (1918). III cild. Almaniya Federativ Respublikası Xarici İşlər Nazirliyinin Siyasi Arxivinin sənədləri"* (çapa təqdim olunmuşdur).

Bundan əlavə, Berlin şəhərində yerləşən "*Mərkəzi Dövlət kitabxanası"*nda saxlanılan Azərbaycan tarixinin müxtəlif dövrlərini əks etdirən bəzi nadir mənbə və kitabların elektron variantlarını da əldə edib Tarix İnstitutunun arxivi üçün gətirə bilmişik. Yaqub müəllim idarəçilikdə çox tələbkar və əzmlidir. Biz hər dəfə elmi ezamiyyətdən qayıdandan sonra Yaqub müəllim institutun Elmi Şurasını çağıraraq bizim orada nə işlər gördüyümüz haqqında həm şifahi, həm də slayd şəklində hesabat verməyimizi tələb edir.

Yaqub Mahmudovun rəhbərliyi və yaxından iştirakı ilə Tarix İnstitutunun 2010-cu ildə nəşr etdirdiyi fundamental əsəri –*"İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi"* (rus dilində) monoqrafiyasını alman dilinə tərcümə etmişəm və kitab artıq nəşrə hazırdır. Bu çox sevindirici bir hadisədir ki, erməni saxtakarlığını ifşa edən, dünyanın müxtəlif dillərinə tərcümə edilən və 2012-ci ildə Dövlət Mükafatına layiq görülən bu əsər artıq alman dilində də işıq üzü görəcək. Onu da qeyd edim ki, Yaqub müəllim unikal bir irs, böyük bir məktəb yarada bilib. Bu gün Tarix İnstitutunda ətrafına özü kimi ciddi, savadlı kadrlar toplaya bilib və onlarla işləməyi daha çox sevir. Mən bir faktın şahidiyəm ki, onun ən layiqli davamçılarının əksəriyyəti vaxtilə onun tələbələri olmuş kadrlardır. Və dəqiq bilirəm ki, bu dahi insan heç zaman çalışmaqdan yorulmur. Digər institutlarda rəhbər işçiləri saat 5-dən sonra nadir hallarda işdə tapmaq mümkündür, amma Yaqub müəllimin iş rejimi daha fərqlidir. Hətta iş saatı bitdikdən sonra saat 7-də də Tarix İnstitutuna getsən onun iş masası arxasında çalışdığını görəcəksən.

Mənim 40 ildən artıq əmək təcrübəm var. Həm doğma Vətənimdə, həm Almaniya Federativ Respublikasının müxtəlif ali məktəblərində, elmi tədqiqat institutlarında çalışmışam. Bundan əlavə, Respublikamızda məsul dövlət vəzifələrdə də işləmişəm. Amma Yaqub Mahmudov kimi ciddi, gərgin iş rejimində çalışan bir rəhbər işçi görməmişəm.

Bir də mən onu hamıdan fərqləndirən bir xüsusiyyətini xüsusi olaraq qeyd etmək istəyirəm. Bu Yaqub Mahmudov şəxsiyyəti, sözünün üstündə durmaq, kişi sözü, qətiyyəti və alicənablığıdır. Mən Yaqub Mahmudov şəxsiyyətini belə tanıyıram.

Çox sevindirici haldır ki, elmdə uca, həyati məsələlərdə müdrik olan bu insan bu gün də eyni coşqu və məsuliyyətlə şərəfli missiyasını yerinə yetirməkdədir. Yaxınlaşan yubileyi münasibətilə Yaqub müəllimi təbrik edir, bütün işlərində uğurlar və möhkəm cansağlığı arzulayıram!

# Prof Dr. Yaqub Mhmudov'a

**Ahmet Baba***

,

İlk defa 2010 yılında kendisi ile tanıştım. AMİA Tarih Enstitüsü Direktörü ve Şeki Milletvekili olarak yapmış oldukları çalışmaları kendisinden dinlediğimde hayranlık duydum. Türk Dünyasının "Ak Sakalı" biriyle tanışmak ve onun çoğu genç akademisyen ve siyasetçide olmayan çalışma azmi, disiplini ve Milletimize olan sevdası beni çok etkiledi. Sözde Ermeni soykırımı meselesine Türkiye'de ki birçok akademisyen ve sözde aydın cesaretle savunamazken O'nun Avrupa'da her toplantıda ve her şeye rağmen ilmi ile ve yüksek sesle savunması takdire şayandır. Dernek olarak, davet ettiğimiz hiç bir toplantımızda yalnız bırakmadı bizleri. "İki Devlet Tek Millet" sözüne sadece lâfta değil fiiliyattada inanan ve bu hususta çaba sarfeden ve bu sözü "Dava" bellemiş bir büyüğümüzdür. Allah ilmini kaîm, emeğini daim eylesin, sağlıklı ve uzun ömürler versin...

* *Tarihdaş Milletler ve Topluluklar Derneği başkanı*

# Akademikin Tələbəlik Yaddaşımda Həkk Etdiyi Xatirələr

**Yaqut Əmirova***

Soyunun, tarixinin dərindən araşdırılmasına ciddi yanaşan, sevimli, adını hər zaman qürurla çəkdiyim akademik, mənim doğma müəllimim Yaqub Mahmudovla tanışlığım 1999-cu il BDU-nun Şəki filialında bakalavr imtahanı zamanına təsadüf edir. Daha əvvəldən onu tanımasam da, dərsliklərdən, kitablardan qiyabi şəkildə tanış idim…

İmtahan komissiyasının sədri Yaqub müəllim idi. Həmin vaxt ümummilli liderimiz H.Əliyev onu 60 yaşı münasibətilə «Şöhrət» ordeni ilə mükafatlandırmışdı. İmtahandan qabaq mən çıxış edib professoru təbrik etdim. Görkəmli alimin çöhrəsindəki təbəssümdən hiss etdim ki, çıxışım onun xoşuna gəlmişdi… Yaqub müəllim bu çıxışın kim tərəfindən yazıldığını soruşdu və mən cavabımda «Hörmətli Yaqub müəllim mən ancaq öz çıxışlarımı edirəm» dedim, «O isə get bala, səni imtahandan azad etdim» dedi. Elə həmin il BDU-nun Tarix fa kültəsinin magistraturasına daxil oldum.

Bir gün qrupumuzda bir oğlan həb solunmaq təhlükəsiylə üzləşmişdi. Həmin vaxt Yaqub müəllim BDU Tarix fakültəsində dekan idi. Biz həmişə olduğu kimi, problemlərimizi onunla həlledərdik…

Yenə başımız dərddə ikən onun qapısını döydük. Onun qapısı heç bir zaman bağlı olmazdı. Problemi olduğu kimi ona danışdıq və professorun çox dəyər verdiyim xüsusiyyətlərindən biri də hər bir kəsi diqqətlə dinləməyi idi. O, iclas keçirdi. O dövrdə magistratura üzrə dekan müavini rəhmətlik Mir heydər müəllimidi. Mir heydır müəllim xəttim yaxşı olduğu üçün məni iclasa katib təyin etdi. Yaqub müəllim məni miclasın katibi olduğumu öyrənəndə onun üzündə xoş bir ifadə yarandı və dediki, bu sarı qız çox savadlı qızdır və mən çox sevindim ki, o təhsilini burada davam etdirir. Belə bir tarixçinin, ustadın mənim haqqımda söylədiyi bu fikirlər məni çox bəxtiyar etmişdi… Onun qayğı keşinsanlığı sayəsində bu qrup yoldaşımızı həbs təhlükəsindən azad etdik.

*T.ü.f.d.,Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstututunun, "Ümumi Tarix" şöbəsi, Bakı, Azerbaycan
Dr., Azerbaycan Milli İlimler Akademisi A.A. Bakıhanov adına Tarih Enstitüsü, "Genel Tarih" şubesi, Bakü, Azerbaycan

Müdriklər bir insanı tanımaq üçün onu vəzifəyə təyin etməyi məsləhət görürlər. Yüksək titullara, mükafatlara baxmayaraq, siması dəyişmədi heç onun…

Yaqub müəllimin AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun direktoru vəzifəsinə təyin edilməsi də təsadüfideyildi. O, həqiqətən bu vəzifəyə layiq idi.

Uzun müddət dən sonra mən Tarix İnstitutunun dissertantı oldum və mövzu götürərkən Yaqub müəllim «Bax, bilirəm savadlısan, amma bu mövzunun aktuallığının əzərə alaraq məsuliyyəti dərket» dediyi andan mən artıq mövzunun mahiyyətini dərketdim. Çünki mövzu Azərbaycanla qardaş Türkiyə münasibətlərinə aid olduğu üçün beləs öyləmişdi. Yaqub müəllim hər zaman Türk dünyasının birlikdə olmasına çalışan bir insandır. Onun bu sahədə də əməyi danılmazdır. Mən 2017-ci ildə dissertasiya mövzusunu müdafi əetdikdən sonra akademikmən iİnstituta işə götürdü və bu gün onunla çiyin-çiyinə çalışmaq mənım üçün çox qürur vericidir.

Bu yaxınlarda akademikin 80 illi yimünasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin onu Idərəcəli Əmək Ordeni ilə təltif etməsi göstərdi ki, Yaqub müəllimin dövlət əhəmiyyətli tədbirləri onun Azərbaycan tarixinə verdiyi töhfələr dövlətin də diqqət mərkəzindədir.

Mənim dəyərli müəllimim, 80 yaşınız mübarək! Elmə verdiyiniz töhfələriniz davamlı olsun. Elmacı olan gənclər bundan hər zaman bəhrələnsin. İşığınız daima yansın, biz də o işığa yığılaq.

# Dahi alim Yaqub Mahmudov haqqında xatirələrim

**Nigar Camalova***

Həm müəllimim, həm elmi rəhbərim, həm də müdürüm akademik Yaqub Mahmudov doğurdan da sözün əsl mənasında yaşadığımız dövrün ən dahi alimlərindən biridir. 4000-ə yaxın elmi nəşrdə**(Yaqub Mikayıl oğlu Mahmudlu (Mahmudov). Biblioqrafik göstərici. Təkmilləşdirilmiş və yenidən işlənilmiş 3-cü nəşri. Bakı: Turxan NPB, 2019. – 824 s. s.308-689)**onun adının olduğunu nəzərə alsaq, deyə bilərik ki, akademik Yaqub Mahmudov Azərbaycanın tarix elmində ən çox adı çəkilən tarixçidir.

Yaqub müəllimlə ilk tanışlığım Bakı Dövlət Universitetində oxuduğum illərə təsadüf edir. O vaxt universitetin Tarix fakültəsinin dekanı vəzifəsində çalışırdı. 2002-ci ilin sentyabrın 1-də, universitetdə ilk dərs günündə Yaqub müəllim auditoriyaya girdi, özünü təqdim etdi və 5-10 dəqiqəlik nitq söylədi. Yaqub Mahmudov bizi universitetə qəbul olunmağımız münasibətilə təbrik etdi və dedi ki, siz fəxr etməlisiniz ki, Ümummilli lider, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin təhsil aldığı Tarix fakültəsində oxuyacaqsınız. Bu sizin məsuliyyətinizi daha da artırır.

Biz Yaqub müəllimi tələbələrin hər bir probleminə diqqət və qayğı ilə yanaşan, bizim dostumuz, ədalətli, savadlı, vətənpərvər bir dekan kimi tanıdıq. İkinci kursdan bizə Orta əsrlər tarixi fənnindən mühazirələr oxumağa başladı. Hər bir mühazirəsində milli ruh, vətənpərvərlik hissi sezilirdi. Bizə mübariz, dövlətə, millətə layiqli vətəndaş olmağı, elm yolunda hər cür çətinliyə sinə gəlməyi, lazım gələrsə bağlı qapıları "sındırmağı" tövsiyə edirdi.

* *Azərbaycan Respublikası, Bakı ş., AZ 1143, Hüseyn Cavid pr. 115,AMEA-nın əsas binası, VI mərtəbə,A.A.Bakıxanov adına Tarix İnstitutu,"Ümumi Tarix" Şöbəsi, kiçik elmi işçi*

2004-cü ilin yay semestri orta əsrlər tarixi fənnindən imtahan idi. Yaqub müəllim imtahan başlayan kimi mənə dedi ki, "dur ayağa". Mən də durdum. Ünvanıma o qədər gözəl təriflər yağdırdı ki, dedi ki, mən bu qızı tanıyıram, savadlı, istedadlı qızdır, hansı imtahana girirəm bu qızı azad edirlər, sən buna layiqsən, mən səni imtahandan azad edirəm, qiymət kitabçanı gətir, beşini yazım get. Daha sonra digər imtahan götürən müəllim seminaristimiz Sayad xanıma üzünü çevirib dedi ki, başqa kimlər yaxşı oxuyubsa hamısını imtahandan azad edək.

İkinci kurs tələbəsinin fakültə dekanından bütün auditoriyanın gözü qarşısında bu cür təriflər almasından böyük xoşbəxtçilik ola bilməzdi. Buna görə həddən artıq sevincli idim. İndi də yada salanda təbii həm mən, həm də yaxınlarım qürur hissi keçiririk.

Sonra Yaqub Mahmudov fakültə dekanı vəzifəsindən gedərək Tarix İnstitutuna direktor təyin edildi. Mən universiteti bitirdim və işləməyə başladım. 2011-ci ildə doktoranturaya ilk imtahanlar barədə elan çıxdı. Biləndə ki, Tarix İnstitutunun direktoru mənim sevimli müəllimim Yaqub Mahmudovdur, dərhal seçimlərin (imtahanın) ədalətli olacağına əmin oldum və sənədlərimi institutun doktoranturasına verdim və ən yüksək balla qəbul olundum. Doktorantura imtahanından bir epizodu yaxşı xatırlayıram. Suallarımdan biri akademik Yaqub Mahmudovun tədqiq etdiyi Azərbaycan diplomatiyasının orta əsrlər dövründən idi. Mənə sual verildi ki, (səhv etmirəmsə imtahan komissiyasının üzvü, hazırda direktor müavini Cəbi Bəhramov bu sualı verdi) bu dövrün ən güclü tədqiqatçısı kimdir? Dərhal cavab verdim ki, Yaqub Mahmudov. Yenə sual verildi ki, tanıyırsanmı o adamı? Dərhal imtahan komissiyasının sədri Yaqub müəllimi göstərərək dedim: "Odur!" Yaqub müəllim gülümsədi və qarşısındakı vərəqdə qeydiyyat apardı.

Bir gün günorta saatları idi, mənə zəng gəldi. Zəng edən elmi katib rəhmətlik Gövhər xanım idi. Dedi ki, səni Yaqub müəllim çağırır, sabah gələ bilərsənmi? Dedim ki, əlbəttə gələrəm. Səhəri gün instituta, Yaqub müəllimin qəbuluna gəldim. Yaqub müəllim dedi ki, internetlə, informasiya ilə aran necədir? Dedim ki, yaxşıdır. Dedi mənə mətbuat işlərinə baxan adam lazımdır, bacararsanmı? Dedim bacararam.

Məni Tarix İnstitutuna işə götürdü. O gündən (2012-ci ildən) Tarix İnstitutunda işləyirəm və işimi də çox sevirəm. Mətbuat işlərinə məsul şəxs kimi, Yaqub müəllimlə eyni iş otağında otururdum. 2 il bu vəzifəni həyata keçirdim. İşlədiyim müddətdə o insanda tükənməz enerji, işinə sevgi və məsuliyyət gördüm. Mən həyatımda bu qədər məsuliyyətli, işinə can yandıran, tariximizi dərindən bilən, enerjili, səhvsiz işləyən bir insan görməmişdim.

Yaqub Mahmudov həm də özü də bilmədən mənim 1 arzumu həyata keçirdi. 1 arzum var idi. Almaniyada olmaq. Almaniyanı çox sevirdim. Hətta alman dilini də öyrənmişdim. Getməyi çox istəyirdim, müəyyən səbəblərdən gedə bilməmişdim. Bir gün Yaqub müəllim mənə dedi ki, Berlində arxivdə Azərbaycan tarixinə dair sənədləri ölkəmizə gətirmək üçün bir qrup tarixçini elmi ezamiyyətə göndərəcəm, bu qrupa səni də qoşmaq istəyirəm, almanca bilirsən. Dedim ki, Yaqub müəllim məsləhət sizindi, əgər belə lazim bilmisinizsə əlbəttə gedərəm. İnana bilmirdim. Həddən artıq sevinirdim. O an üçün ən böyük arzum həyata keçəcəkdi. Keçdi də, getdik, canla-başla işlədik və arxivimizi də gətirdik.

Akademik Yaqub Mahmudov elmi rəhbərim olaraq hər zaman mənə dəstəkdir, deməli mənim bir arzumun (Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün dissertasiya müdafiəsi) da həyata keçməsi onun adı ilə bağlı olacaqdır.

Hal-hazırda A.A.Bakıxanov adına Tarix İnstitutunun rəhbəri kimi, akademik Yaqub Mahmudovun uğurları, həyata keçirdiyi layihələr, Azərbaycan tarixinin təbliğində, informasiya müharibəsində ermənilərə qalib gəlməyimizdə göstərdiyi xidmətlər danılmazdır. Yaqub müəllim çox gözəl, yüksək səviyyədə insani və mədəni keyfiyyətlərə malik, dahi tarixçidir. Nə yaxşı ki varsınız. Nə yaxşı ki sizi tanımışam. Bir daha yubileyinizi təbrik edirəm.Çox yaşayın, saglam və gözəl yaşayın!